www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 3 noyabr 2014-cü il Bazar ertəsi № 270 (5979) Qiyməti 40 qəpik

**Xəbər**

## Bakıya yarım milyonluq avtomobilləri kim gətirir?

yazısı səh.14-də

**Gündəm**

## Xətaidə gecəyarı ağac qətliamına görə qarşıdurma



Deputat İqbal Ağazadə böyük bir parkın məhv edilməsi prosesini durdurdu; məsələyə Hacıbala Abutalıbovun müdaxiləsindən sonra kəsilən ağacların yerində park salınmasına qərar verildi...

yazısı səh.10-da

## Arif Hacılının müavinindən Qubad İbadoğluna sərt ittihamlar

Müsavat başqanının mesajlarına reaksiyalar gəldi...

yazısı səh.5-də

## Nazir, bazar və Əhmədli sakinlərinin çəkdiyi azar...

yazısı səh.3-də

## İntiqam Əliyevin diaqnozu açıqlandı

yazısı səh.2-də

## Müflis olan "Qasid" redaksiyalara olan borcunu necə ödəyəcək?

yazısı səh.4-də

## "Daş mafiyası" büdcədən ildə 900 milyon manat oğurlayır

yazısı səh.6-da

## Müsavat Milli Şuranın budəfəki mitinqinə də qatılacaqmı?

yazısı səh.9-da

## Bakıda bir ailədə 4 nəfərin qurğuşunla zəhərlənib öldürülməsinin şok təfərrüatları

yazısı səh.13-də

*Ekspert:*

## "Qərbdə Qarabağ münaqişəsinə münasibət dəyişib..."

yazısı səh.9-da

## Azərbaycan üçün ilin 10 ayı necə keçdi? - rəy

yazısı səh.4-də

## Əvvəli gülməli, sonu ağlamalı...

Azərbaycan insanı kredit bataqlığından niyə çıxa bilmir?

yazısı səh.15-də

## Balqabaq bayramında 5 nəfər öldü

yazısı səh.14-də

# Parisdəki iki sammitin bir mühüm mesajı

# ANKARA VƏ BAKI HÜCUM DİPLOMATİYASINI SEÇİR - TƏHLİL

Sərkisyanın "soyqırımı" dəvətinə Ərdoğanın məhz ermənipərəst Fransadan sərt reaksiya verməsi "yubiley" ilinə Türkiyənin hansı kontr-hazırlıqlarla gedəcəyini anons edir; Ermənistanın 2015-ci ilə uğurlu həmlə ilə girmək istəyinə başqa bir zərbəni Yelisey Sarayındakı Qarabağ danışıqlarında Azərbaycan öz maksimalist mövqeyi ilə vurdu...



yazısı səh.8-də

# Azərbaycanın "Üç müşketyor"unun qazıntı-söküntü korrupsiyası

"Azərsu", "Azəryolservis" və Bakı meriyası 2 milyard 250 milyon manatlıq dövlət investisiyasını "söküntü-təmir" adı ilə mənimsəyir; yolları təcili şəkildə normal vəziyyətə gətirməklə bağlı hakimiyyətin göstərişi Cavid Qurbanov, Hacıbala Abutalıbov və Qorxmaz Hüseynov üçün əsl "biznes" mənbəyinə çevrilib...

yazısı səh.6-da



*Vahid Əhmədov:*

## "İsrafçılığın qarşısını qanun və ya qərarla almaq mümkün deyil..."

yazısı səh.7-də



*Elman Fəttah:*

## "Hakimiyyətin "şeytanı" belə bizi qəbul etmək istəmir"

yazısı səh.12-də



Rey Kərimoğlu

## Qarabağ qazisindən kəlbəcərli girovlarla bağlı ilginc təklif

yazısı səh.11-də



## Müsavat zona müşavirəsi keçirib

**Dünən Cəlilabad şəhərində Müsavat Partiyasının Salyan, Biləsuvar, Masallı və Cəlilabad rayon təşkilatlarının üzvlərinin iştirakı ilə zona müşavirəsi keçirilib. Tədbirdə Müsavat Partiyasının Başqan müavinləri Elman Fəttah və Səxavət Soltanlı, partiya fəallarından Əbülfəz Sadıqbəyli və Vasif Sadıqlı iştirak ediblər.**

Müşavirədə bələdiyyə seçkilərində iştirak və digər siyasi məsələlər müzakirə edilib.

NURLAN

## Son 3 gündə Kobani döyüşlərində 100 İŞİD-çi öldürülüb

### Peşmərgənin gəlməsi kürdləri ruhlandırıb, Hələbdən isə əlavə İŞİD qüvvələri köməyə gəlib, İraq alimləri sünni qəbilələrini qorumağa çağırış edib

**Kobanidə döyüşlər yenidən şiddətlənib. Suriya İnsan Haqları Müşahidə Evi təşkilatı son 3 gündə Kobani və ətrafında davam edən döyüşlərdə 100-ə yaxın İŞİD üzvünün öldürüldüyü haqda məlumat yayıb. Ümumilikdə isə İŞİD-in Kobaniyə hücum etdiyi 16 sentyabrdan bu yana davam edən döyüşlərdə 576 döyüşçü itirdiyini yazıb.**

Bundan başqa döyüşlərdə 361 kürd (YPG) döyüşçüsü və 21 nəfər mülki şəxs Kobanidə öldürülüb. Təşkilatın hazırladığı hesabatda son günlərdə Kobaniyə Hələb və Rəqqa şəhərindən İŞİD döyüşçülərinin gətirildiyi qeyd edilib. Yeri gəlmişkən, son günlər Kobanidə İŞİD snayperlərinin mövcud olması və hündür binalardan kürdləri atəşə tutması haqda xəbərlər yayılıb.

## Peşmərgə kürdlərə ruh yüksəkliyi gətirib

**Oktyabrın sonunda Şimali İraqdan Türkiyə ərazisindən keçməklə Kobaniyə köməyə gələn peşmərgə qüvvələri şəhəri müdafiə edən kürdlərdə ruh yüksəkliyi yaradıb. Noyabrın 1-də Kobaniyə girən peşmərgə ağır silahlardan istifadə etməklə, İŞİD mövqelərini atəşə tutub.**

Kobani kantonu (vilayət) həmsədri Ənvər Müslim "Associated Press" xəbər agentliyinə açıqlamasında peşmərgənin gəlişinin kürdlərə ruh yüksəkliyi verdiyini deyib. Eyni zamanda koalisiya qüvvələri də Kobani və ətraf ərazilərdəki İŞİD mövqelərini bombalamaqda davam edir. ABŞ ordusu ötən həftəsonu Kobani ətrafında İŞİD-ə məxsus 4 bina və döyüş səngərlərinin vurulduğunu bəyan edib.

## Suriyada Məhərrəmlik mərasimləri

**Son 3 ildə davam edən daxili müharibə səbəbindən nisbətən gizli keçirilən Məhərrəmlik mərasimləri bu ildən başlayaraq yenidən kütləvi şəkildə qeyd olunmağa başlayıb. Türkiyənin "On4-haber" kanalının məlumatına görə, ölkə əhalisinin 15 faizini təşkil edən şiə-ələvilər təhlükəsizlik təminatı olması səbəbindən Məhərrəm-Aşura mərasimlərini açıq şəkildə qeyd etməyə başlayıb.**

Paytaxt Dəməşqdə və şiələrin yaşadığı bölgələrdə əza məclisləri keçirilməyə başlayıb. Bundan başqa hökumət bu bölgələrdə təhlükəsizliyi təmin etmək üçün könüllü birliklərə silah paylayıb və yerli təhlükəsizliyin təmin olunmasında könüllülərin dəstəyindən yararlanmağa çalışır.

❑ Kənan RÖVŞƏNOĞLU, müsavat.com

# İntiqam Əliyevin diaqnozu açıqlandı

## Həbsindən sonra vəkilin boyun və bel nahiyəsində xəstəliklər yaranıb

**Həbsdə olan Hüquq Maarifçiliyi Cəmiyyətinin sədri, vəkil İntiqam Əliyevin avqustun 24-də aparılan müayinəsinin nəticələri açıqlanıb. Vəkilin boyun nahiyəsində osteoxondroz (duzlaşma), belində isə yırtıq aşkar edilib. Bu haqda oktyabrın 31-də İntiqam Əliyevlə görüşəndən sonra qızı Nərmin Kamil facebook səhifəsində yazıb.**



İntiqam Əliyevin səhhəti oktyabrın 24-də keçirilən məhkəmə prosesində kəskinləşmiş, istintaq orqanı vəkili təcili müayinə üçün Onkoloji Mərkəzə aparmağa məcbur olmuşdu. İntiqam Əliyevin vəkili Cavad Cavadov "Yeni Müsavat"a açıqlamasında bildirmişdi ki, dayaq hərəkət aparatında problemlər yaranan İntiqam Əliyevin səhhətinin kəskin ağırlaşması məhkəməyə 9 məhkumla eyni maşında gətirilərkən havasızlıqdan yaranıb.

Kamil yazır ki, atasının səhhətində ciddi geriləmə var: "Pozitiv görünməyə çalışsa da atam ayaq üstə durmağa çətinlik çəkirdi. Bizə bildirdilər ki, müalicə ambulator şəraitdə davam edəcək. Baş ağrıları özünün dediyinə görə, yuxusuzluqla bağlıdır. Atam cəmi 2-3 saat yata bilir".

Nərmin Kamilin diqqət çəkdiyi daha bir məsələ havaların kəskin soyuması baxmayaraq istintaq təcridxanasının qızdırılmamasıdır: "Kameralar çox soyuqdur. Təcridxananın istilik sistemi noyabrın 15-də işə salınacaq. Ancaq söz veriblər ki, kameraya qızdırıcı veriləcək".

Nərmin Kamilin sözlərinə görə, atasının içəridə yazdıqları kənara buraxılmır: "İntiqam Əliyev ona ünvanlanan məktublara, jurnalistlərin suallarına cavab verə bilmir. Hər dəfə vəkilləri ilə görüşə gələndə onun yazdıqları əlindən alınır və geri qaytarılmır. Vəkillərlə görüşdükdə isə vaxt az, müzakirə edilməli məsələlər çox olduğu üçün yenidən yazmaq imkanı olmur. Atam bütün dostlara salamlarını, sevgilərini və təşəkkürlərini çatdırır. Tapşırdı ki, dostlar onun səhhətinə görə narahat olmasınlar. Hər şey düzələcək".

Azərbaycanın ünlü vəkillərindən sayılan İntiqam Əliyev bu il avqustun 8-də həbs edilib. Nəsimi Rayon Məhkəməsinin qərarı ilə hüquq müdafiəçisinə qarşı Cinayət Məcəlləsinin 213.1-ci (vergidən yayınma), 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə etmə) və 192.2-ci (qanunsuz sahibkarlıq) maddələri ilə ittiham elan olunub. Oktyabrın 24-də məhkəmə İntiqam Əliyevin həbs müddətini daha 3 ay uzadıb. Vəkil indi hazırda 1 saylı Bakı İstintaq Təcridxanasında saxlanılır.

❑ Aygün MURADXANLI

# İraqda ordu irəliləyir

**İraqda İŞİD-ə qarşı ordu və şiə könüllüləri ilə peşmərgənin birgə əməliyyatları davam edir. Noyabrın 1-də İraqın əsas neft anbarlarının yerləşdiyi Beyci qəsəbəsi İŞİD-dən təmizlənib. Ancaq eyni zamanda İŞİD Ənbar əyalətində çoxlu sayda tayfa üzvlərini qətlə yetirib və əsir alıb.**

İraqın nüfuzlu İslam alimi Ayətullah Seyid Əli Sistani hökumətə müraciət edərək İŞİD-ə qarşı savaşan qəbilələri qorumağa çağırıb. İslam alimlərinin hazırladığı birgə müraciət İraq Müdafiə və Daxili İşlər nazirliklərinə ölkədə terrora qarşı savaşan qəbilələrə yardım edilməsinə çağırır. Kərbəlada İmam Hüseyn (ə) hərəminin imam-camaatı Şeyx Əbdülmehdi əl-Kərbəlayi Cümə xütbəsində hökuməti sünni qəbilələrini İŞİD-in hücumlarından qorumağa və dəstəkləməyə çağırıb. İmam-camaat bildirib ki, İŞİD İraqın qərbində bəzi sünni qəbilələrini İŞİD-i dəstəkləmədikləri üçün cəzalandırıb və onlarla gənc qəbilə nümayəndəsini qətlə yetirib.

## Müsavat Məclisinin yenidən çağırılmasına ehtiyac yaranıb

### Partiyanın orqanları tam formalaşmayıb; yetərsayın yaranmasında problemlər yaşanır...

**Müsavatın 27 sentyabrda keçirilən qurultayından sonra partiyanın Məclisi, MNTK və Divanı hələ də tam formalaşmayıb. Qurultaydan sonra iki dəfə seçkilər keçirilməsinə baxmayaraq, edilən səylər nəticəsiz qalıb.**

Hazırda Müsavat Məclisində 32, MNTK-da 2 və Divanda isə, 4 yer boşdur. Belə vəziyyətin yaranması bu icra orqanlarının iclası zamanı yetərsayın yaranmasına ciddi təsir göstərir. Məhz bunun nəticəsində seçkidən-seçkiyə namizədliklərini irəli sürən partiya üzvlərinin tələb olunan səsləri toplaya bilməmələri narazılıqların yaranmasına səbəb olur. Yaranan bu vəziyyət onu deməyə əsas verir ki, yaxın günlərdə Müsavat Məclisinin yenidən toplanmacağı gözlənilir.

Müsavat başqanın müavini Nüşabə Sadıxlı Məclisin uzun müddət boş qalmasının mümkünsüz olduğunu bildirdi: "Müsavat Məclisi bu qədər boş qala bilməz. Növbəti ay ərzində Məclis mütləq yenidən toplanmalıdır. Boş yerlərə namizədlər seçilməlidir. İndiyə qədər Müsavat Divanının yalnız bir toplantısı keçirilib. Onda da bu məsələ müzakirə olunmayıb. İclasda Müsavatın bundan sonra gedəcəyi yoldan, vəzifələrdən danışıldı. Bu barədə Məclisin vaxtı müəyyənləşmədi. Çox təəssüf edirəm ki, bu qədər boş yer qaldı. Bildiyimiz kimi, 25 oktyabrda keçirilən Məclisin seçkisində bəzi problemlər yarandı. Yas düşdüyü və rayonlardan üzvlərin gəlməsində problem yarandığı üçün Məclis istədiyimiz kimi alınmadı. Səs fərqləri məhz bu səbəbdən az oldu. Namizədlər Məclisə seçilmədi. Mütləq Məclisi yenidən çağırıb, üzvləri seçmək lazımdır".

Onu da qeyd edək ki, başqanlığa keçmiş namizəd Qubad İbadoğlunun tərəfdarlarının 25 oktyabr iclasına gəlməmələri Məclisin kvorumuna və namizədlərin əksəriyyətinin seçilməməsinə ciddi təsir göstərmişdi.

Nüşabə Sadıxlı yaranan bu məsələyə də aydınlıq gətirdi: "Yəqin ki, növbəti Divanda bu məsələ həll olunacaq. Konkret qərar veriləcək. Bu, bir siyasi təşkilatdır. İnsanların müqəddəratı burdan asılıdır. Çalışacağıq ki, uyğun bir qərar qəbul edək. Məclisin iclaslarında bir neçə dəfə iştirak etməyənlər barədə tədbir görülməsi artıq məcburidir. Onu da qeyd edim ki, Məclisə gəlməyənlər də müsavatçılardır. Onlar da Müsavatın dəyərlərinə hörmət edirlər. Müsavatı çox sevirlər. Ümid edirəm ki, növbəti Məclisdə iştirak edəcəklər. Əsəblər soyuyacaq və hər şey öz axarına qayıdacaq".

❑ Cavanşir ABBASLI



## Rusiyada milyarderlərin dörddə biri yəhudidir

### ""Ruslara deyirlər ki, sənin var-dövlətin yabançıların əlindədir

**"Lenta.ru"nun yaydığı xəbər Rusiyada xüsusi maraqla qarşılanıb. Xəbər portalı Rusiya biznes elitasının etnik tərkibi üzrə araşdırma aparıb.**

Saytın məlumatına görə, Rusiyada milyarderlərin dörddə biri yəhudidir və onlar birlikdə 132,9 milyard dollara nəzarət edirlər.

Saytın məlumatına görə Rusiyada 200 milyarder yaşayır. Ancaq onlardan yalnız 89 nəfəri rusdur. Halbuki Rusiya əhalisinin 81 faizini ruslar təşkil edir, yəhudilərsə əhalinin cəmi 0,11 faizi qədərdir. Orta yəhudi milyarder 2,9 milyard dollara sahibdir, orta rus milyarderin isə cəmi 1,9 milyard dolları var.

Rusiyanın ən varlı yəhudisi Mixail Fridmandır. Onun 17,9 milyard dolları var. Digər varlı yəhudilərsə bunlardır: Viktor Bekselberq (17,2 milyard), Leonid Mizxelenson (15,6 milyard), Qerman Xan (11,3), Mixail Proxorov (10,9 milyard), Roman Abramoviç (9,1milyard).

Ruslardan başqa, milyarderlərin siyahısında ukraynalı, tatar, erməni, azərbaycanlı və özbək kapital sahibləri də var.

Bu xəbər insan hüquqları müdafiəçiləri tərəfindən tənqidlə qarşılanıb. Sayt əslində ruslara bildirmək istəyir ki, Rusiyanın var-dövlətinin çox hissəsi rusların əlində deyil. Rusiya prezidenti yanında İnsan Hüquqları Şurasının üzvü Nikolay Svanidze bu araşdırmanı "millətçi" araşdırma kimi dəyərləndirib.

❑ Elbəyi Həsənli, musavat.com

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!
Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.
Telefon: (012) 434 93 01, 434 01 33



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Günün içindən



# Nazir, bazar və Əhmədli sakinlərinin çəkdiyi azar

## Kənd təsərrüfatı naziri Heydər Əsədov deyir ki, "Həzi Aslanov"dakı yarmarka xalq üçün nəzərdə tutulub, amma xalq bu bazardan xeyirdən çox ziyan görür

**Metronun "Həzi Aslanov" stansiyası ilə Ukrayna dairəsi aralığında (Məhəmməd Hadi küçəsi-red.) təşkil olunan kənd təsərrüfatı məhsullarının satış yarmarkası bu ərazidə yaşayan sakinlərin həyatını dəhşətli dərəcədə çətinləşdirib. Həftənin 5-ci, 6-cı və bazar günləri hətta burdan təsadüfən yolu düşən insanlar da dözülməz vəziyyətlə üzləşirlər.**

Ukrayna dairəsindən metro tərəfə və əks istiqamətə 2 dəqiqəlik yolu həftəsonlarında məhz bu yarmarka üzündən 20 dəqiqəyə, bəzən hətta yarım saata gedir adamlar. Bazar yekunlaşdıqdan sonra zir-zibil, antisanitariya daha dözülməz olur. Həftənin 1-ci günü səhər saat 12-nə kimi yarmarkanın olduğu M.Hadi küçəsi nəqliyyatın istifadəsinə bağlı olur. Tör-töküntünü yığışdırmaq, zibilləri daşımaq saatlar vaxt alır...

Uzunluğu təxminən 200-300 metr olan, dəmir konstruksiyalardan quraşdırılmış bu yarmarka geniş bir ərazini əhatə edir.

Qeyd edək ki, bazar məhz avtomobil yolunun üzərində qurulub. Hər həftənin cümə günü günortadan sonra yol bağlanır və satıcıların ixtiyarına verilir. Yarmarkanın şənbə və bazar günü keçirildiyini nəzərə alsaq, bağlanan yol növbəti həftənin birinci günü, günorta saatlarında açılır. 4 gün müddətində avtomobillərə alternativ yol təklif edilsə də, həmin yollar təmir səbəbindən bağlanıb.

Bazarın içində qızğın alver gedir. Alıcı çoxluğundan bazarda rahat hərəkət etmək mümkün deyil. Bazarın çölündə isə müxtəlif istiqamətlərdən gələn avtomobillər sanki bir-birinə dolaşıb.

Bu durumdan həm ərazidə yaşayan sakinlər, həm marşrut avtobuslarının sürücüləri, həm də təcili tibbi yardım maşınlarının sürücüləri, həkimləri narahatdırlar.

Yarmarkanın bu ərazidə qurulması və yolun bağlanması ərazidə yerləşən 7 saylı təcili tibbi yardım stansiyasının fəaliyyətinə də mane olur. Biz ərazidə olduğumuz zaman tıxacda qalan təcili yardım maşınının sürücüsü yolun bağlanması səbəbindən çağırışa gecikdiklərini dedi: "Hər həftə bazar qurulan kimi biz bu vəziyyətlə qarşılaşırıq. Çağırışlara gecikirik. Bu, xəstənin həyatı üçün təhlükə deməkdir. Söhbət insan həyatından gedir. Bu bazarı başqa yerdə də qurmaq olar. Ancaq insanlar üçün bu qədər narahatlıq yaratmaq olmaz. Qarşıdan marşrut avtobusu gəlir. Bu yoldan necə keçəcək?"

M.Hadi küçəsində yaşayan "Yeni Müsavat" qəzetinin baş redaktorunun birinci müavini Azər Ayxan yarmarka təşkil etmək üçün yolun bağlanmasını düzgün hesab etmir. Onun sözlərinə görə, bu bazarı yaxınlıqda yerləşən stadionda təşkil etmək daha məqsədəuyğun olar: "Bu ilin mart ayının 16-dan bu yarmarka fəaliyyətə başlayıb. Həmin vaxtı bizə dedilər ki, bu, sırf Novrvuz bayramları ilə əlaqədar təşkil olunub. Ancaq üstündən 7 ay keçib və yarmarka hələ də davam edir. Biz sakinlərin həyatı çox ciddi şəkildə çətinləşib. Evə gedib-gəlmək, övladlarımızı məktəbə aparmaq bizim üçün problemə çevrilib. Mən bu problemlə bağlı bir neçə dəfə kənd təsərrüfatı naziri Heydər Əsədovla telefonla danışmışam və xahiş etmişəm ki, bazar buradan köçürülsün. Sakinlər də dəfələrlə müxtəlif qurumlara müraciətlər ediblər. Ancaq hər dəfə bizə arqument göstəriblər ki, bu yarmarka xalq üçündür, vətəndaşlar üçündür. Ancaq biz anlamırıq ki, Əhmədli qəsəbəsinin əsas prospektini kəsib burada kənd təsərrüfatı yarmarkası açmaq hansı məntiqə sığır. İnsanların yolunu kəsib bazar açmaq təcrübəsi, mənim fikrimcə, Afrika ölkələrində belə yoxdur. Kənd təsərrüfatı naziri Heydər Əsədovla sonuncu telefon danışığımızda mənə söz verib ki, Xətainin icra başçısı ilə birlikdə bu bazarın yaxınlıqdakı stadiona köçürülməsini müzakirə edəcəklər. Amma hələlik bir nəticə yoxdur".







**"Heydər Əsədovdan xahiş edirik ki, bu yarmarkanı yaxınlıqdakı boş stadiona köçürmək haqda göstəriş versin"**

Müsahibimizin sözlərinə görə, yolun bağlanmasından əlavə bazar ərazidə antisanitar vəziyyətin yaranmasına da səbəb olur: "Yayda bu ərazidə antisanitariyadan, üfunət iyindən qalmaq olmur. Pis iy mənzillərə dolur. Bundan əlavə, satıcıların səs-küyü, dava-dalaşı, bəzən isə qeyri-etik ifadələri evlərimizin içinə qədər gəlir. Mən hörmətli nazir Heydər Əsədova təklif edirəm ki, bu ərazidən bir neçə yüz metr aralıda çox geniş ərazisi olan, hazırda istifadəsiz geniş stadion var. Həmin stadion belə bir bazarın qurulması üçün məqsəduyğundur".

Biz ərazidə müşahidə apardığımız zaman marşrut avtobusları əsas yolun bağlanması səbəbindən alternativ dar küçədən keçmək məcburiyyətində qalmışdı. Birtərəfli yolda avtomobillərin əks istiqamətlərdə hərəkət etməsi əsl qəza şəraiti yaratmışdı. Elə biz ərazidə olduğumuz zaman marşrut avtobusu dar yolda hərəkət edərkən kənarda park etmiş minik avtomobilini əzərək keçdi. Avtomobilin sahibi orada olmadığından marşrut avtobusunun sürücüsü hərəkəti dayandırmadan ərazidən uzaqlaşdı. Ukrayna dairəsində isə vəziyyət daha çətindir. 3 istiqamətdə gələn avtomobillərin hərəkəti yolda mütəmadi tıxac yaranmasına səbəb olur.

Bu vəziyyəti müşahidə edən sakinlər avtomobil yolunun üzərində bazar salınmasını məntiqsiz və anormal bir hal kimi qiymətləndirirlər. Deyirlər ki, bu haqda dəfələrlə mətbuatda çıxış ediblər, dövlət qurumlarına müraciətlər ünvanlayıblar, ancaq heç bir nəticəsi olmayıb.

Qeyd edək ki, bazarın köçürülməsi üçün təklif olunan stadiona da baş çəkdik. Stadion yarmarkanın təşkil olunduğu ərazinin yaxınlığında yerləşir. Asfalt örtüyü və dəmir barmaqlıqlarla səliqəli şəkildə əhatə olunan stadionun ərazisi hazırki yarmarknın ərzisindən də dəfələrlə genişdir və ora istər maşınla, istərsə dəpiyada giriş-çıxış münasibdir. Stadion mərkəzdən bir qədər aralıda yerləşdiyindən burada yarmarkanın təşkil olunması nəqliyyatın hərəkətinə və sakinlərin gündəlik həyatına da mane olmaz.

Əhmədli qəsəbəsinin sakinlərinin problemləri haqqında bu qədər. Problemin həlli isə Kənd Təsərrüfatı Nazirliyinin və Xətai Rayon İcra Hakimiyyətinin bu məsələyə nə dərəcədə həssaslıq göstərməsindən asılıdır.

❑ **Nərgiz LİFTİYEVA**
**Fotolar müəllifindir**

# Avropa Birliyi separatçıların keçirdiyi "seçki"ni qəbul etmədi

## Elxan Şahinoğlu: "Putin Qərblə münasibətləri növbəti dəfə gərginləşdirmək yolunu tutdu..."

**Avropa Birliyi noyabrın 2-də Donbas və Luqansk "xalq respublikaları"nda keçirilən seçkiləri tanımır. Bu haqda Avropa Parlamentinin Xarici İşlər Komitəsinin sədri Elmar Brok bəyanatla çıxış edib. E.Brok bildirib ki, Avropa Birliyi Ukrayna qanunlarının pozulması ilə müşayiət olunan saxta seçkini beynəlxalq hüquq prinsiplərinə zidd sayır.**



Elxan Şahinoğlu

Ağ Ev də separatçıların keçirdiyi seçkinin legitim sayılmadığı haqqında açıqlama yayıb. Rəsmi Vaşinqton bildirib ki, bu addım bölgənin təhlükəsizliyini ciddi təhdid altına qoyur. Ukrayna prezidenti Petro Poroşenko isə separatçıların "seçki" keçirmək cəhdləri haqqında sonuncu dəfə oktyabrın 28-də danışıb. Ukrayna prezidenti bir daha bölgədəki proseslər üçün Kremlin məsuliyyət daşıdığını, Ukraynanın ərazi bütövlüyünü pozmaq istəyənlərə layiqli cavab veriləcəyini deyib.

Separatçılar isə axşam saatlarına doğru "seçkilər"in baş tutduğunu, "xalq respublikaları"na "rəhbər" və "deputatlar"ın seçildiyini, bir neçə ay davam edən hakimiyyətsizlikdən sonra "legitim hakimiyyət" formalaşdırıldığını elan ediblər.

Ancaq Krım yarımadasından fərqli olaraq Rusiya Donbas və Luqanskda seçkiləri qısa zamanda keçirə bilmədi. Ərazi bütövlüyünü təmin etmək üçün Kiyev genişmiqyaslı antiterror əməliyyatlarına başladı. Bir neçə aydır davam edən əməliyyatlarda üstünlük dəfələrlə dəyişib. Əraziyə nəzarət hələlik Rusiyanın açıq dəstək verdiyi separatçılarda qalsa da, Ukrayna onların Kiyevdəki əlaltılarını təmizləyə bilib - Yanukoviç hakimiyyəti dönəmində ordu, polis, prokurorluq sistemlərində kök salan rusiyapərəstlər uzaqlaşdırılıb. Rusiyanın Ukraynadakı əsas dayağı Kommunist Partiyasının fəaliyyəti qadağan olunub, partiyanın son illərdəki fəaliyyəti ilə bağlı Ukrayna Baş Prokurorluğunda cinayət işi açılıb. Ali Radaya oktyabrın 26-da keçirilən növbədənkənar seçki isə rusiyapərəstlərin Ukrayna siyasi səhnəsindən tamamilə sıxışdırılmasına imkan verib.

Analitiklər bildirir ki, Rusiyanın "Donbas sevgisi" Kreml rəsmilərinin təqdim etdiyi humanist prinsiplərlə qətiyyən bağlı deyil. Moskva, sadəcə, Ukraynanın güclü sənaye potensialı olan hissəsini ələ keçirməyə çalışır.

Qərb Kremlin işğalçı siyasətinə qarşı səfərbər olaraq, Rusiyanı iqtisadi cəhətdən zəifləməklə məqsədindən geri çəkilməyə məcbur etmək istəyir. Münaqişə başlayandan Rusiya iqtisadiyyatına milyardlarla ziyan dəyib, rubl tarixi boyu ən aşağı həddinə enib. Ancaq Putin hələ də direniş göstərir. Rusiya analitikləri iddia edir ki, Qərbin səylərinə baxmayaraq Ukrayna həmin əraziləri saxlaya bilməyəcək, Kiyev gec-tez şərq vilayətlərinə geniş muxtariyyət vermək məcburiyyəti qarşısında qalacaq. Bu isə faktiki olaraq həmin torpaqların Rusiyaya birləşdirilməsi anlamına gəlir. Krım təcrübəsi belə deyir.

Prosesi "Yeni Müsavat"a şərh edən "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu da bildirir ki, separatçıların nəzarətindəki ərazilərdə "seçki" keçirmələri hər nə qədər qanundan kənar olsa da, Kiyevin güc yolu ilə müdaxiləsi prosesi daha çətin duruma sürükləyəcək: "Aydındır ki, Kiyev şərq bölgələrinə geniş status verməyə söz verib. Bu həm özünüidarəetmə, həm də müəyyən çərçivələr daxilində yerli qanunverici fəaliyyətin formalaşması demək idi. Bu məqsədlə dekabr ayında həmin şərq bölgələrində seçki keçirilə bilərdi və bu seçkinin nəticəsi Kiyev tərəfindən də tanınacaqdı. Ancaq separatçılar buna getmədilər və Minsk sazişini pozdular. Çünki dekabrda keçirilməsi planlaşdırılan seçki Ukraynanın ərazi bütövlüyünü ehtiva edirdi, indiki seçki isə "müstəqilliyə" aparan yoldur. Demək, Ukraynada qarşıdurma bundan sonra da davam edəcək".

Elxan Şahinoğlu da düşünür ki, 2 noyabr "seçkisi" planın birinci hissəsidir: "İkinci hissədə Rusiyanın bu "seçkinin" nəticələrini tanıması gəlir. Bu isə o deməkdir ki, Putin Qərblə münasibətləri növbəti dəfə gərginləşdirmək yolunu tutub. Çünki Rusiya separatçıların "seçki" nəticələrini tanıyacağı halda Qərb nəinki Rusiyaya qarşı tətbiq etdiyi sanksiyaları yumşaldacaq, əksinə, Kremlə qarşı yeni sanksiyalar müzakirəyə çıxarılacaq. Kreml heç bununla da kifayətlənən deyil. Bir müddət keçəcək, Kreml guya "separatçı parlamentin istəyi" əsasında Donetsk və Luqansk vilayətlərinin Rusiyaya birləşdirilməsi mövzusunu gündəmə gətirəcək".

❑ **Aygün MURADXANLI**

YENİ MÜSAVAT
N 270 (5979) 3 noyabr 2014



# Göyçayda Nar bayramı, Vəngdə qoduq cıdırı

Samir SARI

**Gərək ki, 6-7 il əvvəl yazıçı-publisist Nərmin Kamal yazmışdı ki, İspaniyada 500-dən artıq bayram var və bunlar istər ölkə, istər bölgə səviyyəsində keçirilir. Belə çıxırdı ki, matadorlar ölkəsində hər gün bayramdır, hətta çox vaxt bir günə iki bayram düşür.**

Bu yerdə bizim oxucu dərhal folklora əl atacaq və ilk reaksiyası belə olacaq: "Dəliyə hər gün bayramdır". Sonra mentalitet, milli dəyərlər keşikçiləri deyəcəklər ki, eh, onlara nə var, arsız adamlardır, bütün günü çalıb-oynayır, atdanıb-düşürlər, elə yüngüllük bizə yaraşmaz.

Bu cür başqa ölkələr də var. Məsələn, nə vaxt baxırsan, Braziliyada karnavaldır, yüz minlərlə insan küçələrə tökülüb dingildəyir, oxuyur, deyir, gülür, şoular göstərirlər.

Bu o demək deyil ki, onların sosial problemləri yoxdur. Xeyr, var, amma onlar müxtəlif sosial problemlərə görə qanlarını çox da qaraltmır, keflərindən qalmırlar.

Biz, əlbəttə fərqli camaatıq, ciddi, ağırtaxtalı xalqıq, yüngülməcaz, fıştırığa oynayan deyilik. Ona qalsa, bizdə də bayram çoxdur, amma bizdə əsasən qara bayramlardır. İşğal olunmuş rayonlarımızın işğal günlərinin hər biri bizim üçün ağlaşma günləridir. Hələ bunun qətliam, vertolyot qəzası, metro terroru günləri də var. Biz o dərdləri hər il çəkirik, kütləvi şəkildə oturub ağlaşmasaq da, özümüzü ağlamsınmış, təsirlənmiş kimi göstəririk.

Bizim ispanlardan əsas fərqimiz odur ki, onlara korridada öküz hərləyəndə, qırmızı parça ilə yayındırıb boynundan xəncərləyəndə biz xəncər, zəncir zərbəsini öz belimizə, başımıza yetiririk. Onlar qızmış öküzlərin qabağınca küçələrdə bir az da böyüzm olmuş halda, amma gülə-gülə qaçanda, burda bizim gözümüzün yaşı üzümüzdən bıldır-bıldır axır.

Bir sözlə, biz kütləvi ağlaşma ovqatına köklənmiş camaatıq. Tarix boyu düz-əməlli ağ gün görməmişik, ondandır.

Amma indi müstəqil dövlət olmuşuq, öz əlimiz, öz başımızdır, ağ günlər görmək üçün şansımız artıb. Baxın, "Eurovision" qalibi olmuşuq, hər il paytaxtımızda avtomobil yarışları keçiririk, gələn il Avropa oyunlarını keçirən ilk ölkə olacağıq və sair və ilaxır. Bütün bunlar bayram deyilmi?

Allah tərəfi, partiya (YAP) və hökumətimiz ölkədə bayramların sayının artırılması üçün əməli tədbirlər həyata keçirir və milləti qara bayramlardan, ağlaşma-şivən ovqatından çıxarmağa çalışır. Məsələn, Göyçayda keçirilən Nar bayramı bunun sübutudur.

Camaat yığışır, öz gözəl məhsullarını nümayiş etdirir, elcanlı rəhbərlər mənalı çıxışlar edirlər, ölkəmizdəki inkişaf və tərəqqini, tikinti-quruculuq işlərini tərifləyirlər, xalqın gözü-könlü açılır. Nəyi pisdir? Oturub ağlaşmaq caizdirmi?

Odur, ermənilər Qarabağda, Vəng kəndində hər il qoduq ötüşdürürlər, səhərdən-axşama qədər yeyib-içir, deyib gülürlər. Onlarınkı da odur, ulaq cıdırı ilə kef edirlər. Bizdə olan imkanlar onlarda olsa beynəlxalq festivallar təşkil edərdilər. Amma biz küçələrimizdə "Ferrari" ötüşdürürük. "Ferrari" ilə təzə-təzə eşşəkləşən qoduğun arasındakı fərqi isə hamınız bilirsiniz.

Bu baxımdan Göyçaydakı Nar bayramına ağız büzmək lazım deyil. Bəlkə Lənkəranda keçiriləsi Limon bayramına ağız büzmək, üz turşutmaq olardı, o da yalnız ona görə ki, bu məhsul turşdur, ondan dadanı təbii olaraq o hala salır.

Qubada Alma bayramı keçirilsə, pis olarmı? Əla olar. Ucarda Beçə bayramı keçirilsə, millət tökülüb sacda bişirilmiş cücə çığırtması yeyər, ağzı dada gələr. Tovuz və Qazaxda müştərək olaraq (bəzi mundiallar iki ölkədə keçirilir, bilirsiniz) Xəngəl bayramı, Gədəbəydə Kartof bayramı təşkil etmək də mümkündür.

Gəncə və Sumqayıt işin çəmini tapıb, hər il Şəhər bayramı keçirirlər, meydanlara ildən-ilə uzanan tort çıxarırlar, minlərlə adam tortun başına dolanır. Ruzidir, bərəkətdir.

Milli bayramların sayının artırılması istiqamətində ən mühüm iş işğal olunmuş rayonların geri alınması ola bilər. O zaman işğal günləri, qara ildönümlər kəskin azalar, onların yerində əsl bayramlar əmələ gələr.

Kim bilir, bəlkə biz də ermənilərin acığına Cıdır düzündə qoduq ötüşdürər, sair karnavallar, xalq gəzintiləri təşkil edərik.

Arzu edək ki, gələn il bu vaxt Nar bayramını da, Beçə bayramını da, Xəngəl bayramını da Şuşada, Cıdır düzündə keçirək.

# Müflis olan "Qasid" redaksiyalara olan borcunu necə ödəyəcək?

**Ölkədə qəzet yayımının yaxşı olmadığı bir vaxtda "Qasid" firmasının da müflis olması durumu daha da çətinləşdirir. Qeyd edək ki, "Qasid" yayım firması artıq müflis olub və qəzetlərin bu şəbəkə vasitəsi ilə pərakəndə satışı dayandırılıb.**

Noyabrın 1-dən etibarən "Qasid" "Yeni Müsavat" qəzetini yayım üçün götürmür. Səbəb kimi firmanın müflis olması və redaksiyalara satılan qəzet nüsxələrinə görə pul ödəyə bilməməsi göstərilir. Baş verən hadisə qəzetlər üçün növbəti tiraj və maliyyə itkisidir.

"Azadlıq" qəzetinin redaktoru Sücəddin Şərifovun sözlərinə görə, "Qasid"in onlara borcu 70 min manat civarındadır: "Bir müddət əvvəl pərakəndə satış yığışdırılmışdı, abunələrlə bağlı onlara qəzet verirdik. Bu da cəmi 28-30 qəzet idi. Daha əvvəl isə biz özümüz tirajı azaltmışdıq. Çünki firma pulumuzu verə bilmirdi, daha artıq borclanırdı. Bir neçə gündür ki, firma artıq abunələri də götürmür".

O bildirib ki, firma bağlansa da, onlar borclarını gözləyirlər: "Qasid"in səhmləri dövlətə məxsusdur. Firma iflas olub, bunun da bəlli prosedurları var. Yəqin ki, yaxın gələcəkdə bu istiqamətdə qəzetlərə məlumat veriləcək. Firmanın balansında maşın, bina və sair avadanlıqlar var, yəqin



**Ələsgər Süleymanov: "Qasid"dən pulumuzu almaq üçün bütün hüquqi yollara baş vuracağıq"**



**Sücəddin Şərifov: "Maşını, binası, digər əmlakı var, satıb borcumuzu versinlər"**

ki, onlar satılıb qəzetlərin borcu ödəniləcək. Həmçinin biz hüquqşünaslarla məsləhətləşib mümkün variantları götür-qoy edəcəyik. Bu qədər pul "Azadlıq" üçün olduqca böyük məbləğdir və onun ödənməməsi qəzeti çox ağıq duruma salıb".

S.Şərifov deyir ki, "Qasid" bütün qəzetlərə borcludur, amma ən çox borcu "Azadlıq"adır: "Biz problemlə bağlı Mətbuat Şurasına da müraciət etmişdik. Həm MŞ, həm də KİV DF köməklik etmədi. Dövlətin bu məsələyə laqeyd münasibəti bu borcun qaytarılması marağında olmadığını göstərir".

S.Şərifov deyir ki, qəzetin nəşriyyata borcu hələ də qalmaqdadır və bu səbəbdən qəzet fəaliyyətini dayandırmaq təhlükəsi qarşısındadır: "Təhlükə çox ciddidir. Nəşriyyata borcumuz var. Bir neçə dəfə müvəqqəti dayanmaq məcburiyyətində qalmışıq. Təhlükə bu gün də var".

"Yeni Müsavat" qəzetinin baş direktoru Ələsgər Süleymanov isə bildirir ki, "Qasid"in qəzetə 20 min manat borcu var: "Redaksiya düşünür ki, həmin borc qaytarılacaq. "Qasid" Əmlak Məsələləri üzrə Dövlət Komitəsinə tabedir. Düşünürəm ki, bu borcu onlar hansısa yolla yoluna qoymalıdırlar. Haqqımızı tələb edirik, tələb də edəcəyik. Pullarımızı son qəpiyinəcən alacağıq. Müflis olmuş şirkətin borclarını qaytarmaq üçün qaydalar var, "Qasid" bu qaydalara əməl etməlidir. Məhkəməyə verməyə ehtiyac olarsa, edəcəyik. Amma məhkəməyə o zaman vermək olar ki, onlar borclarını inkar etsinlər. Hazırda onlar bizə borclu olduqlarını inkar etmirlər, bildirirlər ki, ödəmək iqtidarında deyillər. Amma firmanın əmlakları, binası, maşınları var, onları satıb qəzetlərin borcunu verə bilərlər".

❑ Röya RƏFİYEVA

# Azərbaycan üçün ilin 10 ayı necə keçdi?

## Zahid Orucdan maraqlı qiymətləndirmə

**2014-cü ilin 10 ayı arxada qaldı. Bu 10 ay dünyada, əsasən də Azərbaycanın yerləşdiyi regionda gərginliklər, siyasi, iqtisadi təlatümlər, müharibələrlə müşayiət olundu. Ölkəmiz üçün ilin 10 ayını qiymətləndirən deputat Zahid Oruc hər kəs kimi ölkəsindəki prosesləri qiymətləndirdi. "Bu 10 ayda yerləşdiyimiz regionda gedən zərərli proseslər Azərbaycanda müşahidə edilməyib.**

İnsanlar şükranlıq edir ki, bu bizim üstünlüyümüzdür və bunu qoruyub saxlamaq lazımdır. 2014-cü ilin 10 ayında ölkə həyatı dinamik bir səviyyədə olub. Yəni Azərbaycan əvvəlki illərdə mövcud olan transmilli layihələrin üzərində qərarlaşmayıb, onu genişləndirib. Beynəlxalq bazarlar uğrundakı rəqabətdə öz mövqelərini itirməyib, əksinə, biraz da irəliyə aparıb", deyə deputat bildirib.



Zahid Oruc

Z.Oruc onu da dedi ki, ölkəmizi iqtisadi hədəfdə tutan və onu müxtəlif tərəflərə çəkməyə çalışan dairələrin də əlində və ya qovğasında Azərbaycan öz yolunu qoruyub: "Bizim Avrasiya İqtisadi Birliyində təmsilçiliyimiz ətrafında bu 10 ayda çox polemikalar gedib. Eyni zamanda Avropa Birliyinin məlum proqramları çərçivəsində Azərbaycanın Qərbin bütün mənalarda yaxın qonşusu olacağı da müxtəlif siyasi dairələrdə bu gün də dartışılmaqdadır. Bu da avtomatik olaraq ölkənin bütün həyatına təsir göstərəcək. Azərbaycan birmənalı Qərbin layihəsini qəbul etmiş olsaydı, bu gün sizin suallarınızın xarakteri dəyişəcəkdi. Eləcə də Azərbaycan Rusiyanın egitası altında formalaşan birliklərə, formatlara daxil olmuş olsaydı siyasi ab-hava və şərait, buradakı aktivlik edən qüvvələrin sıra sayı dəyişəcəkdi. Eyni zamanda bunun avtomatik iqtisadi təsirləri də olmamış deyildi".

Deputatın fikrincə, Azərbaycanın atdığı addımlar Qarabağ məsələsində siyasi mövqeyimizi möhkəmləndirib. Hərbi istehkamlarda da Azərbaycanın vəziyyəti bu 10 ayda müsbət istiqamətdə fərqlənib. İqtisadi imkanlar da xeyli güclənib: "Odur ki, biz araşdırmalar aparanda bu qənaətə gəlirik ki, 2014-cü ilin 10 ayı Azərbaycan üçün uğurlu olub. Biz əldə olunmuş uğurları çox narahat dünya şəraitində qazanmışıq. Bunun özü sadə məsələ deyil. Əgər Rusiya-Ukrayna savaşı olmasaydı, Qərbin Ukrayna ilə savaşı bu qədər ağrılı xarakter daşımasaydı, Avropa və Qərb dairələrinin konflikti davam etməsəydi bölgəmizdə təhlükəsizlik zolağı içərisində Azərbaycan insanın hər biri hakimiyyətdən daha fərqli addımlar atmağı, daha böyük uğurlara nail olmağı istəyərdi. Dünyada, regionumuzda gedən proseslər şəraitində Azərbaycan mümkün olanları edib. Bu mənada hesab edirəm ki, indiki siyasəti davam etdirmək lazımdır. Azərbaycan regional tendensiyalara uymadan özünün strateji mövqeyini qoruyub saxlayaraq irəliyə getməlidir. Azərbaycanla də bağlı müəyyən qeyri-sabitlik planları bu müddətdə var idi, düşünülürdü. İndi də bu düşüncələr qalır. Kimsə, zənn etməsin ki, xarici dairələr, onların kəşfiyyat dairələri bu regiondan bir an belə, əllərini çəkiblər. Əksinə, proses bir az da intensivləşib. Amma Azərbaycan özünün siyasi konfiqurasiyasını qoruyub saxlayaraq, sabitliyi, əmin-amanlığı saxlaya bilir. 10 ayda bu da sübut olundu. Ayrıca hadisələrə enmədən ümumi qeyd etmək olar ki, milli planda ölkənin uğurları çox olub".

Bir çox ekspertlər isə bu fikirdədir ki, ilin 10 ayı 2014-cü ili Azərbaycan üçün siyasi məhbusların sayının artdığı il kimi də xarakterizə etməyə əsaslar verir.

❑ Etibar SEYİDAĞA

YENİ MÜSAVAT
N 270 (5979) 3 noyabr 2014

# Arif Hacılının müavinindən Qubad İbadoğluna sərt ittihamlar

## Səxavət Soltanlı keçmiş başqanlığa namizədin müsahibəsindəki fikirlərə cavab verdi və qarşı tərəfə ittihamlar yağdırdı; “Nizamnamə Qubad bəy və ona yaxın bir neçə şəxs tərəfindən kobudluqla pozulur”

**Müsavat Partiyasının başqanlığına sabiq namizəd Qubad İbadoğlunun “Qafqazinfo”ya müsahibəsindəki bir sıra fikirlər partiyada narazılıq yaradıb. Müsavat başqanının müavini Səxavət Soltanlı narazılığını facebook səhifəsində ifadə edib. O bildirib ki, hörmətli Qubad İbadoğlu müsahibəsində yenə də müsavatçıları, əqidəli insanları və cəmiyyəti çaşdırmağa çalışan fikirlərə geniş yer verib: “Qubad bəy müsahibəsində deyib ki, indiki fikir ayrılıqları Müsavatın yönəlməsi, siyasi strategiyası ilə bağlı fikir ayrılıqlarıdır.**

Qubad bəyin nəzərinə çatdırıram ki, Müsavat Partiyası siyasətində, strategiyasında, yönəldilməsində heç bir dəyişiklik etməyib. Qubad İbadoğlu Divan üzvü olan zamanlarda necə idisə, indi də Müsavat eyni qaydada, eyni hədəflər istiqamətində fəaliyyət göstərir. Siyasi xətt dəyişməyib. Bu siyasət ümumilikdə Azərbaycanda demokratik dəyişikliklərə nail olmaq xəttidir. Siz bu xəttəmi qarşısız, Qubad bəy? Bu siyasətə qarşısızsa, niyə rəhbərlikdə olduğunuz illər ərzində bu narazılığı etmirdiz?

Kimin nüfuzlu olub-olmaması məsələsi nisbi olduğu üçün “Peşəkarlıq, təcrübə, ictimai nüfuz nəzərə alınmadan bütün strukturlar formalaşıb” fikri də kökündən yanlışdır. Nüfuzlu olan müsavatçıların seçdikləri şəxslərdən və fəaliyyətləri ilə seçilən insanlardan strukturlar formalaşır, hələ də bu davam edir. Qubad bəyin əgər belə bir iradı həqiqətən varsa, o zaman ad çəksin, kimin yanlış təyin olunmasını və ya təsadüfi seçildiyini də desin. Ümumi sözlərlə bu işlər olmur axı. Nizamnamə pozuntusu haqqında dediklərinə gəlincə, indiki halda nizamnamə Qubad bəy və ona yaxın bir neçə şəxs tərəfindən kobudluqla pozulur”.

S.Soltanlı sonra qeyd edib ki, Q.İbadoğlunun bütün müsahibələrində partiya haqqında işlətdiyi “Müəssisə” sözü uğursuz bir müqayisədir, əslində bu söz onun partiyaya baxışını ifadə edir: “Heç kim Müsavat Partiyasına nə müəssisə, nə də laboratoriya kimi baxa bilməz. Müsavat Partiyası ”arzular və istəklər”lə deyil, Nizamnamə ilə idarə olunur. Nizamnamə isə mümkün təyinatları qurultayın seçdiyi başqana tanıyır!


Qubad İbadoğlu


Səxavət Soltanlı

Nüfuzla bağlı dedikləri isə birmənalı olaraq yalandır, partiyanı aşağılamaq cəhdidir. İndiki seçilənlər arasında nüfuzsuz heç kim yoxdur. Əslində qurultaydan sonra Qubad bəyin və ona yaxın olan bir neçə insanın davranışları, hakimiyyət mətbuatında həqiqətə uyğun olmayan, yalanlarla zəngin informasiyaları verməsi partiyanın hər kəsi cəlb edən demokratik imicini gözdən salmaqdır, Müsavatın nüfuzunu azaltmaq cəhdləridir. Biz isə partiyanın nüfuzunu sona qədər qoruyacağıq, heç kimə bu imkanı tanımayacağıq”.

Başqan müavini daha sonra bildirib ki, əgər həqiqətən də Qubad bəyə Məclis sədri postu təklif olunubsa, bunun əleyhinədir: “Bu yalnız seçki ilə ola bilər. Qubad bəy isə Müsavat Partiyasının işində yaxından iştirak etmək məqsədi ilə Məclis namizədliyini belə vermədi. Ona yaxın olan Vurğun Əyyub Məclisin iclasına belə qatılmadı. Yalnız Məclis sədri olmaq üçün deyil, Divana da seçilmək üçün ilk olaraq Məclisə seçilmək lazımdır.

Qubad bəy, “Davamız mənafe, vəzifə davası deyil” deyirsiz, icazə verin səmimiyyətinizi qəbul etməyim, siz bütün bu olanları başqan seçilə bilmədiyiniz üçün etmədinizmi? Sıravi müsavatçıları, biri-birinə qardaş, dost kimi münasibət göstərən, bölmələrdə, həbsxanalarda birlikdə olan insanları az qala biri-birinə düşmən etmədinizmi? Bəli, etdikləriniz başqan seçilmədiyinizə görədir! Müsavatın nüfuzunu düşünən seçkilərdən sonra növbəti seçilmiş başqanı təbrik edib, onunla birgə işləyəcəyini deməklə partiyanın nüfuzuna nüfuz qatardı, daha bu böyüklükdə demokratik uğuru gözdən salmazdı”.

S.Soltanlı sonda Qubad İbadoğlunu Məclis üzvlüyünə namizədliyini verməyə, partiyanın işində yaxından iştirak etməyə dəvət edib və bildirib ki, Qubad bəy səmimidirsə, bu addımı atmalıdır.

Səxavət Soltanlının iddialarına və ittihamlarına Qubad İbadoğlunun mövqeyini öyrənmək üçün onunla facebook vasitəsilə əlaqə saxladıq. Noyabrın 2-dən Helsinkidə səfərdə olan Qubad İbadoğlu Səxavət Soltanlıya heç bir cavab vermədi.

❑ **E.SEYİDAĞA**

# Arif Hacılının mesajlarına reaksiyalar

**Oktyabrın 31-də Arif Hacılı Müsavatın başqanı qismində ilk mətbuat konfransını keçirib. Yeni başqan konfransda cəmiyyətə önəmli mesajlar verib.**

A.Hacılı bir daha hər bir partiya üzvünə qucaq açmağa hazır olduğunu bəyan edib. Narazı qüvvələri əməkdaşlığa çağırıb. O bildirib ki, Müsavatın qurultayı indiki vaxtda keçirilsə, 300-400 səs alacağına şübhəsi yoxdur. Müsavat başqanı fraksiya yaratmaq fikrində olanların partiya üzvlərinin gözündə nüfuzdan düşəcəklərini qeyd edib.

A.Hacılının bu və digər fikirləri ilə bağlı narazıların mövqeyini öyrəndik.

Başqanlığa keçmiş namizəd Tural Abbaslı istənilən halda Müsavatda barışığın tərəfdarı olduğunu bildirdi: “Daim birlik, həmrəylik və barışıq tərəfdarı olmuşam. Bundan sonra bu istiqamətdə gedən bütün işlərə qoşulmağa hazıram. Arif bəyin hansı kontekstdən bu məsələyə yanaşdığını deyə bilmərəm. Amma düşünürəm ki, bu olmalıdır. Addım başqan tərəfindən atılmalıdır. Özünü narazı hesab edən insanlarla mütləq görüşülməlidir. Mən təklif edirəm ki, İsa Qəmbərin iştirakı ilə keçmiş başqanlığa namizədlərin dəyirmi masası təşkil olunsun. Bütün məsələlər müzakirə edilsin. Əgər ehtiyac yaranarsa, partiyadaxili ümumi bir forum çağırılsın. Müsavatımızın güclü, monolit olmasını istəyirik. Hər kəs güzəştə getməlidir. Fərqi yoxdur, istər qalib, istərsə də, məğlub olsun”.


**Tural Abbaslı:**
“Təklif edirəm ki, İsa Qəmbərin iştirakı ilə keçmiş başqanlığa namizədlərin dəyirmi masası təşkil olunsun”


**Ellada Məmmədli:**
“O, dialoq sevən adam deyil”

T.Abbaslı Müsavat başqanının fraksiya məsələsi ilə bağlı söylədiyi fikirlərə də cavab verdi: “Fraksiya sözünü bölücülük, əks mövqe kimi cəmiyyətə çatdırmağa çalışırlar. Fraksiya hansısa birliyin tərkibində yaranan birliyə deyilir. Yəni bu, birlikdən yayınma deyildir. Əksinə, birliyin güclənməsinə təsir göstərir. Bu baxımdan inanmıram ki, fraksiya yaradan müsavatçılar nüfuzdan düşsünlər. Fraksiya yaranarsa, müsavatçıların hörməti daha da artacaq. Görülən işlər göz qabağında olacaq”.

O, A.Hacılının “əgər indi qurultay keçirilsə, 300-400 səs yığacağıma şübhəm yoxdur” fikrinə də münasibət bildirdi: “Bu, Arif bəyin şəxsi fikirləridir. Bununla bağlı partiya daxilində sorğu keçirilməyib. Eyni fikirləri mən də deyə bilərəm. O fikirlə razıyam ki, bu gün seçkilər keçirilsə, əvvəlkindən fərqli nəticələr olacaq. Kimin xeyrinə, yaxud ziyanına olar, bunu dəqiq bilən olmaz”.

Başqanlıq seçkilərində Qubad İbadoğlunun ən yaxın tərəfdarlarından biri olmuş Müsavat Qadınlar Təşkilatının sədri Ellada Məmmədli A.Hacılının narazı qüvvələrə qucaq açmaq fikrinin sual doğurduğunu söylədi: “Hər bir partiya üzvünə qucaq açmaq ifadəsindən bir sual doğur: Nədə günah işləmisən ki, indi hər kəsə qucaq açırsan? Arif bəyin ifadələri ilə əməlləri tərs mütənasibdir. Bu ifadə 1 aydan çoxdur ki, səslənir, kimə qucaq açdığı bilinmir. Əslində, mən Arif bəydən heç vaxt küsməmişəm. Arif bəy mənim Qadınlar Birliyinin sədri seçilməyimi istəməyib və seçkidən sonra da məni Qadınlar Birliyinin sədri kimi nə təbrik edib, nə də Sədrlər Şurasında təqdim edib”.

O, dialoq məsələsinə inanmadığını da qeyd etdi: “Arif bəy dialoq sevən adam deyil. Kimdən xoşu gəlmirsə, onu heç vaxt yaxınına buraxmır. Yəqin ki, dialoq da olmayacaq. Bu ifadə onu dəstəkləyən qrup üçün keçərlidir. Mən isə partiyanın indiki məqamda inkişafı üçün fraksiya yaradılmasını labüd sayıram”.

Partiya funksioneri onların qurultayla bağlı verdikləri şikayətə yenicə formalaşmış Müsavat MNTK-nın cavabından razı qalmadıqlarını bildirdi: “Ona görə ki, əlimdə ciddi faktlarım vardır. Samux rayonundan olan qurultay nümayəndələrinin seçimi Gəncə özəyimizin dağılmasına səbəb olub. Buradakı pozuntular fakta əsaslanır”.

E.Məmmədli 25 oktyabrda üzrlü səbəblərdən Məclisdə iştirak etmədiyini və bundan sonra daim iştirak edəcəyini də bildirdi: “Arif bəyin narazılarla görüşməsi fikirləri də yanlışdır. Bizimlə narazılar kimi şəxsən dəvət edib söhbət etməyib. Yalnız Dünyaxanım xanımın ad gününü qeyd edərkən həmin məclisə Başxanım müəllimə tərəfindən dəvət olunduğu üçün iştirak edib”.

❑ **Cavanşir ABBASLI**

# Haqsızlığın ünvanı olan məhkəmələr



**Azər RƏŞİDOĞLU**

**Azərbaycanda müstəqil məhkəmələrin mövcud olmaması ağır fəsadlar yaradır. Özlərinin və ailə üzvlərinin dəhşətli cinayətlərə bulaşması barəsində məlumatlar dolaşan heç bir məmur indiyədək cinayət məsuliyyətinə cəlb edilməyib. Müxalifətçilər isə ən absurd ittihamlarla həbsə atılır. Kənardan belə bir təəssürat yaranır ki, Azərbaycanda cinayət məsuliyyətinə cəlb olunmaq yalnız müxalifətçilərin qismətidir, iqtidar təmsilçiləri belə bir perspektivdən tamamilə sığortalanıblar.**

Günümüzün reallığı budur - müxalifətçilər uydurma ittihamlarla həbsə atılır. Bu, artıq qarşısıalınmaz prosesə çevrilməkdədir. Son zamanlar yalançı şahidlərin yardımı ilə iqtidar siyasi rəqiblərini məhkəmələr vasitəsilə zərərsizləşdirə bilir.

Bu məsələyə xüsusi ilə diqqət yetirmək lazım gəlir. Azərbaycanın Cinayət Məcəlləsinə görə, şahid bilərəkdən məhkəməyə yalandan ifadə verirsə, onu 6 aydan 6 ilə qədər həbs gözləyir. Əgər məhkəmədə sübut olunsa ki, yalan ifadə bilərəkdən olub və qərəzli xarakter daşıyır, onun haqqında məsuliyyət qaldırıla bilər.

Lakin Azərbaycanda indiyə qədər belə bir hala rast gəlinməyib ki, “yalançı şahidlər” yalandan qərəzli ifadə verdiklərinə görə məsuliyyətə cəlb edilsinlər. Bu isə yalançı şahidlərin iqtidar tərəfindən idarə və himayə olunduğunu sübuta yetirir.

Siyasi rəqiblərin təqibini yalnız müstəqil məhkəmələr və ədalətli araşdırma hökmləri aradan qaldıra bilər. Müstəqil olmayan məhkəmələrdə siyasi proseslərin nəticəsi icra hakimiyyətinin sifarişindən asılı olur.

Ədalətsiz məhkəmə hökmləri isə sosial təlatümlərə yol açır. Ölkəni bürüyən sosial partlayışlar, xalq etirazları, narazılıqlar, habelə xarici təzyiqlər ölkə rəhbərini təcili tədbirlər həyata keçirtməyə və ən azı “ərəb baharı”nda olduğu kimi antikorrupsiya imitasiyası həyata keçirməyə məcbur edir.

Bu sırada bəzi hakimlərin cəzalandırılması, habelə, özbaşınalıq və harınlıqları xalq etirazları ilə sonuclanan rayonların icra başçılarının işdən azad olunması əvəzinə “ünvansız söyüş söyən” gənc müxalifətçinin məhkəməsi ilə iqtidar birmənalı şəkildə öz niyyətini nümayiş etdirmiş olur. Bu isə düşünmək üçün əsas verir.

Daha bir məqam ondan ibarətdir ki, məhkəmələr hakimiyyətdaxili qruplaşmalarda da əsas döyüş alətinə çevrilməkdədir. İqtidar artıq bir neçə güc arasında və nüfuzlu və qüdrətli məmurlar arasında bölünüb. Məhkəmələr isə bu prosesdə yardımçı amil kimi çıxış edir.

Məhkəmələrin çıxardığı ədalətsiz hökmlər yüz minlərlə insanın iqtidardan narazı olmasına səbəb olur. Yaranmış vəziyyətdə ən düzgün çıxış yolu günahsız insanların azad olunması olardı.

Ən acınacaqlı fakt ondan ibarətdir ki, indiyə qədər korrupsiyaya və özbaşınalığa görə, nə bir hakim, nə bir prokuror, nə bir iri ranqlı məmur həbs edilməyib. Bütün bunların baş verməyəcəyi ana qədər hakimiyyət nümayəndələrinin demokratiya ilə bağlı vədləri əhəmiyyətsiz qalır.

Yaranmış situasiyada əsas məsələ indiki məhkəmə sisteminin tamamilə dəyişdirilməsi, adamlar arasında az qala ədalətsizlik, inamsızlıq simvoluna çevrilən məhkəmələrdə islahatlara nail olmaqdan keçir.

Azərbaycanda hakimiyyətin heç bir qolu əhalinin əksəriyyəti tərəfindən rəğbətlə anılmır. Bu sırada ən bərbad vəziyyət məhkəmələrlə bağlıdır.

Azərbaycanda islahatlara ilk növbədə məhkəmələrdən başlamaq lazım gəlir. İnsanları dinləmədən, heç bir fakta söykənmədən uzun müddətə həbsə göndərən hakimlərin nə vaxtsa vicdanının oyanacağına ümid bəsləmək də sadəlövhlük olardı. Onları “ağıllandırmağın” yeganə yolu məsuliyyətə cəlb etməkdən keçir. Siyasi iradəsi və istəyi olmayan iqtidar bunu etməyəcək. Lakin azad məhkəmələrin yaradılması ilə bağlı ictimaiyyatın xüsusi aksiyalara əl atması son dərəcə vacib olardı...

YENİ MÜSAVAT
N 270 (5979) 3 noyabr 2014

**Bakı yollarında söküntü işlərinin intensivləşməsi gələn ilin iyununda paytaxtda keçiriləcək Avropa Olimpiya Oyunlarına hazırlıqla bağlıdır. Siyasi hakimiyyət yolları təcili olaraq normal vəziyyətə gətirməklə bağlı göstəriş verib. Ancaq hakimiyyətin bu göstərişi aidiyyəti qurumlar (“Azərsu" ASC, ”Azəryolservis" ASC və Bakı Şəhər İcra Hakimiyyəti (BŞİH) üçün əsl “biznes” mənbəyinə çevrilib.**

# Azərbaycanın “Üç müşketyor”unun qazıntı-söküntü korrupsiyası

## “Azərsu", “Azəryolservis" və Bakı meriyası 2 milyard 250 milyon manatlıq dövlət investisiyasının əhəmiyyətli kəsimini “söküntü-təmir” adı ilə mənimsəyir; yolları təcili şəkildə normal vəziyyətə gətirməklə bağlı hakimiyyətin göstərişi Cavid Qurbanov, Hacıbala Abutalıbov və Qorxmaz Hüseynov üçün əsl “biznes” mənbəyinə çevrilib...

Bu barədə “Yeni Müsavat”a mötəbər mənbələrdən məlumat daxil olub. Mənbə deyir ki, olimpiya oyunlarına hazırlıqla bağlı “Azəryolservis”ə ayrılan investisiya xərcləri 1 milyard manata, BŞİH-in investisiya xərcləri isə 800 milyon manata çatdırılıb. “Azərsu”nun investisiya xərcləri ötən illə müqayisədə bir qədər azalsa da, 450 milyon manatlıq sərmayənin əsasən Olimpiya Oyunlarına xərclənməsi tapşırığını alıb. Bundan faydalanan məmurlar büdcə vəsaitlərini mənimsəmək üçün rabitəsiz fəaliyyətə keçiblər.

“Azəryolservis” və ya BŞİH (paytaxtda yolların təmir-tikintisi ilə hər iki qurum məşğul olur) yolları təmir edir, sonra “Azərsu” sökür və yenidən təmirə ehtiyac yaranır. Və yenidən “Azəryolservis” və ya meriya yolları təmirə bağlayır, böyük məbləğlər silinir.

Mənbə bildirir ki, bu korrupsiya setində ən çox “qazanan” BŞİH-dir. Çünki hansı qurumun layihəsinin olmasından asılı olmayaraq, söküntü və ya təmir işlərinə başlamaq üçün meriyadan “icazə” alınmalıdır. Meriya isə icazəni böyük məbləği “qeyri-rəsmi” ödənişin müqabilində verir. BŞİH-in öz layihələri təbii ki, “icazəsizdir” və buna görə heç kimə ödəniş edilmir.

Mənbə bu korrupsiya üçbucağının maraqlı bir detalını da qeyd edir: qurumların rəhbərləri izi itirmək və medianın haqlı tənqidindən qurtulmaq üçün “kartel razılaşmasına” (bazarın qarşılıqlı razılaşdırmaqla bölüşdürülməsi) gediblər. Məsələnin mahiyyəti belədir: BŞİH başçısı Hacıbala Abutalıbov, “Azəryolservis” ASC-nin sədri Cavid Qurbanov və “Azərsu” ASC-nin sədri Qorxmaz Hüseynova məxsus şirkətlər sahiblərinin tenderlərində iştirak etmirlər. Məsələn, Abutalıbovun şirkətləri “Azərsu”nun tenderinin, Qurbanovun şirkətləri BŞİH-in tenderinin, Hüseynovun şirkətləri “Azəryolservis”in elan etdiyi tenderlərin “qalibi” olur. Yəni sabah kimsə iddia etməsin ki, Qurbanovun ailə üzvlərinə məxsus şirkətlər “Azəryolservis”in tenderini udub. Formal olaraq tenderi başqa şirkət, tutaq ki, Hüseynovun şirkəti udub. Ancaq realda tenderlər “barter” edilib. Yəni formallıq oliqarxların real gəlirlərinə qətiyyən təsir etmir.

Beləliklə, üst-üstə 2 milyard 250 milyon manatlıq dövlət sərmayəsinin əhəmiyyətli kəsimini bu üç qurumun rəhbərliyi mənimsəyir. Sistemsiz söküntü işləri də bu mənimsəməni leqallaşdırmaq üçün lazımdır. Halbuki, normalda hər bir yol təmirə bağlananda onun



kanalizasiya xətlərinin də yararlı olub-olmaması müəyyənləşməli, zərurət yaranarsa işlər paralel aparılmalıdır. Bu həm büdcə vəsaitinə qənaət, həm də vətəndaşların rahatlığının təmin olunması deməkdir.

Yada salaq ki, ötən saylarımızda sentyabrdan etibarən Bakı küçələrində intensiv qazıntı işlərinin aparılması ilə bağlı məlumat vermişdik. Hazırda paytaxtda qazıntı işlərini “Azərsu” ASC həyata keçirir. Qurum paytaxtın Nobel, Bülbül prospektlərində qazıntı işləri aparıb, müxtəlif küçələrdə, yollarda təmirə başlayıb.

“Azərsu” ASC-nin mətbuat xidməti və ictimai əlaqələr şöbəsinin müdiri Anar Cəbrayıllı bildirib ki, hazırda şəhərdə su və kanalizasiya xətlərinin plana uyğun olaraq mərhələli şəkildə dəyişdirilməsi prosesi həyata keçirilir: “Bakıda 30-40-cı illərdə çəkilmiş su xətləri hələ də istismardadır. Onların mərhələli şəkildə dəyişdirilməsi planda var. Ümumiyyətlə, paytaxtda su və kanalizasiya xətlərinin 80 faizi istismar dövrünü başa vurub və bu istiqamətdə vəziyyət ürəkaçan deyil. Həmçinin, Bakıda 8 mindən artıq çoxmənzilli bina var. Bu yaşayış binalarının 70 faizində su xətlərinin vəziyyəti yaxşı deyil. Biz hələlik 10 faizini dəyişə bilmişik və qarşıdakı dövrdə işlər davam edəcək”.

Deməli, bir elə xərclərə baxmayaraq kanalizasiya xətlərinin cəmi 10 faizi dəyişdirilib. 2006-cı ildən etibarən dövlət büdcəsi və beynəlxalq maliyyə təşkilatlarının kreditləri hesabına kanalizasiya sisteminin yenilənməsi üçün 3 milyard dollardan çox vəsait qoyulub. Normalda bu pula bütün ölkənin kanalizasiya sisteminin ən azı 50 faizini yeniləmək olardı. Ancaq sərmayələrin ən çox yatırıldığı Bakıda yararsız xətlərin cəmi 10 faizi dəyişdirilib. Korrupsiyanın səviyyəsini izah etməyə ehtiyac yoxdur. Belə çıxır, xətlərin tam yenilənməsi üçün əlavə bir neçə milyard lazımdır. Deməli, bir o qədər vəsait də xətlər dəyişdiriləndən sonra yolların bərpası üçün “Azəryolservis” və BŞİH-ə lazımdır. Dövlətin pulunu bir neçə məmur bax beləcə göyə sovurur.

❑ **İqtisadiyyat şöbəsi**

# “Daş mafiyası” büdcədən ildə 900 milyon manat oğurlayır

## Hüquq müdafiəçisi daş karxanalarındakı durumun araşdırılmasını istəyir; bu sahədə mənimsənilən pullar kimlərin cibinə axır?

**Hüquq müdafiəçisi Bəxtiyar Məmmədov Bakı ərazisində yerləşən daş karxanaları ilə bağlı araşdırma aparıb. Sensasion məlumatlar əldə edən hüquq müdafiəçisi daş karxanalarıdakı çoxmilyonluq vergi yayınmaları haqda vergilər naziri Fazil Məmmədova məktub yazıb, oradakı vergidən yayınmaların necə baş verməsini detalları ilə göstərib.**

Ona nazirin müşaviri cavab verib və fakt istəyib. Hüquq müdafiəçisi deyir ki, faktlar göz qabağındadır və təqdim etdiyi məlumatları vergi əməkdaşları ilə birgə araşdırmağa hazırdır: “Bu o qədər böyük cinayətdir ki, gizlətmək istəsələr belə bu mümkünsüzdür. Bakı şəhərinin inzibati ərazisində fəaliyyət göstərən daş karxanalarında minimum 1500 ədəd mişar daşı kəsən kombayn fəaliyyətdədir. 1 ədəd kombayn 1 kub metrdən 20 ədəd mişar daşı istehsal edir. Bu da o deməkdir ki, 1 kombayn 1 ay ərzində 200 min ədəd mişar daşı kəsir. Bir mişar daşı sahibkara 12 qəpiyə başa gəlir, 25 qəpik isə gəlir verir.

1 ay ərzində 1 kombayn 50 min manat gəlir gətirir. Deməli, 1500 kombayn 1 ayda 75 milyon, il ərzində 900 milyon manat gəlir gətirir.

Bu da o deməkdir ki, daş karxanalarına sahib olan hüquqi və fiziki şəxslərin 1 il ərzində gəlirləri 30 min manatdan artıq olduğu üçün 18 faiz əlavə dəyər vergisi ödəməlidirlər. Yəni 1 il ərzində 162 milyon ƏDV ödəməli idilər. Lakin, apardığım araşdırmalardan mənə məlum olub ki, ümumiyyətlə Bakı şəhərinin inzibati ərazisində fəaliyyət göstərən daş karxanalarında heç bir fiziki və hüquqi şəxs sadəcə ƏDV ödəmir. O da mənə məlum olub ki, daş karxanalarında fəaliyyət göstərən fiziki və hüquqi şəxslər bir kombayna görə hər ayda yerli vergi nümayəndələrinə 2 min manat nəqd şəkildə verməklə öz gəlirlərini gizlədə bilir, ƏDV ödəmirlər. Bir neçə məmur fiziki və hüquqi şəxslərdən 1500 kombayn fəaliyyəti ilə əlaqədar il ərzində ƏDV yolu ilə dövlətin büdcəsinə 162 milyon ödətməkdən bundan yayınır. Bu yayınma bir neçə məmurun cibinə ildə 36 milyon manat nəğd pul gətirir. Son 10 ili hesablayanda, qeyd etdiyim karxanalarda fəaliyyət göstərən fiziki və hüquqi şəxslər 1 milyard 620 milyon manat, Vergilər Nazirliyinin və yerli vergi əməkdaşları ümumilikdə 10 il ərzində 300 milyon 600 min manat əldə ediblər".

B.Məmmədov deyir ki, daş karxanalarının kombaynlara texniki xidmət, kombaynların ehtiyat hissələrinin satışı, həmin hissələrin gizli istehsalı ilə məşğul olan yüzlərlə dükanlar, emalatxanalar və sexlər də ƏDV-dən yayınır: “Daş karxanalarının gəliri rəsmiləşdirilmir deyə, belə qeyri-rəsmi fəaliyyət göstərən dükan, emalatxana və sexlərin də fəaliyyəti kölgədə saxlanılır. Belə dükan, sex, emalatxana sahibləri il ərzində 20 milyon manatı ƏDV-dən yayındıra bilirlər”.



B.Məmmədov daş karxanalarında texniki təhlükəsizlik xidmətlərinin yox dərəcəsində olmasına diqqət çəkir: “Daş karxanalarında son illər ölüm hadisələri çoxalıb. Bədbəxt hadisə zamanı dünyasını dəyişən fəhlənin sahibini ələ alıb 40-50 min manat xərcləməklə məsələni ört-basdır edirlər. Heç biri cinayət məsuliyyətinə cəlb olunmur, cəzasız qalırlar”.

Hüquq müdafiəçisi karxanalarda istifadə olunan kombaynların əsas hissələrinin qaçaqmalçılıq yolu ölkəyə gətirildiyini qeyd edir: “Bu səbəbdən dövlətin həmin hissələri istehsal edən Bakı Metallurgiya Zavodunun bir çox sexləri öz fəaliyyətlərini dayandırıb, yüzlərlə insan öz iş yerlərini itirib”.

B.Məmmədov yazır ki, bu faktlar barədə 16 sentyabr 2014-cü ildə və 8 oktyabr 2014-cü ildə vergilər naziri Fazil Məmmədova yazılı müraciət edib. Hər iki müraciətə baş vergi xidməti müşaviri İlqar Əhmədov cavab məktubu yazıb: “Cavab məktubunda çox gülünc məzmunda bildirir ki, Vergilər Nazirliyinə ünvanladığım müraciətdə göstərilənləri təsdiq edən rəsmi sənədlər olmadığından vergi nəzarəti tədbirlərinin keçirilməsi mümkün deyil. İlqar Əhmədov müraciətimdə göstərdiyim cinayət faktlarını yerindəcə araşdırmaq əvəzinə dövlət büdcəsindən yayındırılan, oğurlanan 162 milyon ƏDV ödətmək əvəzinə, 36 milyonu rüşvət yolu ilə xalqın, millətin, dövlətin əmlakının oğurlayan məmurların əməllərini ört-basdır edir.

Hələ SSRİ dövründə qeyd etdiyim daş karxanalarında ancaq məhkumlar işləyirdilər və hökumətə milyard rubllarla gəlir gətirirdilər. Onlara mühəndislər nəzarət edirdi. Ona görə də həmin dövrlərdə daş karxanalarında ölüm hadisələri təsadüf nəticəsində baş verərdi.

Onu da bildirirəm ki, 70 il ərzində SSRİ hökumətindən xalqımıza qalan mazut gölməçələrinin qurudulmasından ötrü dövlətimiz milyon manatlarla pullar xərcləyir. Əgər Bakıdakı daş karxanalarında qeyd etdiyim korrupsiya cinayət faktlarının qarşısı alınmazsa, tezliklə həmin daş karxanalarının yerində gələcək nəsil üçün yararsız torpaq sahələri, qayalıqlar, yarğanlar, xəndəklər, toz təpecikləri, gölməçələr miras qalacaq. Təkrar olaraq dövlətimiz heç bir səbəb olmadan gələcəkdə milyon manatlar xərcləməklə həmin yararsız əraziləri abadlaşdırmağa məcbur olacaq. Halbuki, qeyd etdiyim daş karxanalarında fəaliyyət göstərən hüquqi və fiziki şəxslərin bu gün bir amalı var; necə olursa olsun varlanmaq, onları nə dövlətimizin iqtisadiyyatı, nə də bugünkü və gələcək nəsil maraqlandırmır. Odur ki, tam məsuliyyətimlə vergilər naziri Fazil Məmmədova bildirirəm ki, apardığım araşdırmam təkzib olunmaz faktlardır və müraciətimdə göstərdiklərimi real araşdırma və yoxlama aparılarsa sübuta yetirməyə hazıram".

B.Məmmədov araşdırmalarda iştirakının təmin olunmasını da istəyir.

❑ **E.MƏMMƏDƏLİYEV**

**"Baxış bucağı"**

**Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin kadr probleminin mövcudluğu ilə bağlı dedikləri son günlərin əsas müzakirə mövzularındandır. Qaldırılmış problemə optimist yanaşma sergiləyən ayrı-ayrı ekspertlər Administrasiya rəhbərinin məmur elitası ilə bağlı fikirlərini qarşıdakı dönəmdə həyata keçiriləcək kadr islahatlarının anonsu kimi dəyərləndirir. Parlamentə müzakirəyə çıxarılacaq büdcə məsələsi, Rusiya təhlükəsi və digər məsələlərdən danışdığımız Milli Məclisin istiqlalçı deputatı Vahid Əhmədovun kadr mövzusuna özəl baxışı var.**

# "2015-ci ildə hökumətin tərkibində dəyişikliklər olacaq"

## Vahid Əhmədov: "Azərbaycanın müstəqilliyinə xələl gətirəcək müqaviləyə qoşula bilmərik"

***- Vahid müəllim, Administrasiya rəhbərinin kadr problemi ilə bağlı etirafı, sizcə, hansı zərurətdən yarandı?***

- Məsələyə cənab Ramiz Mehdiyev tərəfindən münasibət bildirilməsi, əlbəttə, ciddi faktdır. Mən millət vəkili olaraq çox dövlət qurumları ilə təmasda oluram, müəyyən problemlərin həlli üçün insanlarla görüşürəm və səviyyəni də görürəm. Doğrudan da kadr potensialı ilə əlaqədar ölkədə problem var. Xüsusilə də müstəqillik əldə etdikdən sonra Azərbaycanda kadr potensialı ilə əlaqədar müəyyən boşluqlar yaranıb. Sovet vaxtında kadr potensialına çox ciddi yanaşılırdısa və hər hansı kadrı müəyyən bir vəzifəyə təyin edəndə onun bütün əvvəlki fəaliyyəti nəzərdən keçirilirdisə, son illərdə bu, o qədər də nəzərə alınmır, daha çox müəyyən çevrələrə yaxınlığı ilə tanınan kadrlar seçilir. Ona görə də Azərbaycan üçün kadr portfelinin yaradılması mühüm və əhəmiyyətlidir. Əlbəttə, bu, birbaşa təhsillə, elmlə bağlı məsələdir. Mən bir iqtisadçı millət vəkili olaraq görürəm ki, təhsil və elmin maliyyə cəhətdən heç bir problemi olmur, Azərbaycan dövləti zəruri dəstəyi verir. Amma kadr potensialının belə aşağı səviyyədə olması faktdır.

***- Bəs, kadr çatışmazlığının əsas səbəbləri nədir?***

- Bizim hətta xaricdə oxuyan tələbələrimizin də bəziləri ölkəyə qayıdır, ancaq yenə problem var. Birincisi, dövlət qulluğuna qəbulla bağlı xüsusi idarə yaradılıb. Görünür, o idarə effektiv fəaliyyət göstərmir. Düzdür, orda test sistemi tətbiq olunur, ancaq bizə də çoxlu şikayətlər gəlir, daha çox testdən sonrakı müsahibə mərhələsində problemlər yaranır, görünür, insanlara manеələr yaradılır.

***- Cənab Mehdiyevin fikirləri kadr islahatlarının anonsu kimi də izah olundu. Gözləmək olarmı ki, 2015-ci ildə bugünkü məmurların bir qismi yeniləri ilə əvəzlənəcək?***

- Mütəmadi olaraq dövlət başçısı kadr siyasətini davam etdirir, icra başçıları dəyişdirilir, hökumət üzvləri ilə bağlı addımlar atılır. 2015-ci ildə həm hökumətin tərkibində dəyişikliklər olacaq, həm də gələn il parlament seçkiləri keçiriləcək və seçki ilində müəyyən kadr dəyişiklikləri olacaq. Amma kadr islahatlarının sürətlə aparılmamasının bir səbəbi də cənab Ramiz Mehdiyevin dediyi kimi, kadr çatışmazlığıdır. Məncə, daha çox təcrübəsi olan insanlardan istifadə etmək lazımdır ki, bu problem aradan qaldırılsın. O cümlədən də gənc kadrlardan. Kadr seçimində daha çox təcrübəyə malik, insanlarla ünsiyyət bacarığı olan şəxslərdən istifadə olunmalıdır. Fikir verdim, Ramiz müəllim humanitar məsələlər üzrə müavinləri yığıb, onlarla da söhbət edib ki, insanlarla daha çox təmasda olmaq lazımdır. Müasir dövr daha çox onu tələb edir ki, rəhbərlər insanlarla təmasda olsun. Son vaxtlar nazirlərin bölgələrdə qəbulunu da yüksək qiymətləndirirəm. Fikir verdinizsə, çıxışında cənab Mehdiyev təkcə kadr potensialına deyil, digər məsələlərə də toxundu, o cümlədən dinlə əlaqədar məsələlərə. Dini radikalizmlə bağlı problemlər də var, bu, sirr deyil. Cənab prezident Kamal Abdullanı dövlət müşaviri təyin etdi, ona müəyyən səlahiyyətlər verdi. Bunlar hamısı ondan irəli gəlir ki, bütün dünyada dini radikalizmlə əlaqədar ciddi problemlər meydana çıxıb. Sələfilik və digər təriqətlərin cəmiyyətdə ayaq açması əlbəttə, dövləti narahat edir. Ona görə də məsələyə diqqət artıb.

### "Putin Azərbaycandan əl çəkməyib, çəkməyəcək də..."

***- Kadr çatışmazlığı şəraitində sizə müraciət olunarsa, kifayət qədər təcrübəsi olan şəxs olaraq hansısa vəzifədə təmsil olunmağa razılaşarsınız? Nəzərə alsaq ki, bir neçə həmkarınız vəzifə təyinatı alıb...***

- Mən millət vəkiliyəm, bu, ən yüksək statuslardan biridir. Amma bu, dövlət başçısının səlahiyyətində olan məsələdir.

***- Bəzi müşahidəçilər hesab edir ki, ehsan məsələsində Şeyx bir sıra rəsmilərin mövqeyinə üstün gəldi və prosesi qələbə ilə başa çatdırdı. Razılaşırsınızmı?***

- Söhbət kiminsə qələbə qazanmasından getmir. Açığı, həm ehsan, həm toy məclisləri ilə bağlı problem düzgün qoyulub. Etiraf etmək lazımdır ki, bu mərasimlərdə müəyyən qədər israfçılığa yol verilir. Hansısa qanun, ya qərarla bunun qarşısını almaq mümkün deyil. Yalnız cəmiyyətdə təbliğat yolu ilə irəliləyiş əldə etmək olar. Necə ki, deyildiyi kimi, icra başçısı gəlib deyir "yığışdır, ehsan vermək olmaz", bu, düzgün deyil. Məsələləri belə həll etmək qeyri-mümkündür. Həmçinin toylarda xeyli israfçılıq olur. Bizim Qubanın hacıları, axundları qayda qoyublar, rayonda belə iri məclislər olmur. Ölən adamı dəfn edirlər, qəbir üstə başsağlığı verirlər, qohum-qardaş evə gəlir, qalanlar elə oradan dağılışır.

***- Vahid müəllim, noyabrın 4-dən 2015-ci ilin dövlət büdcəsi komitələrdə müzakirə olunacaq. Neftin qiymətinin düşməsi səbəbindən ölkə büdcəsi üçün də risklərin yarana biləcəyini güman edirsinizmi?***

- Dünyada çox ciddi siyasi proseslər getdiyi üçün, xüsusilə də Rusiya-Ukrayna münasibətlərindəki gərginliklə əlaqədar Rusiyaya qarşı tətbiq olunan sanksiyaların davamı kimi neftin qiyməti aşağı salınır. Barak Obama sanksiyalardan qabaq Səudiyyə Ərəbistanına bir günlük səfər etmişdi. Yəqin müəyyən danışıqlar olub. Çünki OPEK-in əsas neft ixracatçısı Səudiyyə Ərəbistanı və Qətərdir - təxminən 40 faiz miqdarında. Yəqin ki, neftin qiymətinin aşağı düşməsi birbaşa Rusiya ilə əlaqədardır. Biz 2014-cü ilin büdcəsini müzakirə edəndə neftin qiymətini 100 dollar götürmüşdük. Amma 2015-ci il üçün 90 dollar götürülüb. Hesab edirəm ki, 90 dollar da çoxdur, hardasa 80 dollar səviyyəsində götürmək lazımdır. Əgər dövlət büdcəsinə əlavə vəsait daxil olarsa, may-iyun aylarında yenidən büdcəyə baxmaq olar. Yəni çalışmaq lazımdır ki, büdcənin xərc hissəsində problem yaranmasın. Biz büdcənin xərc hissəsində keçən ilə nisbətən hətta əsaslı tikinti üçün xərcləri artırmışıq. Keçən il hardasa 6,5 milyard manat idisə, gələn il üçün 6,9 milyard manat olacaq. Çünki böyük layihələr var, olimpiya oyunları, Cənub Qaz Dəhlizi ilə əlaqədar. Elə bunların ikisinə bir yerdə az qala 2 milyard 200 milyon vəsait ayrılacaq. Zəruri layihələrdir, həyata keçirilməlidir. Amma neftlə əlaqədar 2015-ci ilin büdcəsi bir qədər riskli büdcədir.

***- Ölkəmizi ciddi problem gözləyirmi?***

- Azərbaycanın ehtiyatı kifayət qədərdir. Valyuta ehtiyatı 53 milyard dollara yaxındır, ilin axırına qədər bir qədər də artacaq. Ona görə də Azərbaycan üçün ciddi problem yaranmayacaq.

***- Neft pullarının böyük hissəsinin infrastruktur layihələrinə ayrılması, sizcə, doğrudurmu?***

- Biz son illər büdcənin 30-33 faizini infrastruktur layihələrə ayırmışıq. Təqribən o qədər də sosial layihələrə ayrılıb. Gələn ilin dövlət büdcəsində 32 faiz əsaslı tikinti, 26-27 faiz də sosial layihələr üçün nəzərdə tutulub. Müstəqillikdən sonra Azərbaycanın ən böyük problemlərindən biri infrastruktur layihələr olub, bu problem hələ tamamilə başa çatmayıb. Düzdür, işıq, su, qazla əlaqədar problemlər müəyyən qədər həll olunub, kəndlərdə problem qalmaqdadır. Vəsait ayırmaq lazımdır. Azərbaycana xarici investisiyanı cəlb etmək üçün də bu layihələr icra olunmalıdır, gələn insanlar burda problemlərin aradan qaldırıldığını görsünlər. Burda əsas məsələ



### "İsrafçılığın qarşısını qanun və ya qərarla almaq mümkün deyil"

ayrılan vəsaitin xərclənməsinin şəffaflığıdır, bu məsələyə nəzarəti gücləndirmək lazımdır. Bu, bizi ən çox narahat edən məsələlərdəndir. Ona görə də Milli Məclisdə iri vəsaitlərin xərclənməsinə nəzarəti gücləndirməyi, müvafiq qanunun hazırlanmasını təklif etmişdik. Hesablama Palatasının məruzəsi dinlənilərkən də xahiş etmişdim ki, hec olmasa 500 milyon - 1 milyardlıq iri layihələr barədə yoxlama aparılsın və bizə məlumat verilsin. Görək bu dəfə Hesablama Palatası bizə bu barədə məlumat verəcəkmi?

***- Şimaldan gələn təhdidlər səngimiş kimi görünür. Necə bilirsiniz, Azərbaycana Rusiya təhlükəsi ötüb keçdimi?***

- Azərbaycan-Rusiya münasibətləri ilə bağlı çox müzakirələr gedir. Xüsusilə Ukraynanın Donetsk-Luqansk vilayəti ilə əlaqədar Rusiyanın siyasətinə, Krımın ilhaqına dünyanın münasibəti göstərir ki, hələlik təhlükə bizdən sovuşub. İkinci də Rusiya iri nüvə dövlətidir, qonşumuzdur, 70 il bir yerdə fəaliyyət göstərmişik, yaxın əlaqələrimiz var və bu gün də iqtisadi, siyasi, mədəni, humanitar əlaqələr genişdir. Son vaxtlar Rusiyanın emissarları Azərbaycana daha çox gəlib-gedir. Hətta dünya dövlətləri Rusiyaya sanksiya tətbiq edəndə Azərbaycan meyvə-tərəvəzlə bu ölkəyə kömək etdi. Bu, həm Azərbaycan əhalisi üçün lazım idi, həm də Rusiyaya yardım idi. Çalışmaq lazımdır ki, Rusiya ilə münasibətlər həmişə yüksək səviyyədə olsun. Mən Rusiyanı qonşu, yaxın, strateji dövlət kimi qəbul edirəm. Amma Rusiyanın işğalçılıq siyasətini qəbul etmirəm və edə bilmərəm. Biz heç vaxt razı olmarıq ki, 23 ildir müstəqil olan Azərbaycanın ərazisində hansısa dövlət gəlib bizə böyüklük eləsin, "böyük qardaşımız" olsun. Düzdür, hazırda münasibətlər yüksək səviyyədədir, cənab Ramiz Mehdiyevin rəhbərliyi altında Rusiya ilə əlaqədar humanitar forumlar keçirilib. Amma özümüz də ehtiyatlı olmalıyıq. Çünki bizim Rusiya ilə əlaqədar Qarabağ kimi böyük problemimiz var. Bu problemin də həllinin "açar"ı Rusiyadadır. Lakin artıq son illərdə bu "açar"ın Rusiyanın da əlindən çıxdığı, dünya miqyasına çıxdığı müşahidə olunur. Hər kəs dərk etməlidir ki, bu problem həll olunmasa, bölgədə istənilən vaxt stabillik pozula bilər. Hesab edirəm ki, dövlət başçısının orduya göstərdiyi diqqət çox təqdirəlayiqdir. Gec-tez onsuz da bu torpaqlar alınacaq. Ancaq mən tarixdə elə bir hala rast gəlməmişəm ki, müharibə yolu ilə alınan torpaq sülh yolu ilə geri qaytarılsın.

***- Yəni Putin Azərbaycandan əl çəkməyib?***

- Yox, təbii ki. Putin Azərbaycandan əl çəkməyib, çəkən də deyil. Putinin imperiya siyasəti var, bunu gizlətmir. Avrasiya İttifaqı, Gömrük İttifaqının yaradılması da buna xidmət edir. Yetimə "gəl-gəl" deyən çox olur, amma çörək verən az olur. Fikir verdinizsə, hətta Qazaxıstanla da müəyyən problemlər yarandı. Rusiyadakı müəyyən dairələrin də siyasəti budur ki, bu dövlətləri elə-belə buraxmaq olmaz. Azərbaycan öz siyasətini müstəqil aparır, bu da çox dövlətlərin xoşuna gəlmir. Bir sıra dövlətlər istəyir ki, biz onların əlinin altında olaq və bizim ehtiyatlarımızdan onlar da istifadə etsinlər.

***- Azərbaycanın 2015-ci ildə Gömrük İttifaqı və ya Avrasiya Birliyinə qoşulması mümkündürmü?***

- Milli Məclisdə də bəyan etdim ki, məni ən çox rahat edən cənab prezident İlham Əliyevin mövqeyidir. Dövlət başçısı bütün bəyanatlarda Azərbaycanın müstəqilliyini ön plana çıxarıb. Yəni müstəqilliyimizin daimi, əbədi olması, qorunub-saxlanılması üçün əlindən gələni edir. Bizim üçün əsas budur. Biz Azərbaycanın müstəqilliyinə xələl gətirə biləcək müqaviləyə qoşula, orda iştirak edə bilmərik. Amma Azərbaycan Ümumdünya Ticarət Təşkilatına daxil olmaq istiqamətində iş aparır, müəyyən dövlətlərlə protokollar da imzalanıb. Bu ittifaqa daxil olanda da müəyyən güzəştlər əldə edəcəyik. Dövlət başçımız bir neçə dəfə bəyan edib ki, Azərbaycan inteqrasiya siyasəti yürüdür və Avropa dəyərlərinə üstünlük verir. Bu da faktdır ki, nə qədər Qarabağ məsələsi həll olunmayıb, deməli, risklər böyükdür. Yeri gəlmişkən, Nazirlər Kabinetindəki 9 aylıq yekunları ilə bağlı çıxışında cənab prezident yeni bir termin işlətdi. Dedi ki, artıq Azərbaycan iqtisadi cəhətdən müstəqil dövlətdir. İqtisadi müstəqilliyi təmin etmiş dövlətlər çox azdır, Azərbaycan da onların sırasındadır. Bu, çox əhəmiyyətli məsələdir. Çünki iqtisadi cəhətdən müstəqil olan dövlət siyasi müstəqilliyi də, beynəlxalq aləmdə öz müstəqilliyini saxlamaq, sözünü demək üçün ciddi imkanlara da malik olur...

***- Siz vaxtaşırı ölkədəki qüvvələri barış və dialoqa çağırırsınız. İndiki situasiyada bu məsələni aktual sayırsınızmı?***

- Biz ölkədə iqtisadi və siyasi stabilliyi qoruyub saxlamaq üçün elə bir mühit yaratmalıyıq ki, insanlarımız fərqli siyasi qruplara daxil olmasından asılı olmayaraq dövlət əhəmiyyətli məsələlərdə eyni mövqedən çıxış etsinlər. Biz görürük ki, əlaqələr yüksək səviyyədə olsa da, Azərbaycana Rusiya tərəfdən müəyyən təzyiqlər var. Eyni zamanda Avropadan insan hüquqları ilə əlaqədar təzyiqlər var. Amma bütün bunları elə balanslaşdırmalıyıq ki, ölkə daxilində bizimçün ciddi problem yaranmasın. Ona görə də belə məsələlərdə dialoqa həmişə ehtiyac var. Ölkə rəhbərliyi ilə müxalifət qüvvələri arasında dialoqa getmək lazımdır ki, müstəqilliyimizlə əlaqədar Azərbaycanda problem yaranmasın. Bu, bizimçün çox əhəmiyyətlidir.

❑ **Elşad PAŞASOY**

YENİ MÜSAVAT
N 270 (5979) 3 noyabr 2014

# Müqəvva iqtisadiyyatı



Zamin HACI
zaminhaci@gmail.com

**İqtisadçı ekspert Zöhrab İsmayıl Gürcüstan və Azərbaycan gömrük orqanlarının statistik hesabatlarını araşdırıb, ortaya çıxan nəticə belədir ki, bizim gömrükçülər hər 6 manatlıq malın cəmi 1 manatını rəsmi sənədlərdə qeydə alırlar. Bir az da aydın olsun: Gürcüstanın sənədlərində sərhəddən bizə misal üçün, 6 manatlıq mal keçdiyi göstərilirsə, Azərbaycanın sənədlərində cəmi 1 manatlıq mal yazılır. Qalan 5 manatlıq malı rəsmi olaraq qaçaqmalçılıq, korrupsiya yolu ilə gətirirlər.**

Bu cür hallara görə Gürcüstanın və başqa normal dünya dövlətlərinin büdcələri əsasən gömrük, vergi rüsumları hesabına formalaşsa da Azərbaycanda neft gəlirləri ilə doldurulur. Vergilərin dövlət büdcəsində rolu bizdə çox azdır. Bu isə çağdaş dövlətin dayaqlarının sarsılması deməkdir. Sadə dillə yazsaq, çağdaş dövlət vətəndaşların özlərini qorumaq, sosial və sairə müdafiələrini təşkil eləmək üçün yaratdığı bir sistemdir və bu sistemin normal işləməsi üçün həmin vətəndaşlar vergi ödəyirlər (həmçinin gömrük rüsumları). Vətəndaş vergi ödəyəndə onun hara xərcləndiyi ilə də istər-istəməz maraqlanır, hökumətə nəzarət edir. Bizdə vətəndaş-dövlət əlaqəsinin bu önəmli cəhəti işləmir, yapistlər onu qəsdən işləməyə qoymurlar. Nəticədə laqeyd, heç nə ilə maraqlanmayan kütlə yaranır. Nə dövlətin vətəndaş qarşısında məsuliyyəti var, nə vətəndaşın dövlət qarşısında. Qarşılıqlı məsuliyyətsizlik sosial vakuum yaradır.

Təzəlikcə Dünya Bankı da biznes mühitinin səmərəliliyi haqda hesabat yayıb, Azərbaycan ötən ilə nisbətdə 10 pillə geriləyib və 80-ci olub. Bəyənmədiyimiz Ermənistan 45-ci yerdədir. Gürcüstan isə lap qabağa gedib - 15-ci yer.

Bölmələr üzrə də hesabat real iqtisadiyyatımızın acınacaqlı durumunu göstərir. Misal üçün, hər 4 müəssisədən 3-ündə işçi sayı gizlədilir. Ölkəmizdə ən populyar biznes sahəsi kiçik ticarət imiş - 70 faiz. İkinci populyar sahə nəqliyyatdır - 10,1 faiz. Üçüncü isə otel biznesidir - 3,5 faiz. Bu, yapistlərin ölkəni bir xırda ticarət bazarına çevirdiyini əyani göstərir. Alver, taksi, karvansara - orta əsrlərdə olduğu kimi, Azərbaycan "İpək yolu" üzərində bir dayanacağa dönüb. Əlbəttə, dayanan da peşman olur, ancaq bu ayrı mövzudur.

Real iqtisadiyyatımızın necə içiboş, mənasız bir şey olmasını gündəlik həyatda rastlaşdığım bir faktla da görmək mümkündür.

Son günlərdə dövlət provayderi olan "Bakinternet"dən aldığım (bu bir inhisarçıdır, onsuz "ATS" ayrı seçim imkanı vermir, məcbursan) internet xidmətində çoxlu problemlər yaranır. Doğrusu, bu cür problemi ilk dəfə görürəm: baxırsan ki, modemin bütün işıqları yanır, kompüter internetə qoşulduğunu göstərir, hətta test saytları ilə sürətin də saniyədə 1 meqabayt olmasını yoxlayırsan, ancaq internet yoxdur! Girmək istədiyin saytların bir növ, qılafı, qabığı var, ancaq içi boşdur! Elə bil yapistlər internetə də bəzəkli hasar çəkiblər, arxası isə zibillikdir.

Bu hadisə bir neçə dəfə təkrar olunandan sonra zəng vurdum ATS-ə, dedim ki, bəs bu nədir, su borusu olub su gəlməyən kimi, siz də internet "borusunu" vətəndaşlara limitlə ödəməyə başlamısınız, günün çox saatı içiboş internet alırıq, indi biz nə edək, internet dolu gələndə qab-qazanları, vannaları dolduraq? İnsafən, idarədən sevindirici cavab verdilər, dedilər bu nəsə ümummilli, elnən gələn bəladır, tək mənim başıma gəlmir, respublikanın internet inhisarçısı "Delta Telekom"dan qaynaqlanır.

İdarədən cavab verən xanımın "Vallah, bizdə də qaz borusu var, amma evə qaz gəlmir" sözlərinə isə birgə gülüşdük. Mehribançılıq, ümumxalq birliyi məhz belə yaranır. Bu şəraitə görə, içiboş, uyuq, müqəvva iqtisadiyyatına görə hakimiyyətə təşəkkür edirik, arzu edirik ölkədə yeganə dolu yerlər - zindanlar da boşalsın.

# Parisdəki iki sammitin bir mühüm mesajı

**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın Fransa səfəri bir çox parametrlər üzrə uğurlu sayıla bilər. Hər halda, Ərdoğanın Parisdə gündəmi zəbt eləmiş aktual qlobal və regional məsələlərlə bağlı səsləndirdiyi fikirlər onun öz ölkəsinin gücünə yetərincə əmin-arxayın olması təəssüratını yaratdı.**




# Ankara və Bakı hücum diplomatiyasını seçir - Təhlil

## Sərkisyanın "soyqırımı" dəvətinə Ərdoğanın məhz ermənipərəst Fransadan sərt reaksiya verməsi "yubiley" ilinə Türkiyənin hansı kontr-hazırlıqlarla gedəcəyini anons edir; Ermənistanın 2015-ci ilə uğurlu həmlə ilə girmək istəyinə başqa bir zərbəni Yelisey Sarayındakı Qarabağ danışıqlarında Azərbaycan öz maksimalist mövqeyi ilə vurdu...

Vurğulayaq ki, bu, Türkiyə liderinin dövlət başçısı qismində dünyanın ən güclü erməni icmasının yaşadığı Fransaya ilk səfəri idi. Lakin Ərdoğan özünə xeyli inamlı və güvənli göründü - baxmayaraq ki, qardaş ölkə hazırda yan-yörədə cərəyan edən olduqca dramatik proseslər səbəbindən kifayət qədər mürəkkəb bir durumun içindədir.

Ötə yandan, Ermənistan və erməni lobbisi saxta genosidin yaxınlaşan "yubileyi" ilə bağlı qardaş ölkəyə qarşı misli görünməmiş hücum və təzyiq ovqatına köklənməkdədir. Türkiyə prezidenti belə ağır təhdidlər və yeni çağırışlar fonunda Fransaya səfərə yollanmışdı və şübhəsiz ki, hansı ölkəyə gəldiyini və hansı siyasi kolliziyalarla üzləşəcəyini də bilirdi.

***

Təxminlər doğruldu. Erməni məsələsi bu dəfə də Türkiyə dövlət başçısının önünə ən yüksək səviyyədə və sağdan-soldan atıldı. Ancaq Ərdoğanın bu qəbildən olan suallara, Ollandın "ağıllı" öyüdlərinə reaksiyası istər sanbal, istər təmkin, istərsə də siyasi-diplomatik manevrlər və 2015-ci ilin çağırışları kontekstində tutarlı sayıla bilər.

Məsələn, Fransanın Beynəlxalq Əlaqələr İnstitutundakı çıxışı zamanı öncə o, on illər boyu Türkiyəyə 1915-ci ildə baş vermiş olaylarla bağlı haqsızlıq edildiyinə diqqət yönəltdi, erməni məsələsinin etnogenezini faş etdi, bunun kriminal yox, bəzi qlobal güclərin əlində alət olduğunu söylədi, düşmən tərəfin və onun himayəçilərinin əlindəki ənənəvi ideoloji və təbliğati silahları yararsız hala gətirdi.

Sitat: "Çox təəssüf ki, 1915-ci il hadisələri ideoloji yanaşmadan, dezinformasiyadan uzaq tutularaq araşdırılmayıb. Bununla bağlı normal davranışlarımıza rəğmən, Ermənistan və erməni diasporu sağlam fikirli yanaşma nümayiş etdirmədi". Ardınca o bildirdi ki, Türkiyə bu məsələnin siyasət predmeti olmadığını, tarixçilərin öhdəsinə buraxılmasını təklif edib: "Biz arxivlərimizi açdıq, indiyədək bir milyondan çox sənəd təsnif etmişik. Ermənistanın əlində belə bir arxiv varsa, açsın, üçüncü ölkələrdə varsa, onlar da açsınlar. Bu sənədlər üzərində tarixçilər, arxeoloqlar, hüquqşünaslar, siyasi təhlilçilər çalışsınlar. Biz də onların çıxardığı nəticələrə görə addım ataq".

Türkiyə prezidenti əlavə edib ki, onlar Ermənistanla münasibətləri fərqli formada qurmaq üçün çalışıb, əllərini uzadıblar: "Təəssüf ki, xoş niyyətimizə qarşılıq görmədik. 2015-ci ildə də 1915-ci il olaylarının ildönümündə biz gerçəklərin anladılmasına, dünya birliyinin həqiqətləri dinləməsinə çalışacağıq. Bu məsələdə ideologiyaya məruz qalan dezinformasiyanın yox, tarixi həqiqətlərin uğur qazanacağına inanırıq".

Ərdoğanın bu sözlərini bədnam 100 illik ərəfəsində Qərbə və dünyada erməniliyə ünvanlı mühüm anons saymaq olar. Rəsmi Ankara bununla açıq və birmənalı şəkildə mesaj verdi ki, məsələdə heç bir yumşalma, geri çəkilmə, güzəşt olmayacaq və kimsə bunu gözləməsin. Prezidentin sərt Paris ritorikası eyni zamanda Serj Sərkisyanın ona göndərdiyi "soyqırımın 100 illiyi"nə rəsmi dəvətinə rədd cavabı anlamına gəlir.

Artıq aydındır ki, Türkiyə prezidenti gələn ilin aprelində İrəvana getməyəcək. Ermənilərin, onların havadarlarının özlərini necə aparmasından asılı olaraq, mümkündür ki, "yubiley" törəninə ümumiyyətlə, Türkiyədən heç bir rəsmi şəxsi göndərilməsin. Hətta Ərdoğanın bu ilin aprelində etdiyi, lakin cavabsız qalan jest stilində quruca başsağlığı belə göndərilməyə bilər.

Diqqətçəkici habelə odur ki, səfərdən az öncə Türkiyə baş naziri Əhməd Davudoğlu özünə erməni milliyyətindən olan türkiyəli yazarı müşavir təyin edib. Bu və digər maraqlı gəlişmələri ciddiyə alanda qənaət hasil olur ki, rəsmi Ankara 2015-ci ilə müdafiə yox, məhz hücum diplomatiyası ilə gedir.

***

Şəksiz ki, bu diplomatiyanın effektliliyi rəsmi Bakının da ona gərəkən dəstəyi verməsindən asılı olacaq. Hər halda, udyurma "genosid" məsələsində Ermənistanın hansısa uğuru avtomatik şəkildə Qarabağ, işğal məsələsinə də öz neqativ təsirini göstərəcək, təcavüzkara danışıqlar masası arxasına daha əlverişli mövqe qazandıracaq. Və yaxud əksinə, Qarabağ məsələsində Azərbaycanın zəif mövqeyi saxta "soyqırımı" məsələsində Ankaranı təzyiqlərə daha həssas edəcək.

Lakin görünür, Azərbaycan tərəfi də yeni çağırışların fərqindədir və müdafiə yox, hücum taktikasını yeganə məqbul variant olduğunu nəzərə alır. Bunu yenə elə Parisdə, Yelisey Sarayında, Ərdoğanın səfərindən cəmi bir neçə gün öncə reallaşmış Qarabağ sammitində Bakının maksimalist mövqe tutması, hətta Naxçıvana koridor tələb eləməsi haqda gələn informasiyalar da təsdiqləyir.

Halbuki, bir sıra mötəbər mənbələrin, fransız diplomatik qaynaqlarının başlıca gözləntisi belə idi ki, görüşdə ən azı, üç əsas həll prinsipinə söykənən birgə bəyanat qəbul ediləcək və faktiki surətdə Dağlıq Qarabağın separatçı rejiminə münaqişə tərəfi statusu, bölgənin erməni əhalisinə isə "şotland variantı" timsalında müqəddəratı təyinetmə haqqı tanınacaq; tərəflər və vasitəçilər yeni ilə bu "irəliləyişlə" girəcəklər.

Bunlar olmadı, Bakı yumşaqlıq göstərmədi və Fransa timsalında nə Qərbin Azərbaycana Qarabağ həmləsi alındı, nə də ermənilərin 2015-ə yönəlik məkrli açılımı uğurlu start götürə bildi. Ardınca Ərdoğanın Fransa səfəri düşməni və onun dəstəkçilərini bir az da məyus elədi.

Proses hələ təzə başlayıb. 2015 isə "bir millətin iki dövləti" üçün ən ciddi sınaq ili olacaq.

❑ **Siyasət şöbəsi**

**"Rusiya Azərbaycana verdiyi vədləri yerinə yetirmir. Bu səbəbdən Bakı Rusiyaya artıq inanmır və hazırda Qərbdən edilən jestləri diqqətə alır". Bu sözləri axar.az saytına açıqlamasında politoloq Qabil Hüseynli deyib. Onun fikrincə, Qərb Rusiyanı çökdürmək istəyir və bu prosesə Azərbaycanla Ermənistanı da qoşmaq istəyir.**

# "Qərbdə Qarabağ münaqişəsinə münasibət dəyişib"

## Qabil Hüseynli: "Rusiya Azərbaycana vədlər verib, ancaq reallaşdırmayıb, Qərb isə..."



Politoloq hesab edir ki, Qərb Azərbaycanı çox gözəl başa düşdüyü üçün Qarabağ məsələsinə daha böyük diqqət göstərməyə başlayıb: "Bakının bir nömrəli məqsədi Qarabağın geri qaytarılmasıdır. Buna görə də Paris görüşündə onlar indiyə qədər görülməmiş dərəcədə bizim problemlərə rəğbətlə yanaşdılar. Bu, Azərbaycanın siyasi rəhbərliyində ruh yüksəkliyi yaratmaya bilməzdi. Artıq Qərbə inteqrasiya xətti gündəmə gəlməlidir. Bakı hələlik neytraldır. Görünür, hər hansı tərəfi tutub onun vasitəsilə problemlərin həllinə nail olmağın vaxtı çatıb".

"Yeni Müsavat"a mövzunu şərh edən Q.Hüseynli bildirdi ki, istənilən halda Rusiyanın mövqelərinin zəifləməsi münaqişənin həlli üçün şans yaradır. Politoloqun fikrincə, Qərb Rusiyanı tamamilə sıradan çıxara bilməsə də, zəiflədərək gücünü azaltmağa çalışır: "Son addımlar da buna hesablanıb. Rusiya çökməyəcək, ancaq zəifləyə bilər. Rusiya zəifləsə, xüsusən də Cənubi Qafqazda mövqeyi zəifləsə, o zaman heç Qərb də lazım deyil, Azərbaycan öz torpaqlarını azad edəcək. Qərb hazırda Rusiyanı hərtərəfli sıxır. Bu məsələdə açıq nöqtə qoymaq istəmir. Bu səbəbdən də Azərbaycanla da yaxından əməkdaşlıq edirlər. Necə ki, Rusiya üçün Azərbaycanla münasibətlər əhəmiyyətlidir, Qərb üçün də daha artıq mühümdür. Məsələ ondadır ki, Rusiya Azərbaycana vədlər verib, ancaq bu vədləri reallaşmayıb. Qərb isə indi Azərbaycanı özünə tərəf çəkməyə çalışır, ən azından Rusiya məsələsində neytrallığa nail olmaq istəyir. Qərbin bu bölgə ilə bağlı böyük bir layihəsi var. Bu layihə Türkmənistanı da ehtiva edir. Qərb Rusiyanı yalnız neft deyil, qaz məsələsində də sıxışdırıb çıxarmaq istəyir. Ona görə də Azərbaycanla və Türkmənistanla yaxından əməkdaşlıq edir".

Q.Hüseynlinin sözlərinə görə, Avropa və Amerika Azərbaycan və Türkmənistan qazını Avropa bazarına çıxarmaqla Rusiya qazından asılılığı azaltmağa çalışır: "Şahdəniz-1" və "Şahdəniz-2" layihəsindən çıxacaq qazın Avropaya çatdırılması ilə bağlı layihələr var. Bu layihələri Azərbaycan qazı təmin edir, amma Qərb transxəzər qaz kəməri layihəsini gerçəkləşdirmək istəyir, xüsusən də Amerika bu layihədə maraqlıdır. Türkmənistanın qaz ehtiyatlarını da Azərbaycan qazı ilə birləşdirib böyük bir layihəni gerçəkləşdirmək istəyirlər. Yəni əslində əvvəlki NABUKKO layihəsini realaşdırmağa çalışırlar.

Bu isə Rusiyanın "Cənub axını" adlandırılan inşasına başlanılmış ikinci qaz kəməri layihəsini, o cümlədən Ukraynadan keçən bütün qaz xətlərini əvəz edə biləcək qüvvəyə malikdir. Belə olan şəraitdə Rusiyadaxili proseslərdə gərginliyin, problemlərin daha da artmasına səbəb ola bilər".

Qabil Hüseynli deyir ki, məhz bu mərhələdə Qərbdə Qarabağ münaqişəsinə münasibətin dəyişdiyi hiss olunmağa başlayır: "Qərb Dağlıq Qarabağı hüdudlarından kənarda yerləşən 7 rayonun təcili olaraq Azərbaycana qaytarılmasını tələb edir. İş o yerə çatıb ki, Fransanın məşhur kanallarından biri erməni işğalı, İtaliyanın "La Repablika", "Le Monde" qəzetləri erməni işğalının dəhşətlərindən, bunun nəticəsində Azərbaycana dəymiş zərər və 1 milyon qaçqınlar haqda yazıb. Yəni Qərb mətbuatı bir zamanlar bizim dediyimiz, amma bunların eşitmək istəmədiyi həqiqətləri yazmağa başlayıb. Hələ ki siyasi səviyyədə deyil, mətbuat səhifələrində Dağlıq Qarabağ üçün Şotlandiya variantının tətbiq oluna biləcəyindən yazırlar. Bu isə Qərbin mövqeyində çox ciddi dəyişikliklərin baş verməsindən xəbər verir. Azərbaycanın problemlərini, demək olar ki, obyektiv surətdə dərk etməyə xeyli yaxınlaşıblar. Rusiya bu proseslərdə iştirak edəcək, ancaq inhisarçı mövqeyindən məhrum olacaq. Təbii ki, Minsk Qrupunda həmsədr kimi qalacaq".

❑ **KƏNAN**

# Müsavat Milli Şuranın mitinqinə qatılacaqmı?

## Gülağa Aslanlı: "Bu aksiyada iştirak edib-etməmək barədə qərar hələ qəbul edilməyib"

**Milli Şura noyabrın 10-da mitinq keçirmək qərarı verib. MŞ-nin sədri Cəmil Həsənli bildirib ki, qurumun Koordinasiya Mərkəzi ölkədə hazırkı ictimai-siyasi durumu, beynəlxalq aləmdə cərəyan edən prosesləri, xüsusən Qərb-Rusiya münasibətlərinin detallarını, bunların postsovet məkanına təsirini müzakirə ediblər.**

Müzakirələr zamanı bildirilib ki, Milli Şuranın oktyabrın 12-də keçirdiyi mitinqin qətnaməsində öz əksini tapmış tələblərin heç biri yerinə yetirilməyib. Həm bunu, həm də ötən aksiyadan sonra daxil olan müraciətləri nəzərə alaraq, növbəti mitinq qərarı verilib. Mitinqlə bağlı Bakı Şəhər İcra Hakimiyyətinə məktub göndərilib: "Budəfəki mitinqdə yenə də siyasi məhbus məsələsi, həmçinin insan haqları sahəsindəki pozuntular, insanların sosial durumu ilə bağlı problemlər gündəmə gətiriləcək. Mitinqin kütləvi olacağını gözləyirik. Ən azı, ötən aksiyadan sonra növbəti mitinqin keçirilməsi üçün Milli Şuraya daxil olan müraciətlərin sayı bu mitinqin çoxminli olacağını deməyə əsas verir".

MŞ-nin Koordinasiya Mərkəzinin üzvü, AXCP sədri Əli Kərimli isə facebook səhifəsində də mitinqə bağlı çağırış edib. Əli Kərimli bəyan edib ki, mitinq noyabr ayının 10-da saat 3-də "İnşaatçılar" metrostansiyası yaxınlığındakı "Məhsul" stadionunda keçiriləcək. Mitinq icra hakimiyyəti ilə razılaşdırılacaq: "Azərbaycanın hüquq müdafiəçilərinin, ictimai-siyasi fəallarının, jurnalistlərin, mübariz gəncliyin, fəal dindarların - bir sözlə, millətimizin qabiliyyətli, əqidəli, mübariz övladlarının rejimin həbsxanalarında girov saxlanmasına susa bilmərik, susmamalıyıq... Biz bir millət olaraq bu irimiqyaslı talançılıqla, haqsızlıqla, ədalətsizliklə barışmamalıyıq! Dinc etiraza-mitinqə qoşulmalıyıq! Mitinqdə sosial tələblər də irəli sürüləcək".

Qeyd edək ki, MŞ-nin oktyabrın 12-də keçirdiyi mitin-



Gülağa Aslanlı

qə Milli Şuranın üzvü olmayan tanınmış müxalifət təşkilatları - Müsavat Partiyası, Azərbaycan Xalq Partiyasının rəhbərliyi və üzvləri də qatılmışdı. Müsavatın sabiq başqanı İsa Qəmbərin, Müsavat başqanı Arif Hacılının və AXP sədri Pənah Hüseynin təşkilatçılar tərəfindən tribunaya dəvət edilməməsi, hətta onların mitinqdə iştirak etdiyinin Milli Şura rəhbərliyi tərəfindən mitinqdə dilə gətirilməməsi ictimai qınaqlara, müzakirələrə səbəb olmuşdu. Belə fikirlər də irəli sürülmüşdü ki, Milli Şura rəhbərliyinin saymazyana davranışı növbəti mitinqlərdə adıçəkilən siyasi partiyaların iştirak etməməsinə səbəb ola bilər...

Maraqlıdır, Müsavat və AXP MŞ-nin budəfəki mitinqinə qatılacaqmı?

AXP sədri Pənah Hüseyn bildirdi ki, Milli Şuranın 12 oktyabrda siyasi məhbuslara azadlıq tələbi ilə keçirdiyi mitinqdə iştirakı doğru hesab edir və bu tələblərlə keçiriləcək mitinqdə yenə iştirak edəcək: "Biz mitinqə tribunaya çıxmağa və ya hər hansı bir şəkildə fərqləndirilməyə görə getməmişik. Bu məsələlər hamısı mitinqin təşkilatçılarının səlahiyyətində olan məsələdir. Biz siyasi məhbuslara azadlıq tələbimizi ifadə etmək üçün mitinqdə iştirak edirik, bu mitinqin şüarını, tələbini müdafiə eləyirik. Mən noyabrın 10-da Bakıda olsam, mitinqdə mütləq iştirak edəcəyəm".

Müsavat Partiyası başqanının müavini Gülağa Aslanlı isə dedi ki, Milli Şuranın yeni təyin etdiyi mitinqdə iştirak etmək və ya etməməklə bağlı hələ qərar qəbul edilməyib: "Müsavat Partiyasının Divanı artıq müəyyənləşib və fəaliyyət göstərir. Yəqin ki, həmin mitinqdə Müsavatın iştirak edib-etməməsi məsələsi Divanın 3 noyabr toplantısında müzakirə olunacaq və müvafiq qərar veriləcək. Mitinq yeni təyin olunub və bu günə qədər Müsavat Partiyasında bu məsələ müzakirə olunmayıb, ona görə də hər hansı bir qərar yoxdur".

❑ **Etibar SEYİDAĞA**

# Ziyalı üçün nəzərdə tutulmayan ölkə...



**Hüseynbala SƏLİMOV**

**İnsanın seçmədiyi şeylər var. Onlardan biri də Vətəndir. Düzdür, yaşamaq üçün başqa ölkələri seçən insanlar da az deyil. Amma gəlin onları passionar adlandıraq. Əhalinin böyük əksəriyyəti isə passionar olmur, onlar bir ölkədə - doğulduqları yerdə yaşayırlar...**

Bizə də doğulduğumuz ölkədə yaşamaq qismət oldu. Bəlkə də bu da alın yazısıdır. Ona görə ki, bu və ya başqa səbəbdən ölkədən köçən insanları bir-bir nəzərdən keçirsək görərik ki, bizim heç bir göstəricimiz onlarınkından əskik deyil...

Amma biz başqa yerə getmədik. Bu ölkədə qalası olduq. Peşmanıq demirik. O səbəbdən ki, hamı seçimini özü edir...

Biz də buranı seçdik. Bu qərarı əsaslandırmaq istəyəndə yadımıza yapon yazıçısı K.Abonun "Qumsallıqda qadın" romanı düşür. Amma yaşımız əlliyə çatanda başa düşdük ki, bu ölkə ziyalı insan üçün nəzərdə tutulmayıb...

Bu ölkədə sanki hamı ziyalı insanlara qarşı birləşib. Bəzən deyirlər ki, bizim öz tacirlərimiz, öz istehsalçılarımız olmalıdır. Amma heç kim demir ki, bizim ziyalılarımız da olmalıdır...

Ölkə yarımqapalı şəraitdə yaşayır. Dünya Ticarət Təşkilatına, Avropa Birliyinin assosiasiya sazişinə ona görə qoşulmurlar ki, biz öz istehsalçılarımızı təhlükə qarşısında qoya bilmərik. Amma lazımdırmı mənə bu istehsalçılar?

Mənə və mənim kimi minlərlə insana lazımdır ki, ödədiyi pulun müqabilində yaxşı mal alsın, yaxşı xidmət görsün...

Amma indi nə baş verir? Kimə üz tutursan, özünü elə aparır ki, sanki sən onun axırıncı müştərisisən, az qalır ki, dərini də soysun...

Bu yaxınlarda onlardan birinə dedim ki, sən mənə keyfiyyətli və mümkün qədər ucuz xidmət göstərsən mən bunu bir başqasına, o da öz növbəsində bir qeyrisinə deyəcək və sən bir də görəcəksən ki, müştərilərinin sayı artıb...

Amma kimə deyirsən bunları? Məni aldığım malın düz üçdən biri qədər aldatdı. Məcbur olub bir daha getdim onun yanına. İnanırsınız, nə utandı, nə də qızardı, dişlərini ağartdı ki, hesabda səhv etmişəm...

Bəli, vaxtilə mən kapitalizmi çox tərifləmişəm. Amma mən bilmirdim ki, bir gün ölkədə 18-ci əsrin vəhşi kapitalizmini bərqərar edəcəklər...

Bir vaxt kvant mexanikasının yaradıcısı E.Şredingerin bioqrafiyasını oxuyurdum. Onun dostuna yazdığı bir məktubun sətirləri hələ də yadımdan çıxmayıb. O yazırdı ki, mən daha Almaniyada yaşaya bilmirəm, ona görə ki, bilmirəm, yağın qiyməti haqqında düşünüm, yoxsa fizika haqqında...

İndi bizim də vəziyyətimiz təxminən belədir. Ən dəhşətlisi odur ki, biz heç qiymətin də dərdini çəkmirik, fikirləşirik ki, necə edək ki, bizi çəkidə aldatmasınlar, necə edək ki, bizə sırınan məhsul keyfiyyətli olsun?...

İnanın, bunlar elə də asan məsələ deyil. Mən bütün üsullardan istifadə etmişəm. Cibimə kalkulyator qoymuşam. Hətta bazara gedəndə özümlə bir tərəzi də aparmışam...

Demişəm ki, mənim üçün bu tərəzi ilə çək. Hamısı imtina edib. Niyə? Ona görə ki, mənim tərəzim doğru-dürüst göstərirdi, onlara isə bu, sərf eləmirdi. İndi bu yerli satıcılarla, istehsalçılarla nə edək?

Bazarda qiyməti hamı özü müəyyən edir. Olsun. Bazar iqtisadiyyatıdır, kim neçəyə istəyir, o qiymətə də satır... Amma buna qane olmurlar. Hələ bir çəkidə də aldadırlar...

Hamısının da bir sözü var: bu ölkə düzələn deyil... Bunu elə deyirlər ki, dərhal başa düşürsən ki, bu adamlar heç ölkənin düzəlməsini istəmirlər də...

Ona görə ki, bu ölkə düz adamlar üçün nəzərdə tutulmayıb. Əksəriyyət həyatın damarını tutub, "Sən məni aldat, mən də başqasını!" deyirlər. Bir-iki il bundan əvvəl, guya ki, rüşvətxorluğa müharibə elan ediləndə adamlarla söhbətdə hiss edirdin ki, onlar rüşvətin yığışdırılmasını istəmirdilər. Deyirdilər ki, rüşvət verib işimizi düzəldirdik, indi nə edəcəyik?!

Qərəz, ölkədə bir zəncir yaranıb. Hamı bu zəncirdə öz istəyini diqtə edir. Məhsul satan satdığı məhsulun qiymətini artırır. Həkim də deyir ki, mən də öz haqqımı - əməliyyat haqqını artıracam. Müəllim təhsil haqqını artırır. Məmur da rüşvəti çoxaldır. Bəs biz nə edək? Biz jurnalistlər, elmi-tədqiqat institutlarında çalışan alimlər, eləcə də bizim kimi bir çoxları nəyin qiymətini qaldırsınlar?...

Bu ölkədə axı biz də varıq! Bəlkə bizi də kağıza büküb birdəfəlik satasınız ki, canımız qurtarsın?..

YENİ MÜSAVAT
N 270 (5979) 3 noyabr 2014







# Xətaidə gecəyarı ağac qətliamına görə qarşıdurma

## Deputat İqbal Ağazadə böyük bir parkın məhv edilməsi prosesini durdurdu; məsələyə Hacıbala Abutalıbovun müdaxiləsindən sonra kəsilən ağacların yerində istirahət parkı salınmasına qərar verildi...

**Noyabrın 2-də saat 02.41 radələrində deputat İqbal Ağazadə müsavat.com-u arayaraq, həyəcanlı xəbər verib. Deyib ki, hazırda onun seçiciləri yaşayan Xətai rayonu, İnqilab İsmayılov küçəsindədir: "Bu küçənin 3, 4 və 5-ci binalarının sakinləri gecə saatları olmasına baxmayaraq, ayağa qalxıblar.**

Buna səbəb ərazidəki çoxillik ağacların ekskavatorlarla kökündən çıxarılmasıdır. Təxminən 20 böyük ağacı məhv ediblər. Etiraza qalxan sakinlərə polis müdaxiləsi olub. Hazırda ərazinin polis rəisi də buradadır. Onunla danışdıq, saxlanan sakinlər buraxıldı. Lakin insanların həyəcanı davam edir".

İ. Ağazadə deyib ki, bundan əvvəl də 24 böyük ağacı çıxartmışdılar: "O zaman mən Ekologiya və Təbii Sərvətlər Nazirliyinə və Baş Prokurorluğa və DİN-ə müraciət etdim. Nəticədə, 35-ci polis bölməsində faktla bağlı araşdırma başladıldı. Lakin o, yarımçıq qaldı. Bu səbəbdən də, yenidən başlayıblar". Deputat müsavat.com-a deyib ki, bu işi qaranlıqda görüblər: "Küçənin işığı əvvəlcədən söndürülüb. Lakin camaat xəbər tutub və küçəyə axışıb. Bu zaman qarşıdurma olub və polis müdaxilə edib. Ağacları qıranlar qaçıblar. Ekskavator da, ağaclar da ortada qalıb". İ. Ağazadə deyib ki, bunu edən hansısa bir şirkətdir: "Sakinlər deyir ki, bu şirkət "Xalqlar dostluğu"ndakı yarmarkanın müdiri İman adlı iş adamınındır. Bu ünvandakı ağacları niyə kəsirlər, bu barədə də sakinlərə məlumat verilməyib. Bu işlə ciddi məşğul olacam. Mətbuatdan da xahiş edirəm ki, mövzunu diqqətdə saxlasınlar". Əhalinin etirazlarına polisin müdaxiləsi zamanı xəsarət alanlar olub. bu səbəbdən də əraziyə təcili tibbi yardım maşınları çağırılıb.

Məsələ ilə əlaqədar səhər hadisə yerində olduq. Gərginlik nisbətən səngisə də, problem həll olunmamış qalırdı. Ərazidə məhv edilmiş ağacları kötükləri diqqət çəkirdi. Gecədən qalanmış tonqalın ətrafında toplaşan camaat rəsmi şəxslərin gəlişini gözləyirdi. Sakinlər bildirdilər ki, kimsə 60 sotluq bu ərazini 1,5 milyon manata alıb və parkın yerində 3 hündürmərtəbəli bina tikəcəyini deyib.

Mahir adlı gənc dedi ki, onu tutub 35-ci polis bölməsinə aparıblar və orda döyüblər: "Dedilər sən polisi vurmusan. Hansı ki, mən gördüm ekskavatorçu texnikanı qadınların üstünə sürür, qaçdım ki, imkan verməyim. Bu zaman traktoru saxladı, düşüb qaçmağa başladı, mən onu tutub polisin yanına gətirdim, əvəzində özümü tutub apardılar". Mahir gözünün üstündəki göyərmiş, qızarmış yerləri göstərib döyüldüyünü bildirdi. Dediyinə görə, saat 6-dək bölmədə saxlanılıb, yalnız İ.Ağazadənin müdaxiləsindən sonra sərbəst buraxılıb.

Sakinlər deyirlər ki, ağac kəsən dəstə bir qayda olaraq gecələr peyda olur və ağacları kəsəndən sonra aradan çıxarırlar. Hətta yolla paralel əraziyə torpaq daşınıb ki, burada avtomobillər saxlanılmasın.





Sona Əhmədova "gecə saat 3-ə 5 dəqiqə işləmiş burda ağacları qırmağa başlayıblar. Burada 16 mərtəbənin yeri deyil. Biz park istəyirik, nəvələrimiz, qocalarımız oturmağa yer tapmır" dedi. Hicran Quliyeva "bizim istirahətimiz üçün heç bir şərait yoxdur, olanları da bunlar vəhşicəsinə qırdı. Yeganə ümidimiz prezidentimizədir" dedi.

Könül Xudaverdiyeva isə "axşam İqbal müəllim gəlməsəydi, kişilərimizi qadınların əlindən ayırıb zorla polisə aparacaqdılar" söylədi. Ahilə Hüseynov görün buranı alan adam nə qədər harınlayıb ki, deyir "mən nə prezidentdən, nə deputatdan qorxmuram" söyləyir.

Bir ağbirçək isə yana-yana "mənim torpağımı erməni almadı, elə beləlari aldı" deyib kökündən çıxarılan ağacları göstərdi.

Ağsaqqallardan biri dedi ki, kəsilən ağacları 80-ci illərin əvvəllərində əkilib: "1980-ci ildə burda ilk üç bina tikildi, ağaclar da onda əkildi. Mən öz əllərimlə bu ağacları sulamışam. Bu zonada iki park salınmışdı. Yuxarıdakı parkı bundan əvvəl satdılar, kafe-restoran, qəssabxana tikildi, indi də bura keçiblər".



Sakinlər bizə Bakı Şəhər Ekologiya və Təbii Sərvətlər Departamentindən aldıqları rəsmi məktubu da təqdim etdilər. Məlum oldu ki, sakinlərin ağac kəsimi ilə əlaqədar yazdığı məktuba başdansovdu cavab verilib. Direktor Ə.Rəcəbovun cavabında göstərilir: "Araşdırma zamanı ağac kəsilən ərazinin xüsusi mülkiyyətə aid olduğu müəyyən edilib. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 19.09.2005-ci il tarixli 173 saylı qərarına əsasən hüquqi və fiziki şəxslər xüsusi mülkiyyətində olan ərazidə yaşıllıq, ağac, kol və çoxillik əkmələri öz istəyinə uyğun həyata keçirə bilər". Göründüyü kimi, cavabda "kol-kos"un "həyata keçirilməsi"ndən gedir, çoxillik ağacların məhvinə toxunulmur. Elə sakinlərdən biri də "Əlişah müəllim gəlib görsün burda kəsilənlər kol-kosdur, yoxsa çoxillik ağaclardır" deyə, qəzəblə sual etdi.

Biologiya elmləri doktoru Telman Həsənov: "Mən 20 yanvarın şahidiyəm. Amma bu gecə baş verən faciə 20 yanvardan dəhşətli idi. O zaman üstümüzə gələn erməni, rus idi. Ancaq bu dəfə üstümüzə özümüzünkülər gəlmişdi. Bu qədər biganəlikmi olar? Gənclərimizi qorxudub içəri salırlar. Sabah onları Qarabağa, düşmən üstünə göndərə biləcəyikmi?" Telman müəllim dedi ki, buna qədər prezidentə qədər hər kəsə müraciət olunub: "Ancaq heç bir cavab yoxdur. Oktyabrın 25-dən bu xalq burdadır, küçədə".

Tahirə Kərimova da ağac kəsənləri lənətlədi: "Mən şəkər xəstəsiyəm. Ağacların kəsilməsini görəndə elə pis vəziyyətə düşdüm ki, üstümə təcili yardım gəldi. Axı belə insanlıq olmaz. Bu ağacların nə günahı var? Bu ağacları biz öz əlimizlə əkmişik. Bura uşaq meydançası idi, sonra bir nəfər burda kafe tikdi, uşaqların "kaçeli"lərini, sürüşkənlərini qırıb atdılar. Amma yenə uşaqların əlindən tutub burda gəzdirirdik". Şikayətçi dedi ki, geri çəkilmək fikrində deyillər: "Mehriban xanıma da teleqram vurmuşuq. Sabah üçün də (3 noyabr-E.P.) Mehriban Əliyevanın qəbuluna yazılmışıq. Əgər Mehriban xanım icazə versə ki, ağacları kəssinlər, onda çəkilib bir kənarda durarıq. Biz bir aydır tonqal qalayıb burda otururuq. Əvvəl 18 ağacı kəsdilər, sonra 4-ünü kəsdilər, bir dəfə də gəlib 3 ağacı yaraladılar, biz özümüzü yetirdik, qaçdılar. 26-sını kəsmişdilər, bu gecə də doğrayıblar. Üst-üstə 35 ağac kəsiblər. Bir "KamAZ" kəsilmiş ağacı aparıblar". Məlum oldu ki, ilk şikayətdən sonra hətta kənarda gətirib 15 şam ağacı da əkibmişlər. Amma kəsinti yenə də dayanmayıb.

Gecəni səhərədək sakinlərlə birgə keçirən deputat İqbal Ağazadə yenidən hadisə yerinə gəldi. Millət vəkili bu dəfə xoş xəbərlə gəlmişdi. Bildirdi ki, məsələ ilə əlaqədar Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbovla, digər rəsmi şəxslərlə şəxsən danışıb: "Hacıbala müəllim söz verdi ki, burda heç bir tikinti olmayacaq, əvəzində ərazidə istirahət parkı salınacaq. Bir azdan yaşıllaşdırmaya məsul şəxslər də burda olacaqlar". Yerli sakinlər bu sözləri alqışlarla qarşıladılar və əhval tamam dəyişdi.

İ.Ağazadə əhaliyə müraciətlə tövsiyə etdi ki, sakinlər ona və müvafiq qurumlara burdakı özbaşınalıqlar haqda rəsmi müraciət etsin. Xoş xəbər alan sakinlər deputata minnətdarlıq etdilər və hətta alqışladılar da. Bildirdilər ki, əgər gecə yarısı İ.Ağazadə hadisə yerinə gəlməsəydi, burda çox ciddi qarşıdurmalar, xoşagəlməz hadisələr olacaqdı. Məlum oldu ki, bir neçə nəfər sakini millət vəkili şəxsən polisin əlindən alıb sərbəst buraxdırıb.

Az sonra əraziyə gələn Bakı şəhərinin baş memarı Akif Abdullayev əraziyə baxış keçirdi. Həmçinin polisə aparılan zərərçəkənlə görüşdü. Ona Hacıbala Abutalıbovun ünvanına ərizə yazmağı tapşırdı. Dediyinə görə, bu faktla bağlı cinayət işi açılıb. Baş memar elə hadisə yerində Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbovla şəxsən danışandan sonra əhalini nəticələrlə məlumatlandırdı: "Hacıbala müəllim sərəncamı dərhal ləğv etdirdi, tikinti-filan heç nə olmayacaq. Burda tikinti aparmaq istəyən adam bəlanı bundan sonra çəkəcək. Burdakı işlər onun başında partlayacaq. Eyni zamanda əmlak da bu özəlləşməyə görə problem yaşayacaq, digərləri də".

Saat 15 radələrində qanunsuz zəbt olunmuş ərazidə Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən abadlaşdırma işlərinin aparıldığı barədə lövhə vuruldu və yaşıllaşdırma əməkdaşları tərəfindən 100-dək ting basdırıldı.

Mövzunu diqqətdə saxlayacağıq.

**Elşad PAŞASOY**
**FOTO: Müəllifindir**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



YENİ MÜSAVAT

N 270 (5979) 3 noyabr 2014



# Qarabağ qazisindən kəlbəcərli girovlarla bağlı ilginc təklif

## Rey Kərimoğlu: "Ermənilərə bir həftə vaxt verilməlidir, əks təqdirdə konkret nöqtələrə zərbə endirilməsinə başlanılmalıdır"

**Ermənilərin Xankəndi şəhərində üzərində qondarma məhkəmə prosesi keçirdiyi Kəlbəcər köçkünləri Dilqəm Əsgərov və Şahbaz Quliyevin ailə üzvləri Avropa İnsan Haqları Məhkəməsinə müraciət etməyə hazırlaşır. Bunun üçün lazım olan hüquqi sənədlər də artıq hazırdır. Müraciətdə 4 ay ərzində girov saxlanılan soydaşlarımızın erməni separatçıları tərəfindən hansı işgəncələrə məruz qaldığı dünyaya nümayiş etdiriləcək.**

"Görün düşmən nə qədər qudurub ki, mənim vətəndaşımı tutub mənim ərazimdə "mühakimə" edir, deyir "güllələyəcəyik...""

Lent.az-ın məlumatına görə, Dilqəm Əsgərovun ailə üzvləri İTV-yə bildiriblər ki, dünya ictimaiyyəti də Kəlbəcərdə - öz doğma torpaqlarında erməni silahlıları tərəfindən girov götürülən həmyerlilərimizə qurulan saxta və qondarma məhkəməyə biganə qalmamalıdır. Avropa İnsan Haqları Məhkəməsinə ünvanlanacaq müraciətin əsas məğzi də məhz bu çağırışdan ibarətdir. "Biz Xankəndində Dilqəmin və Şahbazın üzərində qurulan məhkəməni qanunsuz sayırıq. Onlar günahsız ittiham olunurlar, biz o məhkəməni tanımırıq. Çünki nə Dilqəm Əsgərov, nə də Şahbaz Quliyev heç bir qanun pozuntusuna yol verməyib, onlar öz vətənlərinə, öz yurduna-yuvasına gediblər. Dilqəm öz anasının qəbrini ziyarət etməyə gedib. Ona görə də qondarma Dağlıq Qarabağ Respublikasında qurulan məhkəməni heç Dilqəm də tanımır, biz də tanımırıq, heç bir dövlət də tanımır" - deyə, Dilqəm Əsgərovun həyat yoldaşı Firuzə Əsgərova bildirib.

Bu arada Milli Məclisin sədr müavini Bahar Muradova girovların ailə üzvlərinin Avropa İnsan Haqları Məhkəməsinə müraciət etmək istəmələrini dəstəkləyib. Vitse-spiker bildirib ki, bu, tam qanunidir: "Müraciətin ünvanlandığı beynəlxalq təşkilatların da bu məsələni icraata götürməsi eyni şəkildə qanunidir". B.Muradova ABŞ hökumətini də məsələdə iki standartlarla yanaşmaqda ittiham edib. O qeyd edib ki, erməni separatçılarının girovlar üzərində keçirdiyi qondarma məhkəmədən ABŞ hökumətinin xəbərsiz olması inandırıcı görünmür: "Bu məsələdə qeyri-səmimilik açıq-aşkar özünü göstərir. Neçə olar bilər ki, dünyanın ən ucqar nöqtələrində baş verən ən kiçik hadisə belə, ABŞ-a, onun Dövlət Departamentinə, müvafiq qurumlarına anındaca bəlli olur və onlar dərhal bu məsələlərə reaksiya verirlər, amma ermənilərin Azərbaycan vətəndaşları üzərində qurduğu qondarma məhkəmədən xəbərsiz olurlar?! Halbuki mən mətbuat, həm də diplomatik xətt vasitəsilə bu məsələ barədə onlara müraciətlər etmişəm. Bu gün Dövlət Departamentinin sözçüsünün "bu barədə bizdə məlumat yoxdur" söyləməsi ABŞ hökumətinin müvafiq qurumlarının fəaliyyətini şübhə altına alır. Bunun özü də ikili standartlardan və qeyri-səmimilikdən xəbər verir". B.Muradova bir sıra beynəlxalq hüquq müdafiə təşkilatlarını da Dilqəm Əsgərovun və Şahbaz Quliyevin üzərində qurulan qondarma məhkəməyə ikili standartlarla yanaşmada ittiham edib.

***

Xəbər verdiyimiz kimi, tanınmış vəkillər Bəhruz Bayramov və Əlövsət Əliyev saxta məhkəmə prosesində iştirak etmək üçün Xankəndinə getməyə hazır olduqlarını elan edib və bu məqsədlə də XİN-ə müraciət ünvanlayıb. Maraqlıdır, XİN vəkillərin məktubunu alıbmı və bu müraciətə münasibəti nədən ibarətdir?

Moderator.az bununla bağlı XİN-in mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyevlə əlaqə saxlayıb. Nazirlik yetkili məktubların aqibətinə aydınlıq gətirməsə də, XİN-in qondarma məhkəmə prosesini tanımadığını bildirib: "Hesab edirəm ki, bu məsələ ilə əlaqədar XİN-in müvafiq açıqlamasına istinad etməyiniz daha məqsədəuyğundur. Sadəcə, bunu deyə bilərəm ki, bu qurama proses heç bir halda məhkəmə hesab oluna bilməz".

Bu arada Ermənistan faşist xislətinə sadiqliyini bir daha nümayiş etdirib. "Yerkrapa" könüllülər birliyinin başçısı, keçmiş terrorçu və cani, hazırda isə deputat olan Manvel Qriqoryan iddia edib ki, "Arsax ərazisinə qanunsuz keçmiş" kəlbəcərli girovlar - Dilqəm Əsgərov və Şahbaz Quliyevi hərbi dövrün qanunları ilə mühakimə eləmək, yəni güllələmək lazımdır. "Mən dəfələrlə bəyan eləmişəm ki, onları mühakimə etməyə ehtiyac yoxdur, güllələmək - vəssalam. Onlar yeniyetməni öldürüblər, sərhədi casusluq niyyəti ilə keçiblər, hansı məhkəmədən söhbət gedir. Onları saxlanılan zaman öldürmək lazım idi ki, iş məhkəməyə gedib çıxmasın", - bildirib keçmiş banda başçısı. Ermənistanın müdafiə naziri Seyran Ohanyan isə "məhkəmə prosesi"nin beynəlxalq normalara uyğun keçdiyini və "Arsaxın demokratik ölkə kimi mövcud olduğunu təsdiqlədiyini" iddia edib.

Göründüyü kimi, düşmən tərəf Kəlbəcər girovlarına güzəştə getmək niyyətində deyil və 17 yaşlı erməni gəncin ölümündə günahlandırdığı həmvətənlərimizə ən ağır cəzanın verilməsinə çalışır. Xatırladaq ki, Macarıstanda Azərbaycan bayrağını təhqir etdiyi üçün qətlə yetirilən Qurgen Markaryana görə də erməni diasporu var gücü ilə çalışıb azərbaycanlı zabit Ramil Səfərova ömürlük cəza verilməsinə nail olmuşdu. İndi isə azərbaycanlılar öz dədə-baba yurdlarında, terrorçu rejim tərəfindən "mühakimə" olunur. Bu mənada əgər Azərbaycan bütün təzyiq rıçaqlarını işə salmasa və beynəlxalq aləmin təsirli reaksiyası olmasa, ermənilər ən sərt cəzanı oxumaqdan sadəcə zövq alacaqlar. İndiki situasiyada, dayaqları laxlamış Ermənistan hakimiyyəti üçün əslində belə bir məhkəmə şousu göydəndüşmə sayıla bilər. Ona görə də düşmən bu kartdan maksimum istifadə edəcək.



Elə isə "nə etməli" sualına cavab verilməlidir. Görünən budur ki, girovlarımız 4 ay ərzində çox dəyişib, onları hətta doğmaları belə güclə tanıyır. Düşmən əlində ağır şərtlərlə saxlanılan iki azərbaycanlını müdafiə etmək üçün hətta Milli Məclisin deputatı İqbal Ağazadə də şəxsi təşəbbüslə çıxış edib və Xankəndinə getməyə hazır olduğunu bildirib. Deputat Fazil Mustafa isə bildirib ki, separatçı rejim qondarma məhkəmə keçirsə də, Rusiyadan olan, beynəlxalq aləmdə tanınan vəkillər onların müdafiəsini təşkil edə bilər. Millət vəkili Qənirə Paşayeva isə deyib ki, girov ailələrinə Avropa İnsan Haqları Məhkəməsində bu məsələni qaldırmaq üçün dəstək olmaq lazımdır. Eyni zamanda deputat Zahid Oruc Bakıda Serj Sərkisyan və digər qatillərin məhkəmə prosesinin paralel şəkildə başladılmasını təklif edib. Qarabağ qazilərinin də təklifləri var.

Keçmiş döyüşçü, Qarabağ qazisi Rey Kərimoğlu bu fikirdədir ki, təkcə girovlarımızla bağlı deyil, ümumiyyətlə, itirilmiş torpaqlarımızla bağlı hərəkətə keçməyin zamanıdır: "Məsələyə kompleks yanaşma tələb olunur. Ermənilər illərdir bizim qızıl mədənlərimizi, daş karxanalını, mərmər yataqlarını istismar edir, palıd, çinar meşələrimizi qırıb daşıyır. 1994-cü ilin 12 mayında ermənilərlə atəşkəs haqqında saziş imzalayarkən sənəddə nəzərdə tutulmamışdı ki, onlar bizim əraziləri istismar edəcəklər, sərvətlərimizi daşıyacaqlar, yaxud bu ərazilərdə qanunsuz olaraq məskunlaşma siyasəti yürüdəcəklər. Ona görə də Azərbaycan dövləti beynəlxalq aləmə müraciət ünvanlamalı, bu işləri dayandırmaq üçün düşmənə bir həftə vaxt verməli, əks təqdirdə bombardmanlara başlamalıdır. Açıq şəkildə bəyan olunmalıdır ki, mən atəşkəs sazişini ona görə bağlamamışam ki, erməni gəlsin Zəngilanda qızıl zavodu tiksin, Kəlbəcərdəki qiymətli yataqları istismar eləsin. Bu işlərin heç biri atəşkəs sazişinin predmeti deyil. Ona görə də Azərbaycan Silahlı Qüvvələrinin Hava Hücumundan Müdafiə Qüvvələri dərhal döyüş hazırlığına gətirilməli, bombardmançı təyyarələr havaya qaldırılmalı, konkret hədəflər, düşmənin işğal altındakı ərazilərdə nə qədər yeni tikinti obyektləri, qanunsuz məskunlaşma ünvanları, yaxud zavodları varsa, hamısı məhv edilməlidir. Bu prosesi ona qədər davam etdirmək lazımdır ki, erməni atəşkəs rejiminə əməl etsin. İşğalçı illərdir Ağdam, Kəlbəcər, Şuşanı sökük dağıdıb, indi də yeni məskunlaşma ilə məşğuldur, Suriyadan gətirilən köçkün ermənilər mənim torpağımda yerləşdirir. Bütün dünyaya bununla bağlı müraciət etmək lazımdır. Yəhudiləri ittiham etdilər ki, İordan çayının sahillərində qanunsuz məskunlaşma ilə məşğuldur, dünya bu prosesə qarşı çıxdı. Mənim də torpağımda ermənilərin qanunsuz olaraq tikdiyi zavodu, saldığı qəsəbələri məhv etmək haqqım var. Söhbət heç də dinc əhalinin məhvindən yox, konkret obyektlərdən gedir".

R.Kərimoğlu hesab edir ki, rəsmi Bakının əlində erməni vandalizminə sərt cavab verməsi üçün kifayət qədər əsaslar, faktlar var, beynəlxalq hüquq da onun tərəfindədir: "Mənim dədə-baba torpağımda ermənilər daş karxanası tikiblər, qanunsuz olaraq ora əhali köçürürlər. Vurmaq, bombalamaq lazımdır ki, bu əməllərə birdəfəlik son verilsin. Sərkisyan da qəbul edir ki, ən azı Dağlıq Qarabağ ətrafındakı 7 rayon Azərbaycanın ayrılmaz hissəsidir. Elə isə erməniyə kim verib bu haqqı ki, gəlib torpağımda tikinti işi aparır?!"

Keçmiş döyüşçü Kəlbəcər girovlarına qurulan məhkəmə şousu haqqında da ciddi addımları zəruri sayır: "Görün düşmən nə qədər qudurub ki, mənim vətəndaşımı tutub mənim ərazimdə "mühakimə" edir, deyir güllələyəcəyik. Biz ermənilərə çox şans verdik. Nəhayət, bu məsələlərdə qəti mövqedən çıxış etməli, hücuma keçməliyik. Beynəlxalq təşkilatlardan kömək ummaq yersizdir. BMT məskunlaşma ilə bağlı heç bir araşdırma aparmayacaq.

Bunun yeganə çıxış yolu var: Azərbaycan Silahlı Qüvvələri hərəkətə keçməlidir. Erməniyə kim icazə verib ki, Zəngilanda uşaq bağçası tikir? Azərbaycan məsələni belə qoymalıdır: tikintilər dərhal dayandırılsın, tikililər sökülsün, əks təqdirdə bombardmanlar başlayacaq! Biz 94-də atəşkəs haqda razılığa gəlmişik, razılığa gəlməmişdik ki, erməni Kəlbəcərdə qızıl zavod tiksin, qırmızı mərmərimizi daşısın, qiymətli ağaclarımızı doğrasın, Ermənistandan Qarabağa ikinci yol açsın, otel tiksin. Ona görə də vurulmalıdır. Beynəlxalq ictimaiyyətə də sərt və açıq müraciət olmalıdır. Qoy BMT mənə ayrı yol göstərsin. Erməni deyir girovları güllələmək lazımdır. Azərbaycanda saxlanılan erməni girovlara güllələmə cəzasımı kəsilir? Kəsəsi, düşmənə bir həftə vaxt verilməli, dünya ictimaiyyətinə də bəyan edilməlidir ki, bir dənə mülki şəxsə güllə atmıram, yalnız konkret nöqtələri bombalayacağam. Belə olsa, Qarabağda qanunsuz yaşamaq üçün gəlməyə, yaxud burada iş qurmağa, turist səfərinə də kimsə cəsarət etməyəcək. Xəbərdarlıq olunmalıdır ki, kim gəlsə, vuracağıq. Bu, münaqişənin həlli istiqamətində pressinq də yaradar. Beynəlxalq aləmə deyilməlidir ki, zəhmət çəkin, problemi həll edin.

Azərbaycanın bombardmanları atəşkəsi pozmaq yox, erməninin pozduğu şərtlərin bərpa edilməsi olar. Bir də ki, biz Ermənistanı bombalamırıq ki. Erməni elə davranır, sanki Qarabağ işğal edilməyib, bunlar heç nə olmamış kimi turizm obyektləri tikirlər. 1994-cü ilin 12 mayındakı vəziyyət bərpa olunmalıdır".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 270 (5979) 3 noyabr 2014

**"Siyasətçilərlə bulvar gəzintisi"**

**"Siyasətçilərlə bulvar gəzintisi" "Yeni Müsavat"ın yeni rubrikasıdır. Rubrikamızın əsas məqsədi siyasətçilərin gözü ilə Azərbaycana, paytaxtımıza fərqli rakursdan baxmaqdır. İlk qonağımız Müsavat Partiyasına yeni başqan müavini vəzifəsinə təyin olunmuş Elman Fəttahdır. Müsahibə təklifimizi qəbul edən Elman bəylə yerdən 60 metr yüksəklikdə - Milli Parkdakı "şeytan çarxı"nda görüşmək qərarına gəlirik.**





# "Hakimiyyətin "şeytanı" belə bizi qəbul etmək istəmir"

## Müsavat başqanının yeni müavini Elman Fəttah: "Mən bu təklifi qürur hissi ilə qəbul etdim"

**"Əgər sən şəhərin gözəlliyi üçün pozitiv bir şey təqdim etmisənsə, daha pozitiv bir ad qoymaq olardı"**



Bu yeri seçməyimiz təsadüfi deyil. Məqsədimiz siyasətdə yüksəliş yollarında olan E.Fəttahın yüksəklikdə qorxusunun, "baş gicəllənməsinin" olub-olmadığını yoxlamaqdır. Budur biz artıq "şeytan çarxı"nın qarşısındayıq. Çarxa diqqətlə baxan E. Fəttah gülümsünərək müxalifətçiliyə başlayır. "Mən hakimiyyətin "şeytan çarxı"nda yüksəyə qalxmaqla həyatıma ciddi risk edəcəm" deyir. Çarxın adının da uğursuz olduğunu bildirən müsahibim deyir: "Niyə mələk yox, məhz şeytan? Şeytan mifik və neqativ bir varlıqdır. Əgər sən şəhərin gözəlliyi üçün pozitiv bir şey təqdim etmisənsə, daha pozitiv bir ad qoymaq olardı. Həm də bu çarxın yerinə kanat qoysaydılar, daha uğurlu alınardı".

Budur artıq biletləri alıb attraksionun girişinə doğru gedirik. Çarxın idarəçisi bizə digər tərəfdən gəlməyimizi istəyir. E.Fəttah bu məqamda da zarafatından qalmayaraq "görürsən, hakimiyyətin şeytanı belə bizi qəbul etmək istəmir" deyir.

Budur, "şeytanın çarxı" artıq bizi yüksəkliyə doğru qaldırır. Ətrafa baxınan E.Fəttahdan özünü 60 metr yüksəklikdə necə hiss etdiyini soruşuruq: "Hakimiyyətin düzəltdiyi şeytan çarxına minmək çox ciddi bir siyasi səhvdir. Biz burada sanki hansısa qatarın VİP vaqonunda oturmuşuq. Mən buradan yüksək bir mənzərə yox, ancaq borular və çarxlar görürəm. Bu da ona görədir ki, attraksion dar bir çərçivədə dövr edir".

Budur artıq yerə doğru yaxınlaşırıq. Müsahibim yerə endikdən sonra başını qaldırıb yüksəkliyə doğru, çarxa baxaraq "mən bu şeytandan heç nə anlamadım" deyir. Təzə bulvarı da bəzədilmiş səhraya bənzədən E.Fəttahın paytaxtla bağlı yerdəki fikirlərini də öyrənirik. Axşam saatları olduğundan şəhərin bəzədilmiş işıqları və görünüşü göz qamaşdırır. E. Fəttah işıq saçan "Alov qüllələri"nə baxaraq bunun nə gündüz nə də ki, gecə tamamlayıcı bir görüntü yaratmadığını deyir: "Bu nədir axı? Mən bunda hər hansısa bir simvolizə görmürəm. Binaların görünüşündəki sürətli bayraq fonunun axıntısı da sanki şitləşdirilib. Dövlətin rəmzlərini bu qədər də şitləşdirmək olmaz. Bundan başqa Bakıda çox kobud və dağınıq şəkildə tikilən binalar paytaxtın arxitektor ənənəsinə uyğun deyil. Əksəriyyəti də Şərq ölkələrinin biznes mərkəzlərinin köçürülməsidir. Təfəkkür inkişaf və tərəqqi təfəkkürü deyil. Təfəkkür korrupsiya təfəkkürüdür. Buna görə də yaradıcılıq yoxdur, surət çıxartma var".

Paytaxtla bağlı söhbətimizi bitirib bir az da siyasətdən danışmaq qərarına gəlirik. Bunun üçün də bulvar ərazisindəki çay evlərindən birinə üz tutub, pürrəngi çay sifariş verib başlayırıq söhbətə.

***- Uzun illər yaman günün dostlarından olmusunuz. Hər zaman sizi həbsdə olan müsavatçıların məhkəməsi önündə, ailələrinin yanında görmüşük. Müavinlik postu sizin üçün gözlənilməz təyinat olmadı ki?***

- Son dövrlər həbslər o qədər şiddətlənib ki, Müsavat Partiyası da öz fəaliyyətinin əhəmiyyətli hissəsini həbslərlə bağlı məsələyə yönəltməli olub. Onlardan ən vacibi, təbii ki, həbs olunanların hüquqlarının müdafiəsi və onların ailələri ilə bağlı məsələlərə diqqətdir. Partiyanın tövsiyəsi ilə hazırda həbsdə olan Müsavat Partiyasının başqan müavini Yadigar Sadıqovun Hüquqlarını Müdafiə Komitəsinin rəhbəri oldum. Bu iş həm də mənim məsuliyyətimə çevrildi. Müavin təyin olunmağımla bağlı məsələyə gəlincə isə mən bunu gözlənilməz hesab etmirdim. Müsavat Partiyasının rəhbərliyində təmsil olunmaq, bəlkə də 10 il bundan qabaq da mənim arzum idi. Bildiyiniz təyinatlı orqanlarda, xüsusən də başqan müavinlərinin müəyyən edilməsi Müsavat Partiyasının başqanının səlahiyyətindədir. Başqanımız Arif Hacılı məni dəvət etdi və müavinlik postunu təklif etdi. Mən də bu təklifi qürur hissi ilə qəbul etdim.

***- Qarşıdan bələdiyyə seçkiləri gəlir. Seçkilərlə bağlı partiyanın hansı planları var?***

- Partiyanın qurultaydan sonrakı ilk Divan toplantısında bələdiyyə seçkiləri ilə bağlı məsələ bir daha müzakirə olunub və qərara alınıb ki, seçkilərdə partiyanın namizədlərinin iştirakı mümkün qədər çox olmalıdır. İstənilən halda bütün seçkilərdə iştirak etmək lazımdır. Əhalinin seçkiyə marağını yaratmağın yollarından biri partiyaların seçkidə mümkün olduğu qədər aktiv iştirak etməsidir. Biz bilirik ki, ölkədə çox ciddi avtoritar rejim var. Hakimiyyət seçki günü olan proseslər və yekunu ilə bağlı ciddi saxtalaşdırma yollarına əl atır. Bunun üçün istifadə elədiyi üsulların ən başında gələn seçki komissiyalarının hakimiyyətin nəzarətində formalaşmasıdır. Bütövlükdə Azərbaycanda ədalətli və bərabərhüquqlu seçki mühiti mövcud deyil. Biz israr edirik ki, seçki mühiti dəyişilməli və seçki qanunvericiliyi bütövlükdə yenidən işlənməlidir. Digər vacib məsələlərdən biri də hakimiyyətin seçkiləri saxtalaşdırmasını sənədlərlə əsaslandırılmasıdır. Bunun qarşısını almaq üçün seçkidə iştirak etmək, namizəd kimi mübarizə mühiti yaratmaq, teleçəkişlara şərait əldə etmək lazımdır. Yekunda bu iştirakın verdiyi imkanlardan istifadə edərək seçkilərin saxta keçirildiyini sübut edən məlumatlar toplusuna sahib olmaq və rejimin seçkiləri saxtalaşdırdığını yalnız sözdə deyil, həm də sənəddə sübut etmək lazımdır.

***- Parlament seçkilərinə namizədliyinizi verməyi düşünürsüzmü?***

- Partiyanın qurultaydan sonra toplanan ilk Divan iclasında 2015-ci ildə Müsavat Partiyasının fəaliyyət istiqamətləri planının hazırlanması məsələsi gündəmə gəldi. Bunun üçün işçi qrupu da yaradılıb. Mən də o işçi qrupunun tərkindəyəm. Biz ilk növbədə təkliflər paketi hazırlamağı düşünürük. Partiya müəyyən edəcək ki, 125 seçki dairəsindən neçəsində Müsavat Partiyasının cəmiyyətdə tanınan, kifayət qədər nüfuzlu namizədləri ciddi seçki yarışına girəcək və bu prosesdə mümkün olduğu qədər israrlı, ardıcıl mübarizə aparacaq. Partiyanın ölkəni idarə edilməsi ilə bağlı təməl konseptual yanaşmalarından biri də parlamentli respublikaya keçidlə bağlıdır. Bizim proporsional sistemə qayıtmaqla bağlı seçki konsepsiyaları çərçivəsində təkliflərimiz olacaq. Mənim parlament seçkilərində iştirak məsələmə gəlincə isə proses boyu imkanlarımın siyasi baxımdan yüzdə yüzünü Müsavat Partiyasının bu prosesdə ən yüksək səviyyədə iştirakına həsr etmək fikrində və əzmindəyəm. Mənim bu prosesdə namizəd olmaq məsələm yalnız partiya üçün bunun nə dərəcədə əhəmiyyətli olub-olmamasından asılı olacaq. Əgər mənim namizədliyim partiyanın maraqları baxımından vacib olarsa, iştirak edəcəyəm. Partiyanın uğuruna xidmət məsələsində daha uğurlu variant namizəd olmadan seçki işinin təşkili olacaqsa, o zaman namizədliyim olmayacaq.

***- Siyavuş Novruzov bu yaxınlarda deyib ki, Müsavat Partiyasında qurultay yenidən keçirilməlidir. Bu fikrə münasibətiniz necədir?***

- Siyavuş Novruzov Müsavat Partiyasının qurultayının keçirilib-keçirilməməsi və ya necə keçirilməsi məsələsində münasibət bildirmək və ya istiqamət göstərmək haqqına sahib deyil. Yaxşı olardı ki, o, öz dilləri ilə desək, yüz minlərlə üzvü olan Yeni Azərbaycan Partiyasının qurultayının formalaşdırılmış bir sistemdə keçirilməsinə nail olsun. Mən təklif edərdim ki, YAP Müsavat Partiyasının həm qurultay, həm də ümumilikdə seçkili demokratiya təcrübəsindən yararlansın. Partiyasında alternativ namizədlərlə qurultaya getməyi, həmçinin partiyanın seçki orqanlarına seçkiləri gizli səsvermə ilə keçirtməyi, tətbiq etməyi öyrənsin. Müsavat Partiyası bərpa olunduğu gündən demokratik ənənələrin cəmiyyətə ötürülməsi məsələsini özünün missiyasına çevirib. 22 ildir partiya daxili seçkilər gizli səsvermə və alternativ namizədlərin yarışı şəraitində keçirilir. Daha sonra 2000-ci il parlament seçkilərində deputatlığa namizədlərin siyahısının müəyyənləşdirilməsi işi Azərbaycanda ilk dəfə praymeriz (ilkin seçkilər) üsulu ilə keçirildi. Qadınlara 25 faizlik kvotanın ayrılması və indi də bir şəxsin ardıcıl olaraq iki dəfədən artıq başqan seçilməsinə qoyulmuş nizamnamə məhdudiyyətinin tətbiqini reallaşdırdıq. Bütün bunlar partiyanın Azərbaycan cəmiyyətinin demokratikləşməsi yolunda atdığı addımlar, həmçinin cəmiyyətin mənimsəməli olduğu çox vacib vərdişlərdir. Biz hakimiyyətə göstəririk ki, saxta seçkilər, məhz onların törətdiyi biabırçılıqlardır. Müsavatçılar ən məhdud imkanlarla hər kəsin gözü qarşısında həminin qəbul etdiyi prosedurlardan ibarət demokratik seçki nümunəsi keçirməklə, həm də hakimiyyətə göstərdilər ki, Azərbaycan xalqı demokratiyaya hazırdır.

***- Sizi hər kəs adətən zarafatcıl insan kimi tanıyır. Amma hərdən partiyadaşlarınıza sərt cavablar da verirsiniz. Elman Fəttah daha çox nə vaxt özündən çıxar?***

- Bütün insanlar normal hislərə və duyğulara sahibdir. Mən də nadirən də olsa hansısa məsələdə əsəbi münasibət bildirirəm. Ancaq açığı deyim ki, sərt münasibətləri yalnız partiya maraqları ilə bağlı olan məsələlərdə xüsusən əhəmiyyət kəsb etdiyi üçün bildirirəm. Bu münasibətin fərqliliyi hansısa şəxsi duyğularımla deyil, mənim mövqeyimin konkretliyi ilə əlaqədardır. Müavin təyin olunmağımdan sonra bəzən atmacalı, kinayəli hətta içində müəyyən qədər təhqirə yozula biləcək qədər ifadələr səsləndirilir. Mən onların çoxunu gülüşlə qarşılayıram və yaxud da heç bir halda müzakirəsinə qoşulmuram. Çünki mən həm də ixtisasca siyasətçiyəm. Zamanında siyasi davranış məsələləri ilə bağlı da təhsil almışam. Bilirəm ki, əgər siyasətlə məşğuluqsa, bu cür məsələlər bizə qarşı həm texnologiya kimi, həm də şəxsi münasibətlər çərçivəsində istifadə olunacaq.

***- Azərbaycandakı siyasi vəziyyəti bir lətifə ilə necə ifadə etmək olar?***

- Gənc əlində yekə şüarla küçəyə çıxır: "Xoşbəxt uşaqlığımıza görə sağ olsun yoldaş Çauşevski". Camaat onun başına yığışıb deyir: Nə danışırsan? Sən doğulanda Çauşevski artıq yox idi. Ona görə də ona sağ ol deyirəm".

Kaş bizim gənclərimiz də elə bir şüar qaldırıb Əliyevlər hakimiyyətinə "təşəkkür" edə biləydilər.

Söhbətimizi elə bu lətifə ilə yekunlaşdırırıq. Yolda gedərkən Bakının ənənəvi problemi olan tıxaca düşməməyimiz Elman bəyin təəccübünə səbəb olur. Ancaq E. Fəttahın bu təəccübü uzun çəkmir. Növbəti yol ayrıcında tıxaca düşürük: "Hə, bax artıq rahat oldum ki, biz ənənəvi həyat tərzimizi yaşayırıq. Hər şey qaydasındadır..."

❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**

# Bakıda bir ailədə 4 nəfərin qurğuşunla zəhərlənib öldürülməsinin şok təfərrüatları

## Aidə və Samirə Yəhyayevaların ölümündə təqsirli bilinərək ən yüksək cəzaya məhkum edilən dustağın prezidentə məktubu “Yeni Müsavat”da...

**Bakıda iki nəfəri zəhərləyərək öldürməkdə təqsirli bilinən Astara sakini, 59 yaşlı Aydın Qəhrəmanovun məhkəməsi başa çatıb. Oktyabrın 20-də keçirilən son prosesin yekununda Bakı Ağır Cinayətlər Məhkəməsi A.Qəhrəmanova ömürlük həbs cəzası verib. A.Qəhrəmanov qeyri-rəsmi nikahda yaşadığı Bakı sakini Aidə Yəhyayeva və onun qardaşı qızı Samirəni qurğuşunla zəhərləyib öldürməkdə təqsirləndirilib.**

A.Qəhrəmanov ona elan olunmuş ittihamlarla razılaşmayıb. O, heç kimi öldürmədiyini, əksinə, hər iki mərhumun, hətta onun özünün də qurğuşun tozu ilə zəhərləndirildiyini bildirib. Ömürlük məhbus və bacısı Sakitə Qəhrəmanova prezident İlham Əliyevə yazdığı məktubların bir surətini “Yeni Müsavat”a göndəriblər.

Məhbus prezidentə müraciətində yazır: “Mənim üç övladım var. İkisi tələbə, biri məktəblidir. 2006-cı ildə Aidə Yəhyayeva ilə şərikli 4 otaqlı ev tikdirmişik. Məqsəd təmirdən sonra evi satıb ayrı-ayrı mənzil almaq olub.

2008-ci ilin sentyabrında məndə bərk ağrılar və hərəkətsizlik müşahidə olundu. İki gün sonra eyni hallar Aidədə də baş verdi. Vəziyyətim günbəgün ağırlaşdı, saçlarım töküldü. Bir müddət qohumlarımın səyi ilə plazma-farez olunub düzəldim. Aidə ilə birlikdə yaşayan qardaşı qızı Samirənin də halı pisləşdi. 2008-ci il oktyabrın 14-də Samirə vəfat etdi. Yoldaşımla birlikdə Əfəndiyev adına xəstəxanaya Aidəyə ziyarətə getdik. Aidə vəziyyətinin ağır olduğunu deyərək mənzili satmaq üçün mənə etibarnamə verməyi təklif etdi. Oktyabrın 16-da etibarnamə imzalandı. Ayın 21-də isə Aidə dünyasını dəyişdi".

Bu iki müəmmalı ölümdən sonra Yasamal rayon prokurorluğu işi tibbi ekspertizaya göndərib və Aidənin ölümünə səbəb 17, 55 mq qurğuşun tozu orqanizminə keçdiyi müəyyən edilib. Ömürlük məhbus qeyd edir: “Samirənin də eyni səbəbdən öldüyü aşkar olundu.

Məndə isə qurğuşun 15,2 mq miqdarda çıxdı. Aidə ölümündən əvvəl mənə dedi ki, bizi bacısı İndira zəhərləyib. Bizdən əvvəl də İndira qardaşı Mustafa Yəhyayevi və onun oğlu Cavidi eyni şəkildə zəhərləyib öldürüb. Məqsəd onların mülkünü ələ keçirməkdir ki, buna da nail olub.

Eynilə bizi də - Aidə və mənim şərikli tikdirdiyim evi mənimsəmək arzusu ilə zəhərləyib. Ancaq Mustafa və Cavidi öldürənin kimliyi istintaq tərəfindən müəyyən edilməyib. Odur ki, mən 2008-ci ildən başlayaraq 4 illik şikayətlərdən sonra nəhayət baş prokuror Zakir Qaralovun qəbulunda oldum".

A.Qəhrəmanov bildirir ki, Zakir Qaralov işi Baş Prokurorluğun Ağır Cinayətlərə dair İstintaq İdarəsinə tapşırıb və 2012-ci il oktyabrın 15-dən araşdırma başlanıb: “Lakin müstəntiq Qurban Səfərov qeyri-obyektiv istintaq apardı. Hətta məni günahkar çıxardı ki, orqanizmimdə aşkar edilən qurğuşunun 15, 2 miqdarda olması normadır. Eyni motivlə zəhərlənən 5 nəfərdən 4-ü öldüyü və bir tək mən sağ qaldığım üçün istintaq əsl müqəssiri tapa bilməyib, belə qənaətə gəldi ki, cinayətkar mənəm. Təsəvvür edin ki, mən şikayət edib, əsl günahkarın tapılması üçün prokurorluğa müraciət edirəm, özümü qatil çıxarırlar. Əgər Aidə və Samirəni zəhərləyib öldürmüş olsaydım, işin açılması üçün niyə şikayət edirdim?”

A.Qəhrəmanov daha sonra Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi Mahmud Ağalarova yazılı ifadəsində bu sualları ünvanlayıb: “Məni zəhərləyən, Aidə və Samirənin ölümünə səbəb olanın tapılması üçün müvafiq orqanlara müraciət etmişəm. Əgər bu şəxsləri zəhərləyib öldürmək niyyətim olsaydı, niyə baş prokurora bu işlə bağlı teleqram vururdum ki? Aidəni, Samirəni və məni zəhərləyənlər bunu tamah məqsədi ilə ediblər.






Onlar da Aidənin bacıları İndira və Nazilə Yəhyayevadır. Bu iki bacı mənim Aidə ilə birlikdə olmağıma qarşı çıxırdılar. Aidə ilə ev təmir edib satmaq istəyəndə, bizi aradan götürüb mənzilə sahiblənmək istədilər. Yalançı şahidlərin dediyinə görə, mənzilin pulunu guya Nazilə Aidəyə veribmiş. İttiham aktının 29-cu səhifəsində isə yazılır ki, Nazilə Yəhyayeva Türkiyənin Afyon şəhərində yaşayır, orada ticarətlə məşğuldur, xalça, avtomobil yumaq işinə baxır. Bu işlərdən Nazilə nə qədər qazanır ki, 70 min manata ev alsın?"

Ömürlük məhbus əlavə edib ki, Yasamal Rayon Prokurorluğunun səyi ilə saç və dırnağından nümunələr götürülüb: “Bu nümunələrdə 15, 2 mq qurğuşun aşkar olunub. Əgər ”ekspertlərin" dediyi kimi, bu miqdar insan orqanizminə çirkli hava, meyvə-tərəvəz vasitəsi ilə keçirsə, o məntiqlə Azərbaycan xalqı kütləvi şəkildə tələf olmalıdır.

Aidənin ekspert rəyini nəzərə alsaq, tükün məhkəmə-kimyəvi tədqiqatı nəticəsində metallar arasında qurğuşunun orqanizmin normal fizioloji tutumundan artıq olduğunu görərik. Yəni 17, 55 mq qurğuşun tapılıb ki, bu da ölümünə səbəb olub.

Ölümə səbəb olduğu deyilən “Finlepsin” peraparatına gəlincə, bəli, Samirəyə bu dərmanı mən vermişəm. Onda özündəngetmə və qıcolma halları baş verirdi. Mən də aptekdən onların öz istəyi ilə bu dərmanı alırdım.

Məgər dərman alıb vermək qəbahətdir? Əgər bu dərmanla insan zəhərləyib öldürmək niyyətim olsaydı, bunu Samirəyə niyə, məntiqlə Aidəyə alıb içirdərdim. İkincisi, 8 tableti ona zorla necə içirə bilərəm ki, bunu heç kəs görməyib?!

O qızın mülk işində heç bir iştirakı olmayıb. Sadəcə, İndira və Nazilə ortada şahid qalmasın deyə onu da aradan götürüblər. Hazırda Nazilə Türkiyədə işlətdiyi cinayətə görə həbsdə saxlanır. İndira isə evi mənimsəyib".


146 saylı rəyin ardı.
2. A.Y.Yahyayevanın ölümünə səbəb ağır metal olan qurquşun duzu ilə zəhərlənmə olmuşdur. Ölüm meyidin meyitxanada müayinəsindən təxminən 4-6 saat əvvəl baş vermişdir.
3. A.Y.Yahyayevanın meyidinin müaynəsi zamanı onun uşaqlığında xoş xassəli şiş düyünləri (fibromiom düyünləri) müəyyən edilmişdir, və Buda ölümün baş verməsilə səbəbli əlaqəsi yoxdur.
4. A.Y.Yahyayevanın meyidindən götürülmüş qanın, beyinin və daxili üzv ...issələrinin məhkəmə-kimya tədqiqatı nəticəsində güclü təsiredici və zəhərləyici ...addə aşkar edilməmişdir. Tükün məhkəmə-kimyavi tədqiqatı nəticəsində ...etallar arasında Pb (qurquşun) orqanizmin normal fizioloji tutumundan xeyli ...rtıq olmuşdur (normada Pb-2-4mkq/q) aşkar olunub Pb-17,55mq/kq.
5. A.Y.Yahyayevanın meyidinin müayinəsi zamanı onun mədə boşluğunda ...rkibi bilinməyən bozumtul-yaşılımtıl rəngli duru möhtəviyyat aşkar edilmişdir.
Məhkəmə-Tibb Eksperti Şəhanə İsayeva

Məhkumun bacısı Sakitə Qəhrəmanova da bildirir ki, Yasamal rayon prokurorluğu bu işdən əvvəl zəhərlənib ölən Mustafa və Cavidin meyitlərini eksqumasiya edib. Tibbi ekspertiza hər ikisinin sümüklərində normadan artıq qurğuşun duzu, digər ağır metal birləşmələr tapıb.

Onun sözlərinə görə, qardaşı ölkə başçısına, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya, ombudsman Elmira Süleymanovaya müraciətlər edib: “Müstəntiq Qurban Səfərov İndira və Nazilə bacıları ilə iş birliyinə girib. Müstəntiq tibbi ekspertizanın 2008-ci ildəki cavablarına əhəmiyyət vermədən yeni analizlər tapır, hədə-qorxu ilə şahid izahatları alaraq işə tikir. Əgər qardaşım cinayətkar olsaydı, Zakir Qaralovun qəbulunda hər şeyi danışmağa risk etməzdi”.

S.Qəhrəmaova qardaşının övladlarının ali təhsil aldığını yazaraq prezidentdən imdad diləyir: “Sizdən xahiş edirəm ki, bu özbaşınalığa görə bir ailənin məhvinə imkan verməyəsiniz”.

Məhkəmə materiallarında göstərilir ki, şahid qismində ifadə verən Təranə Eyyubova 52 saylı orta məktəbdə müəllimə işləyib. O, mərhumə Samirənin sinif rəhbəri olub və onun ağıllı, əlaçı şagird olduğunu bildirib. Yasamal Rayon Polis İdarəsi 29-cu bölməsinin təhqiqatçısı Valeh Nəbiyev isə deyib ki, 2007-ci ildə bölməyə İndiranın şikayəti daxil olub, şikayətlə bağlı təhqiqat araşdırılması aparılıb: “İndira ilə Aidə yola getmirdilər. Şikayət edəndən sonra Aidəni bölməyə çağırdıq. O, Aydın Qəhrəmanovla birlikdə gəlmişdi. İki bacı bölmədə də dalaşırdılar. İndira Aidədən şikayətçi idi, Aydın Qəhrəmanovun evə gəlməməsini istəyirdi. Bununla bağlı araşdırma apardıq. Həmin vaxt İndira günahkar bilindi. Onun barəsində toplanan materiallara Yasamal Rayon Məhkəməsində baxıldı. Məhkəmə İndiranı cəzalandırdı”.

4 saylı xəstəxananın həkimi Şöhrət Talıbovun sözlərinə görə, A.Qəhrəmanov xəstəxanada müalicə alıb. Həkimin bildirdiyinə görə, A.Qəhrəmanov “Finlepsin” dərmanından özü də istifadə edib: “Bu, ən çox istifadə olunan dərmandır. Həkim resepti ilə xəstələr həmin dərmanı aptekdən alırlar. ”Finlepsin" əsəbləri sakitləşdirir, artıq dərəcədə istifadə edəndə zəhərlənmə ilə nəticələnir".

Qeyd edək ki, ömürlük məhkum 2013-cü il avqustun 27-də həbs edilib.

Qarşı tərəfin də mövqeyini dərc etməyə hazırıq.

❑ E.SALAMOĞLU

# “Xətai”dəki Maydan



Elşad PAŞASOY

**Düzü, Rauf bəyin zənginə qədər nə baş verdiyindən xəbərsiz idim. Sən demə, Xətai rayonunun yüzlərlə sakini gecəni fövqəladə rejimdə keçirib. Bu dəfə sakinlərin yuxusunu haram eləyən sürüşmə deyil, ağac qatilləri olub...**

Hadisə yerinə çatanda eşitdiyim ilk kəlmə hadisənin real qiymətləndirməsiydi. Gənclərdən biri “qardaş, bu gecə bura bizim üçün Maydan olub”. Barrikadalara bənzər taxta qalaqları, insanlarla əhatələnmiş, neçə gündür çatılan çıtır-çıtır yanan ocaq, qalın geyinib “post”da dayanan qadın, kişi, uşaqlar... Yuxarıdakı fikir əslində həqiqət idi: “Xəta”inin Maydanıydı bura. Sadəcə Kiyevin Maydanından fərqlisi o idi ki, burda camaat sadəcə sovetlər dövründə əkilmiş ağaclarının qırılmasına etiraz edrdi.

80-ci illərin əvvəllərində tikilən bu binaların ilk sakinləri danışdıqca az qalırdılar hönkür-hönkür ağlasın. Biologiya elmlər doktoru olan ağsaqqal kəsilən ağaclardan danışdıqca zənn edirdim ağacı yox, onun qolunu kəsiblər. Ömrünü təbiətə həsr eləmiş bir elm adamı üçün gözünün qabağında ağac qətliamının törədilməsindən ağır nə ola bilərdi? Danişdiqca titrəyirdi. Balaca qızcığaz isə “mən park istəyirəm” deyə, yumruğunu sıxmışdı. Görün uşaqlarımız nə istəyir, oynamaq üçün meydan...

Düz 30 il əvvəl burdakı balaca şam ağaclarına qulluğundan danışan başqa ağsaqqal-ağbirçəklər də yasa gəlmiş kimiydilər. Az qala bir aydır gecələr həyata keçirilən ağac qətliamlarını durdurmaq üçün keşik çəksələr də, faydası olmamışdı. İri gövdəli ağacları kökündən çıxarıb əhaliyə göz dağı vermişdilər.

Yeri gəlmişkən, Bakı şəhərinin baş memarı mətbuatla elə davrandı ki, hərəkəti əməllibaşlı təəccüb doğurdu. Sanki gecə ilə yaşıllığı məhv edən “Yeni Müsavat”ın əlibaltalı dəstəsiymiş. Qəfildən bu sətirlərin müəllifinə sarı dönüb diktofona işarə ilə “yığışdır onu, get işinlə məşğul ol” dedi.

Bəli, bizim işimiz fidan balalarımızın göz yaşlarına baxmayaraq böyük bir parkı məhv edib yerində göydələnlər tikənlərin bəd əməllərini işıqlandırmaq idi, bu məqsədlə də redaksiya tapşırığını yerinə yetirirdik. Məgər doğrudanmı Bakı boyda şəhərin baş memarı vəzifəsini tutan şəxs indiyədək jurnalistin işinin nədən ibarət olduğunu ayır edə bilmir?

Kimsə mənzilində divara bir mismar vuranda, ya eyvanının qabağına dəmir çərçivə çağlayanda dərhal səlahiyyətlilər növbə ilə qapını kəsdirir, müvafiq icazə tələb edir, ortaya qanun qoyur, Baş Planı xatırladır, Tikinti Məcəlləsinin “kobudcasına” pozulduğunu bəyan edir. Necə olur ki, bir aydır ən azı 3 doqquzmərtəbəli binanın sakinləri küçədə gecələyir, döymədiyi qapı qalmayıb, ancaq buna baxmayaraq cinayətin qarşısı alınmayıb.

Düzdür, hələ ortada Bakının Baş Planı yoxdur və deyilənə görə hazırlanması üzərində iş gedir. Ancaq yəqin ki, həmin layihədə yaşıllıq zolaqları da nəzərdə tutulub. Məntiqlə baş memar cənab Abdullayev onlarla çoxillik ağacın məhvinə etiraz etdiyi üçün yerli sakinlərə, o cümlədən bu prosesdə kifayət qədər prinsipial mövqe tutan deputat İqbal Ağazadəyə, həmçinin vəziyyətə operativ müdaxilə edən “Yeni Müsavat” qəzetinə təşəkkür etməli idi. Məsələ ictimailəşməsəydi, yəqin ki, sonuncu beş-on ağac da kökündən qoparılıb atılacaqdı. Hətta artıq ərziyə bünövrənin qazılması üçün iri texnika da gətirilibmiş. Əgər bu, baş vermədisə, deməli, baş memarın cavabdeh olduğu Baş Planda nəzərdə tutulan yaşıllıq zolağından da az-çox nişanə qalmış oldu. Belə olan təqdirdə baş memar niyə mətbuat işçisinə “get, işinlə məşğul ol” desin? Məgər bizim ayrı işimiz də var? Bəlkə biz bu şəhərin memarının görməli olduğu işlərlə məşğul olmalıymışıq...

Hər dəfə ağacların kəsilməsi səhnəsini görəndə mərhum prezident Heydər Əliyevin dediyi o məşhur fikrini xatırlayıram. Görəsən, 60 sot yerə 1,5 milyon xərcləyən o sahibkar, o pulu alan məmur, ya bu prosesdə cinayətlərə ortaq olmuş digər şəxslər “kim bir ağacın budağını kəsirsə, elə bilsin mənim qollarımı kəsir” fikrini, yaxud son illərdə “hərəyə bir ağac əkək” çağırışını xatırlayırmı? Axı ölkənin rəhbərliyi hərəyə bir ağac kəsək demir, bunlar hardan belə cəsarətlənib?

Sonda “Xətai”dəki “Maydan”ı yığışdırdığına, ocaqların söndürülməsinə, sakinlərin evlərinə dağılışmasına nail olduğuna görə deputat İqbal Ağazadəyə təşəkkürlər. Gecə yarısı olay yerinə gəlməsəydi, kim bilir nələr baş verə bilərdi...

YENİ MÜSAVAT
N 270 (5979) 3 noyabr 2014

# Bakıya yarım milyonluq avtomobilləri kim gətirir?

## Bu ay "Lamborghini Huracan" və "Ferrari Californiya" modelləri Azərbaycanda satışa çıxarılacaq; "Lexus" və "Range Rover" kimi dəbdə olan avtomobillər bazarına generalın yaxın çevrəsi nəzarət edir

**Azərbaycanda məmur övladlarının bahalı maşınlara olan sevgisi bu biznes sahəsi ilə məşğul olan iş adamlarını həvəsləndirib. Bakının küçələrində şütüyən "Bentley", "Bugatti", "Mazeratti" və "Yaquar" kimi brend avtomobillərlə indi heç kimi təəccübləndirmək olmaz. Halbuki bu avtomobillərin qiymətinin sıfırlarını sıradan azərbaycanlı bəlkə də yuxusunda belə görə bilməz.**

Bu il mayın 16-da "Ferrari", iyunun 9-da isə "Lamborghini" avtomobillərinin Bakıda satışına başlanılıb. İndiyə qədər ölkəyə qiyməti 280-460 min manat arasında olan 5 "Lamborghini", qiyməti 300-500 min manat arasında dəyişən 6 ədəd "Ferrari" avtomobili gətirilib. Bu avtomobillərin kasko - yəni tam sığortası 7-15 min manat arasıdır.

Hazırda Bakıda satışda olan hətta ən ucuz "Lamborghini" avtomobilinin illik sığortası 8400 manat və ya 10,8 min dollara başa gəlir. Maraqlıdır ki, bahalı maşınları "Xalq sığorta"nın tərkibində olan "Avtolux Azərbaycan" şirkəti gətirir. Yəni bahalı maşınlar həm də "Xalq sığorta" da sığortalanır. Məlumatlara görə, qiyməti 460 min manat olan ən bahalı modellərdə illik sığorta haqqı minimum 13,8 min manat və ya 17,7 min dollar təşkil edir.

Dekabr ayına qədər isə ölkəyə hərəsindən bir ədəd olmaqla "Lamborghini Huracan" və "Ferrari Californiya" modelləri gətirilməsi planlaşdırılır. Adı çəkilən avtomobillərin satış qiymətinin isə 500 min manat civarında olacağı deyilir. "Avtolux Azərbaycan" şirkəti də təsdiq edir ki, avtomobillərin Azərbaycanda satış qiyməti hələ dəqiqləşməyib. Avtomobilin Bakıda neçəyə satışa çıxarılacağı gömrük və digər xərclər məlum olandan sonra müəyyənləşəcək.

"Avtolux Azərbaycan" şirkətinə iranlı iş adamı rəhbərlik edir. Xəbərlərə görə, Əli Əkbər Taheri bir neçə il əvvəl bu şirkətə rəhbər təyin edilib. İranlı iş adamı təyinatadək "Xalq sığorta" nın İdarə Heyətinin sədr müavini olub. Qeyd edək ki, Əli Əkbər Taheri haqda məlumatlar çox azdır. Yalnız o məlumdur ki, Taheri Tehran Universitetinin mexanika fakültəsini bitirib. "Autolux Azərbaycan" MMC dünyaca məşhur avtomobil şirkətləri və ultra lüks geyim və aksesuar şirkətləri ilə də əməkdaşlıq edir. "Xalq sığorta" bir müddət əvvəl deputat Cavid Qurbanovun rəhbərlik etdiyi "Azəryolservis" ASC-nin tabeliyindəki "1 saylı Yol Yaşıllaşdırma" MMC məhkəməyə də vermişdi. İddiaya səbəb MMC-nin "Xalq Sığorta" şirkətinin sığortaladığı avtomobili vurması və dəymiş 2500 manat ziyan ödəməkdən imtinası olmuşdu.

Şirkətin hakimiyyətlə yaxınlığı barədə məlumatlar da ziddiyyətlidir. Heç kimə sirr deyil ki, Azərbaycanda "Lexus" və "Range Rover" kimi dəbdə olan avtomobillər bazarına general Bəylər Əyyubovun yaxın çevrəsi nəzarət edir. Məhz hakimiyyətdəki güclü dəstək sayəsində fiziki şəxslərə bu avtomobilləri ölkədən kənarda almaq qadağan olunub. Yəni heç kim nə qədər arzulasa belə bu avtomobilli xaricdən alıb ölkəyə gətirə bilməz.









Bəzi mənbələr "Xalq sığorta"nın və onun "Avtolux Azərbaycan" şirkətinin hakimiyyətdə ikinci məşhur soyada daha yaxın olduğunu söyləyirlər. "Belə son dərəcə bahalı maşınları yalnız hakimiyyətdə dəstəyi daha güclü olanlar gətirə bilərlər" deyə, mənbə qeyd edir.

Məsələ ondadır ki, ölkə rəhbərliyi hələ bir neçə il öncə Azərbaycana qiyməti 250 min dollardan baha olan avtomobillərin gətirilməsinə qeyri-rəsmi qadağa qoymuşdu. Lakin əvvəl Bakıda qiyməti 250 min dolları da keçən maşınlar - "Bentley", "Bugatti" və "Mazeratti"nin salonları açıldı, onun ardınca isə daha bahalı markalı avtomobillərin satışı başladı. Saytlarda birinin əldə etdiyi məlumatlara görə, hazırda Bakıda 18-27 yaş arasında 173 gənc "bahalı maşın sahibləri" adlandırıla biləcək zümrə sayıla bilər. Bu gənclərin hər birinin minimum 60-70 min dəyərində bir, bəzi hallarda isə bir neçə avtomobili var.

Müşahidələr göstərir ki, hazırda orta çaplı məmurlar "Lexus" və "Range Rover" kimi avtomobilə daha çox meyl edirlər. Bu maşınlar da modellərinin qiymətinə görə ucuz sayılmaz. Qiymətlər 100-150 min manat arasında dəyişir.

Sonda onu da deyək ki, bu yaxınlarda "Şərurlu İsfəndiyar" kimi tanınan iş adamı İsfəndiyar Axundovun tələbə oğlu 650 min dollarlıq "Lamborghini"si ilə gündəmə gəlmişdi. "Şərurlu İsfəndiyar" əvvəlcə İqtisad Universitetinin tələbəsi olan oğlunun belə maşın olmasını inkar etsə də, növbəti açıqlamasında faktı təsdiqləmişdi.

❑ Xəbər xìdmətì



# Balqabaq bayramında 5 nəfər öldü

## Yanmış bir nəfərsə kritik durumdadır

**"Reuters"in xəbərində deyilir ki, şənbə günü səhər erkən Protland (Maine) sakini olan 5 nəfər balqabaq bayramında ölüb, bir nəfər isə kritik vəziyyətdə yanıb. Bu, adıçəkilən ərazidə son 30 ildə baş vermiş ən dəhşətli yanğındır. Yanğının baş verdiyi səhnədə isə bir gün əvvəl Hellouinlə bağlı tədbir keçirilib.**

Bu barədə məlumatı yerli rəhbərlik agentliyə verib. Yanğınsöndürənlər hadisə yerinə gələndə hər tərəf od içində olub. Məlumatda deyilir ki, bundan başqa, bir nəfərə tibbi yardım göstərildikdən sonra buraxılıb, 7 nəfər yeniyetmə isə od içində olan binadan qaçıb, canlarını qurtara biliblər. Bir nəfər isə özünü ikinci mərtəbədən atmaqla, təhlükədən kənarlaşa bilib.

Yanğınsöndürənlər bildiriblər ki, yanğın başlayandan bir saat sonra onlar hadisə yerinə gəliblər. Binanın ikinci mərtəbəsində iki, üçüncü mərtəbəsində isə üç yanmış meyit tapıblar. indi yanmış cəsədlərin tanınması üçün tədbirlər görürlər. Bundan sonra isə cəsədlər doğmalarına veriləcək.

Binada yanğının baş vermə səbəbi hələ ki, məlum deyil.

"The New York Times" isə yazır ki, 1984-cü ildə Maine-də belə dəhşətli yanğın baş vermişdi. O vaxt da 5 nəfər yanaraq, ölmüşdü.

Qeyd edək ki, Hellouin (ing. Halloween) - hər il 31 oktyabrda qeyd edilən müasir balqabaqlar bayramıdır. Bayram Böyük Britaniya və İrlandiya ərazisində yaşayan Şotland xalqı Keltlərin adətləri əsasında hazırlanmışdır. Bu bayram hal-hazırda dünyanın müxtəlif ölkələrində qeyd edilir. Başlıca olaraq ABŞ, Britaniya, İrlandiya, Rusiya, Asiya qitəsində yerləşən Sinqapur, Cənubi Koreya, Yaponiya , Okeaniyada yerləşən Avstraliya, Yeni Zelandiya və bir çox dünya ölkələrində təntənəli şəkildə keçirilir.

❑ Elbəyì HƏSƏNLİ, müsavat.com

**Elan**

**"PEPO FLORA" MMC-nin nizamnaməsi, şəhadətnaməsi və VÖEN-i itdiyi üçün etibarsız sayılır.**

***

**"TEXNOELEKTRONİKS" MMC-nin nizamnaməsi, şəhadətnaməsi və VÖEN-i itdiyi üçün etibarsız sayılır.**

**Elan**

**Azadlıq prospekti, ABŞ səfirliyi və Nəsimi Rayon Polis İdarəsinin yanında, 12 mərtəbəli binanın 4-cü mərtəbəsində, 90kv.m.-lik 3 otaqlı mənzil satılır. Sahibindən.**
**Telefon (050) 3885035**

**Kişilər!!!**

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**

**Beynəlxalq Təhsil Mərkəzi**

***Biz sizi Ukraynanın, Belorusun, Rusiyanın və Gürcüstanın dövlət universitetlərində bakalavr və magistr dərəcələri üzrə əyani, qiyabi və ikinci ali təhsil almağa dəvət edirik.***

< *Kiyev Dövlət Texniki Universiteti*
< *Kompüter mühəndisliyi. Hüquq. İqtisadiyyat.*
< *Kremençuk Dövlət Universiteti*
< *Psixologiya. Jurnalistika. Hüquq. Filologiya*
< *Kiyev Dövlət Dəniz Akademiyası*
< *Gəmi sürmə. Dəniz və çay nəqliyyatı. Hüquq*
< *Tbilisi Dövlət Tibb Universiteti*
< *Müalicə işi. Stomatologiya. Əczaçılıq. Pediatria*
< *Minsk Dövlət Universiteti*
< *Beynəlxalq Münasibətlər. İqtisadiyyat. Jurnalistika*
< *Qrodno Dövlət Universiteti*
< *Hüquq. İqtisadiyyat. Pedoqoqika. Tərcüməçilik*
< *Volqoqrad Dövlət Aqrar Universiteti.*
< *Aqronom. Yerölçmə və Kadastr. Elektrik təchizatı.*

**Bizim bu ölkələrin yuxarıda adları sadalanan və bu siyahıda adları olmayan bir çox digər dövlət universitetləri ilə əməkdaşlıq və təmsilçilik haqqında rəsmi müqavilələrimiz var. Diqqət! Bəzi ixtisaslar üzrə pulsuz təhsil almaq şansınız var!**

**Ünvan: Bakı ş. Məmmədzadə k. 13A «Nərimanov» m-su**
**Tel: (050) 3319999; (077)3319999; (055)2522525; (012)4379980**

**ORİJİNAL AKSESUARLAR**

**Ucuz qiymətlərə, gözəl, keyfiyyətli hədiyyələr və ev üçün bəzək əşyaları**



ünvan **"SƏDƏRƏK" TİCARƏT MƏRKƏZİ**
*3-cü zona, 15-ci sıra, 40 nömrəli mağaza*

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

**SƏLİMOV FƏRMAN**
Tel: (055) 776-70-34

YENİ MÜSAVAT
N 270 (5979) 3 noyabr 2014

**"Maaşımı alan kimi banka cumuram. Onu ödə, bunu ödə. Bir də görürəm, o biri aya yenə əlimdə qəpik-quruş qalıb. Bir bankın krediti ilə o birini ödəyirəm. Bir kredit kartın borcunu ödəmək üçün o biri kartdan pul götürürəm. Belə-belə bütün ay oyun oynayıram. Hər şeyim kreditlədir. Elə bil özgə evində kirayənişinəm..."**



# Əvvəli gülməli, sonu ağlamalı...

## Azərbaycan insanı kredit bataqlığından niyə çıxa bilmir?

Müsahibimiz 48 yaşlı Mehparə Seyidovadır. Orta məktəbdə müəllimə işləyən Mehparə xanım üçün kredit kartı, bankların kredit siyasətinin qapıları bir iş yoldaşı sayəsində açılıb. 5 ildir ki, o bank sənin, bu bank mənim, qapı-qapı gəzir. Dediyinə görə, evini də kreditlə təmir etdirib, oğlunu da bankdan aldığı pulla evləndirib. Daha sonra isə kreditdən asılı qalıb. İllərdir bank kreditlərini ödəməklə məşğuldur. Deyir, hətta ölməyə də qorxur: "Bir yerim ağrıyanda elə qorxuram ki. Deyirəm, birdən ölərəm, oğul-uşaq götürdüyüm kreditlərin əlində qalar..."

****

Statistikaya görə, 2014-cü il aprelin 1-nə olan vəziyyətə görə, Azərbaycanda ümumi kredit qoyuluşları 15,9412 milyard manat təşkil edib və bunun təxminən 6 milyard manatı, yəni 40 faizindən çoxu istehlak kreditləri olub. Beləliklə, istehlak kreditlərinin ümumi kredit portfelində payına görə biz hər şeyi kreditə alan qərbliləri iki dəfə qabaqlayırıq. Qərbdə istehlak kreditləri ümumi kredit potfelinin 20 faizindən çoxunu tutmur. Təbii ki, Azərbacandakı bu "irilənmədə" bank faizlərini ödəmək üçün verilmiş "silsilə kreditlərin" də rolu böyükdür.

### Rəqəmlər dəhşət saçır - əhali kredit girdabında...

Son bir ildə Azərbaycanda kommersiya banklarından kredit alan fiziki şəxslərin sayı 31,4% artıb. Borc alanların sayı 1 mln. 641 min 493 nəfərdir. Bu barədə Azərbaycan Mərkəzi Bankı yanında Mərkəzləşdirilmiş Kredit Reyestrinin bu ilin ilk dörd ayının nəticələri ilə bağlı hesabatında deyilir. Kreditlərin 35 faizini istehlak kreditləri təşkil edir.

AMB-nin məlumatına görə, 1 iyul üçün Mərkəzləşdirilmiş Kredit Reyestrində 2 mln. 138 min 886 borcalan (ilin əvvəlindən +9,5%) və 7 mln. 738 min 882 kredit haqda məlumat var (+18,6%).

İlin əvvəlindən MKR-ə 1 mln. 421,31 min sorğu olub. Bu, ötən ilin eyni dövründəkindən 1,43 dəfə çoxdur. AMB-nin məlumatına əsasən, daha çox sorğu bank və qeyri-bank kredit təşkilatlarına aiddir (1 mln. 398 min 83 dəfə). Qalan pay fiziki şəxslərindir - 23 min 227 sorğu. İlin I yarısında reyestrin məlumatlarından 41 bank və 31 QBKT istifadə edib.

İyulun əvvəli üçün reyestrdə kreditlər üzrə 989 min 278 zamin (ilin əvvəlindən +18,2%) barədə məlumat var.

Ekspertlər hesab edir ki, əhalisinin sayı 9 milyon olan ölkədə bu rəqəm dəhşətlidir.

2013-cü ildə avtomobil kreditləri üzrə problemli kreditlərin həcmi 2012-ci illə müqayisədə təxminən 15% artıb. Amma bu, özü ilə paralel problemlər də yaradır. Belə ki, maşın kreditlərində faiz dərəcəsi və əlavə bank xərləri çox yüksəkdir. Əsas səbəblərdən biri də vətəndaşların krediti götürərkən öz gəlirlərini düzgün qiymətləndirməməsidir. Avtomobil sahibi krediti ödəyə bilmədikdə, maşın bankın sərəncamına keçir və adətən, bu cür hallarda banklar avtomobil sahibinin ödədiyi krediti də geri qaytarmırlar.

### Avropada düzgün kredit almayan insanların 15 faizi müflis vəziyyətə düşüb

Yaxşı, bəs dünyada necədir? Avropa insanı da özünü bizimkilər kimi bankların çənginə veribmi? Məlum olub ki, 2012-ci ildə Avropa Birliyi (AB) ölkələrində vətəndaşların banklara kredit borcu 800 mlrd. avroya çatıb. Bunu Almaniyanın Ziqen Universitetinin, kredit hüququ məsələləri üzrə ekspert Aleksandr Oyfinqer "Kredit alanların hüquqi müdafiəsi, maliyyə sektorunun sabitləşdirilməsi naminə istehlakçıların müdafiəsi" mövzusunda Bakıda keçirilən beynəlxalq konfransda deyib. A. Oyfinqer bildirib ki, hazırda AB-yə daxil olan ölkələrin vətəndaşlarının 60%-i bu və ya digər banklardan kredit alıb. Düzgün kredit verilməməsi prosesi nəticəsində isə kredit alan vətəndaşların 15%-i müflis vəziyyətə düşüb. O, borc verərkən banklar qarşısında meydana çıxan problemlərə də diqqət yönəldib və kredit verilərkən borc alan tərəfin hüquqlarına da toxunub. Onun sözlərinə görə, bu proses zamanı bürokratik əngəllərin sayı çoxdur və mövcud vəziyyət Qərbi Avropa dövlətlərində də eynidir. Ekspert kreditlərin verilməsi zamanı dələduzluq hallarının qarşısının alınmasının önəmini də vurğulayıb.

### Azərbaycan faizdə hamıdan yüksəkdir

Avropa Birliyi ölkələrində istehlak krediti orta hesabla 7-8 faizlə verilir. Almaniya, Lüksemburq, Finlandiya, Belçika və Fransada dərəcələr müddətindən asılı olaraq 2-7 faiz təşkil edir. ABŞ-da bu göstərici 5 faizdən çox deyil.

Çində 6, Braziliyada 5, Avstraliyada 3, Norveçdə 2-3 faiz ətrafındadır. Rusiyada və Türkiyədə 10 faizədək dərəcəylə istehlak və biznes kreditləri götürmək olur. MDB ölkələrinin çoxunda faizlər 10-20 faiz arasında dəyişir.

Araşdırma göstərir ki, bankların kredit portfelinin yarısı əhalinin əmanəti hesabına formalaşır. Yəni banklar əhalidən əmanət cəlb etmək üçün faiz təklif edir. Bu, bir qayda olaraq 12-15 faiz arasında dəyişir. Təbii ki, 15 faizdən əmanət cəlb edən bank kredit vermək üçün götürdüyü əmanətin üzərinə heç olmasa 10 faiz qoyub 25 faizdən verməlidir.

Digər səbəb bizim bankların beynəlxalq bazara çıxışının məhdud olmasıdır. Ölkədə çox az sayda bank var ki, onların maliyyə-uçot sistemi beynəlxalq standartlara uyğun olduğundan xarici banklardan aşağı faizlə kredit götürə bilir. Amma belə banklar az olduğundan bazara təsir etmir. Xarici banklardan götürülən kreditlərin illik faiz dərəcəsi 3-4 faiz arasında dəyişilir. 3-4 faizlə pul cəlb edən bankla 15 faizlə pul cəlb edən bank arasında xeyli fərq var. Az faizlə pul cəlb edən bank kredit verdikdə faizi də o qədər yüksək alınmayacaq.

Azərbaycanda kreditlər üzrə orta faiz dərəcəsi 24% olduğu halda Avropada bu rəqəm 5-7, ABŞ-da 4-6 % intervalında dəyişir. Rusiyada kredit faizləri 15, Qazaxıstanda 16, Mərkəzi-Şərqi Avropa ölkələrində isə 10%-dir. Yəni bizdə kredit faizi Avropadan azı 4 dəfə çoxdur".

### Kredit verilişində "şapka" faktoru

"Yeni Müsavat"ın iqtisadiyyat şöbəsinin bu mövzu ilə bağlı hazırladığı araşdırmada qeyd olunub ki, kreditlərin verilməsi zamanı müştərilərdən tələb edilən "şapka" kreditin onsuz da az olmayan faizinin daha da yüksəlməsinə səbəb olur. Tutaq ki, müştəri bankdan illik 26 faizlə 10 min manat kredit götürür. Kredit verilərkən vəsaitin ən azı 1000-1500 manatı ondan rüşvət şəklində alınır. Bu bu isə avtomatik olar bank faizinin faktiki olaraq 35-40 faizə yüksəlməsinə səbəb olur. Sadə hesablama aparaq. 10 min manat 1 il müddətinə 26 faizlə götürülübsə, müştəri əsas borcla banka 12600 manat qaytarmalıdır (10000 əsas borc + 2600 manat faiz borcu). Ancaq kredit ödənişləri hər ay həyata keçirildiyindən faiz borcu 18-20 faizə enir. Çünki hər ay ödəniş etdikcə əsas borcun məbləği azalır, bu da faiz borclarının azalmasına səbəb olur. Ona görə də illik faiz borcu 18-20 faiz arasında olur (bankirlər buna işlək faiz dərəcəsi deyirlər). Ancaq bu müştəri son nəticədə banka 13500 manat (əsas borc 10000 + faiz borcu 2000 + "şapka" 1500) ödəyirlər. Bununla da illik faiz 35 faizə çatır. Bu da kreditin ödənilməsində ciddi problemlər yaradır. Bir neçə azsaylı bankı çıxmaq şərti ilə Azərbaycan bankları bu "sistem"lə işləyir. Bu, problemli kreditlərin yaranmasının əsas səbəblərindən biri, bəlkə də birincisidir.

İkincisi, banklar krediti verərkən müştərinin real gəlirlərinə yox, formal gəlirlərinə üstünlük verirlər. Məsələn, orta və ya ali məktəb müəlliminə problemsiz yaşıl işıq yandıran banklar onlardan bir neçə dəfə çox gəliri olan kiçik biznesmenlərə qırmızı işıq yandırırlar. Bu da kreditlərin qaytarılmasında ciddi problemlər yaradır.

Üçüncüsü, banklar kredit ayırarkən vəsaitin təyinatına ciddi önəm vermirlər. Əksər hallarda kredit təyinatı üzrə xərclənmir və bu da ödənişlərdə ciddi problemlər yaradır. Nəticədə bankların çoxu problemli kreditlərdən əziyyət çəkir. Belə bankların bəziləri məcbur olub bu məsələ ilə məşğul olan ayrıca srtuktur - problemli kreditlər şöbəsi yaradırlar.

### Psixoloqlar xəbərdarlıq edir: kredit kartı xərcləmək daha asandır, nəinki pulu...

Psixoloqlar isə bu durumla bağlı həyəcan təbili çalır. Məlum olur ki, artıq pulu olan da, olmayan da kredit kartı ilə alış-veriş edir. Məqsəd pul daşımamaq olduğu kimi, heç pulu olmayan aşağı gəlirlilər də kredit kartı alır və ondan istifadə edir. Hətta və hətta gəliri olmayanlara da kredit kart verilir. Kredit kartının limitləri isə çılğın bir həddə qədər artır. Heç pulu olmayan şəxsə birdən-birə 500 manat dəyərində kart verilsə, nə olar?

Kredit kartını xərcləmək pula görə çox daha asandır. 150-200 manatlıq bir alış-veriş edəndə təkrar-təkrar düşünürsən. Amma bu ödəməni kredit kartı ilə edəndə düşünmədən xərcləyirsən. Amma bankdan bildiriş gələndə insanın ağlı başına gəlir. Əslində isə kredit kartı bir borclanma vasitəsi yox, ödəmə vasitəsidir. Kredit kartı insanın yükünü xəfifləmək üçün bir vasitədir. Əsas məsələ limiti keçməmək və vaxtı gələndə ödəyə bilmək bacarığıdır. Stabil gəliri və iradəsi olan adamlar bu işin öhdəsindən rahatlıqla gələ bilir. Əsas məsələ məsuliyyət faktorudur.

Sevinc TELMANQIZI

YENİ MÜSAVAT

Son səhifə

N 270 (5979) 3 noyabr 2014



# Ölümünüzə nə qədər qaldığını bu cihaz hesablayır

Əlbəttə, kimin hansı gün öləcəyini demək mümkün deyil. Ya da başqa cür desək, Allahdan başqa kimsə bilməz.

Milli.az Habertürk-ə istinadən bildirir ki, smartfonlar üçün "Deadline" əlavəsi belə "münəccimliyi" öz üzərinə götürür.

Əlavə Apple-in "HeatlhKit" əlavəsinin statistikasını istifadəçiyə yönəldilən suallara cavablarla birləşdirərək təxmini ölüm gününü müəyyən edir.

"Deadline" doğum tarixindən gündəlik hərəkət aktivliyinə, yuxu düzənindən adamın siqaret çəkib-çəkmədiyinə qədər müxtəlif suallar verir, sonra isə "ölüm tarixini" bəlirləyərək geriyə sayıma başlayır. "Deadline" hələlik yalnız İOS platforması ilə işləyən telefon sahiblərinə 0,99 dollara əlçatandır və insanları sağlam yaşamağa təşviq etdiyi vurğulanır.

# Gündə 1 milyon dollar xərcləsə, pulu 218 ilə qurtaracaq



"Oxfam"ın hesabatına görə, dünyadakı ən varlı 85 nəfərin toplam var-dövləti mart 2013-mart 2014 tarixləri arasında hər gün 668 milyon dollar, yəni hər dəqiqə təxminən yarım milyon dollar artıb. Dünyadakı milyarderlərin sayı 1645 nəfər artıb. Sənəddə o da qeyd olunub ki, dünyanın ən varlı insanı olan Bil Geyts 76 milyard dollarlıq sərvətini nağda çevirib. O, hər gün 1 milyon dollar xərcləsə, bütün sərvətini 218 ildə qurtara bilər. CNBC isə hər qitənin ən varlı qadınının adını açıqlayıb. Şimali Amerikanın ən varlı qadını 37,9 milyard dollar sərvətlə Kristi Valton olub. Dünyadakı milyarderlərin 7,3 trilyonluq sərvətinin yüzdə 13-nü isə qadınlar idarə edir.

# Qızının ad gününü unutdu, 4 milyon dollar hədiyyə etdi



Amerikalı bir ata qızının ad gününü unutmasını kompensasiya etmək üçün ona şans oyunu kuponu alıb. Bəxtdən o bilet düz 4 milyon dollar pul udub. Çikaqoda yaşayan ata qızını necə xoşbəxt edəcəyi barədə uzun-uzun düşünüb. "100 milyon dollar pul çılğınlığı" adlı oyuna 20 dollarlıq iki bilet alan ata evə gedəndə qızının ad günü olduğunu yadına salıb. Deisi Ocampo adlı qız atasının yaddaşsızlığını bağışlayaraq bu biletləri hədiyyə olaraq qəbul edib. Nəticədə bilet 4 milyon dollar mükafat udub: "Bu bilet indiyə qədər aldığım ən gözəl ad günü hədiyyəsidir. Ad günüm olduğunu unutsa da, atama minnətdaram. Ona bir ev alacağam. Pulun yerdə qalan hissəsini də təhsilimə xərcləyəcəm".

# Depressiyadan çıxmağın yolu evlənməkdir



Depressiya müasir insanların ən çox məruz qaldığı haldır. Amma depressiyadan qurtulmaq üçün psixoloq və alimlər müxtəlif üsullar təklif edir. "Nyu-York Post" qəzetinin yazdığına görə, eksperimentlər zamanı alimlər 3000 ər-arvadın səhhətini və maddi vəziyyətini təhlil ediblər. Məlum olub ki, sarsılmış adamlar nikah qurduqdan sonra nikbin adamlara nisbətən daha xoşbəxt olurlar. Müəlliflərin fikrincə, özünü təsdiq edən və həmişə xoş əhvalda olan adamlar nikahdan heç nə gözləmirlər. Sarsılmış adamlar isə nikahdan nicat və sosial dəstək gözləyir, depressiyadan qurtulurlar.



# Şokolad mədə xərçəngi riskini artırır

Çox şokolad yemək mədə xərçəngi riskini artırır. Türkiyə mətbuatının yazdığına görə, həzm sistemi xəstəliklərini araşdıran mütəxəssislər çox şokolad və duzun mədə xərçəngi riskini artırdığını ortaya çıxarıb.

Mütəxəssislər dünyada mədə xərçənginin ağciyər xərçəngindən sonra ikinci yerdə olduğunu bildirib. Xərçəng xəstəliyindən əziyyət çəkən hər 10 nəfərdən biri mədə xərçəngi xəstəsidir. Ancaq bu rəqəm ayrı - ayrı ölkələrə görə dəyişir. Məsələn, Yaponiya və Latın Amerkasında sözegedən xəstəliyə daha çox rast gəlinir.

Həkimlər bu xəstəliyin yaranmasında qidalanmanın və həyat tərzinin önəmli rol oynadığını bildirir. Şokolad və duz da bu qidalar sırasındadır.




**QOÇ** - Daxili gərginliklə mübarizədən qalib çıxa bilsəniz, bu təqvimin ümumi çalarları sizi qane edəcək. Ola bilsin ki, yaxşı insanlar tərəfindən perspektivli təkliflər də alasınız.

**BUĞA** - Kifayət qədər xoş məqamlar yaşayacaqsınız. Bir tərəfdən yeni işgüzar əlaqələr, digər tərəfdənsə ətrafınızdakıların sizə bəraət qazandırması ovqatınızı yüksəldəcək.

**ƏKİZLƏR** - O qədər də ürəkaçan ərəfə deyil. İlk növbədə səhhətinizə diqqət yetirin. Çünki ulduzlar sağlıq durumunuzun aşağı səviyyəyə düşəcəyini bəyan edir. Riskdən də uzaq olun.

**XƏRÇƏNG** - Hər mənada düşərli gündür. Rastlaşdığınız hər bir hadisə ürəyinizdən xəbər verəcək. Əlbəttə ki, bunun üçün özünüz də canfəşanlıq göstərməlisiniz. Sövdələşmələrdə aktiv olun.

**ŞİR** - Səhhətinizin qayğısına qala bilsəniz, gün ərzində başqa narahatçılığınız olmayacaq. Nahardan sonra sevindirici xəbərlər və ya ürəyinizcə olan təkliflər alacağınıza şübhə etməyin.

**QIZ** - Neçə vaxtdan bəri daxilinizdə mövcud olan gərginlik səngimədiyindən nahara qədərki ovqatınız aşağı səviyyədə ola bilər. Sonrakı saatlarda isə sürprizlər gözlənilir.

**TƏRƏZİ** - Bu təqvimi təsadüflərlə başa vuracaqsınız. Gözləmədiyiniz adamlarla, ağlınıza gətirmədiyiniz xəbərlərlə rastlaşacaqsınız. Axşama doğru sürprizlər də mümkündür. Pulla bağlı narahat olmayın.

**ƏQRƏB** - Sizin üçün müəyyən mənada mistik gündür. Daxili sıxıntılarınızı və ruhi zəifliyinizi aradan qaldırmaq üçün müqəddəs ziyarətgahlarımıza üz tutun. Dini qaydaları pozmayın.

**OXATAN** - Ulduzlar kənar təsirlərdən uzaq olmağı, yalnız öz qərarınızla addım atmağı tövsiyə edir. Bu gün spirtli içki içmək, qarğış və qeybət etmək, o cümlədən yalan vədlər vermək yolverilməzdir.

**OĞLAQ** - Maliyyə problemləriniz olsa da, bu, işgüzarlığınızı azaltmayacaq. Hətta ola bilsin ki, saat 15-18 arası maraqlı və perspektivli təkliflər də alasınız. Addımlarınızda məsuliyyətli olun.

**SUTÖKƏN** - Astroloji göstəricilər yalnız səfər və qonaqlıqlar üçün səmərəli vaxt olduğunu bəyan edir. Digər məsələlərdə, xüsusən də fəaliyyət zəminində isə proseslər o qədər də uğurlu olmayacaq.

**BALIQLAR** - Adətən ilin bu ərəfəsində şəxsi işlərinizdə yeni mərhələ baş qaldırır. Bu günə də məhz belə proqnozlar təyin olunub. Sadəcə müsahiblərinizə diqqətlə qulaq asmalısınız.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Hitlerə oxşadığı üçün döyülən pişik



İngiltərədə Baz adlı yeddi yaşındakı pişik ""Hitlerə bənzədiyi" üçün işgəncəyə məruz qalıb. Hücum edən şəxslərin kim olduğu tapılmasa da, pişik işgəncə nəticəsində sol gözünü itirib. Hazırda pişik müalicə olunur və vəziyyəti yaxşılığa doğru gedir. "Daily Mail"in xəbərinə görə, burnunun alt hissəsində tüklərin olmasına görə Hitlerə bənzədilən pişik ölmək üzrə ikən zibil qutusunda tapılıb. Bazın sahibi 26 yaşlı Kristi Sparrou deyib ki, bu hadisə 5 ay bundan öncə baş verib: "Gözü tamamən yaxşılaşıb və keçmişlə müqayisədə vəziyyəti daha da ağırlaşdı. Bir çox insan onun Hitlerə bənzədiyini düşünür. Ancaq o, çox ürkək və mədənidir. Yaşadıqlarından sonra heç də əsəbi olmadı, bu, çox qəribədir. Bağçada dayansa da, bayıra çıxdığı üçün özünü çox xoşbəxt hiss edir". Bazın müalicəsi üçün İngiltərənin bir çox bölgəsindən pul yardımı göndərilib. Sahibəsi deyir ki, pişiyi Hitlerə bənzəyirsə, bu, onun suçu deyil: "Özü də çox şirindir. O, hər zaman belə idi. Niyə kimsə bir heyvana qarşı belə bir pislik edər, anlamıram".

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

Lisenziya N: B 114
SAYI: 5.600

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "E-Q" mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.